EVDƏ QAL, SAĞLAM QAL!

## İran Prezidenti Həsən Ruhani Prezident İlham Əliyevə telefonla zəng edib



Bax 3

## Mehriban Əliyeva Azərbaycanın xristian icmasını təbrik edib



Bax 4




"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 064 (6029) 21 aprel 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## Moldovalı publisist: Azərbaycan xalqı Prezidentinə inanır, çünki vətəndaşlar bu çətin günlərdə də onun qayğısını hiss edirlər

Moldovanın nüfuzlu Tribuna.md portalında Prezident İlham Əliyevin Azərbaycanda yeni koronavirus infeksiyasının yayılmasına qarşı həyata keçirdiyi uğurlu siyasətinə dair məqalə...





Bax 4

## İlham Əliyev: "Bu gün bizim enerji potensialımız artan iqtisadiyyatı dəstəkləyir"

*Prezident İlham Əliyev "Azərenerji" ASC-nin yenidən qurulan Baş idarəetmə, elm, tədris və laboratoriya kompleksinin açılışında iştirak edib*



Bax 2

## İmtahanların tarixləri nə vaxt elan ediləcək?

Bax 10

Dövlət İmtahan Mərkəzi karantin bitdikdən sonra dərhal ali və orta ixtisas təhsili müəssisələrinə sənəd qəbulunun və qəbul, buraxılış imtahanlarının tarixlərini elan edəcək. SİA-nın məlumatına görə, bunu Dövlət İmtahan Mərkəzinin şöbə müdiri Nigar Hüseynova deyib. İmtahanların tarixləri barədə hələlik heç nə deyə bilmədiklərini deyən N.Hüseynova qeyd edib ki, tarixlərin müəyyən edilməsi Nazirlər Kabineti...



## "İrates"

### Ermənistanda xalq üsyanı və çörək qiyamından yazdı

*Ermənistanda yaşanan sosial-iqtisadi böhranın əsas səbəbkarlarının əvvəlki hakimiyyətlər və hazırkı hökumətin olması kimsəyə sirr deyil. Lakin COVID-19 adlı virusun bəşəriyyətə...*





Bax 11

## Ronaldonu İnstaqramda yarım milyard fanat izləyir!



"Yuventus"un hücumçusu Kriştiano Ronaldo futboldakı uğurunu sosial mediaya da daşıya bilib. Qol.az-ın xəbərinə görə, portuqaliyalı futbolçunun izləyicilərinin sayı son bir ildə fantastik...

Bax 16

## Mübariz Qurbanlı: "Hakimiyyətlə xalq birliyinin mövcud olması koronavirusa qarşı mübarizədə böyük əhəmiyyət daşıyır"



Bax 6

## Bəhruz Quliyev: "Azərbaycanda həyata keçirilən siyasətin mərkəzində ölkə vətəndaşı dayanır"



Bax 7

## Ruhunu şeytana satan müxalif "virtual terroristlər"



Bax 14

# İlham Əliyev: "Bu gün bizim enerji potensialımız artan iqtisadiyyatı dəstəkləyir"

## *Prezident İlham Əliyev "Azərenerji" ASC-nin yenidən qurulan Baş idarəetmə, elm, tədris və laboratoriya kompleksinin açılışında iştirak edib*

**Aprelin 20-də Bakıda "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin yenidən qurulan Baş idarəetmə, elm, tədris və laboratoriya kompleksi açılıb. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılış mərasimində iştirak edib.**



Qeyd edək ki, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə əsaslı islahatlar həyata keçirilir. İcra olunan layihələrin nəticəsində strateji əhəmiyyət kəsb edən sahələr də yeni inkişaf mərhələsinə qədəm qoyur. Bu baxımdan son illərdə respublikamızda enerji sektorunun müasirləşdirilməsi və inkişafı istiqamətində görülən işlər də miqyası və əhəmiyyəti ilə seçilir. Respublikanın enerji sisteminin etibarlılığının təmin edilməsi və bu sahədə mükəmməl infrastrukturun yaradılması baxımından həyata keçirilən tədbirlər isə ardıcıl və kompleks şəkildə davam etdirilir. "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin Baş idarəetmə, elm, tədris və laboratoriya kompleksinin müasir səviyyədə yenidən qurulması da bunun bariz nümunəsidir. Bütün bunlar göstərir ki, hazırda ölkəmizdə enerji sektorunun inkişafına, onun maddi-texniki bazasının gücləndirilməsinə xüsusi önəm verilir və bunun nəticəsində hazırda Azərbaycan öz daxili enerji tələbatını tam ödəməklə yanaşı, elektrik enerjisini ixrac da edir.

"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev görülən işlər barədə dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, 1986-cı ildə istifadəyə verilən və o vaxtdan təmir edilmədiyinə görə yararsız vəziyyətə düşən bina əsaslı təmir olunaraq, müasir memarlıq üslubunda, yüksək səviyyədə yenidən qurulub. Ətrafda abadlıq işləri görülüb, yaşıllıq sahələri salınıb.

Dövlətimizin başçısına binada fəaliyyət göstərəcək Baş İdarəetmə Mərkəzi barədə məlumat verildi. Bu mərkəz vasitəsilə enerjisistemin avtomatik idarəedilməsinin, idxal-ixrac proseslərinin, tənzimləmələrin həyata keçirilməsi nəzərdə tutulur. Əməliyyatlar insan müdaxiləsi olmadan məsafədən həyata keçirilir. Hazırda burada müasir avadanlıqlar və proqram təminatı ilə təchiz ediləcək yeni SCADA sistemi qurulur. Yeni sistem əsas və Ehtiyat Dispetçer İdarəetmə Mərkəzindən, 7 Regional Monitorinq Mərkəzindən ibarət olmaqla, ilkin mərhələdə 21 elektrik stansiyasını və 80 yarımstansiyanı əhatə edəcək. Yeni SCADA layihəsinin ilin sonunda tam başa çatdırılması nəzərdə tutulur.

Diqqətə çatdırıldı ki, on ədəd nəzəri və praktik trenajor zalının yaradıldığı kompleksin Tədris Mərkəzində enerji sistemində çalışan şəxslərə yeni texnika və texnologiyanın öyrədilməsi və onların idarə edilməsi tədris olunacaq. Bu məqsədlə nəzəri və praktiki məşğələlərin tədrisi üçün sinif otaqları təşkil edilib. Burada stansiya və yarımstansiyaların simulyasiyası, rele mühafizəsi və avtomatika, alternativ və bərpa olunan enerji mənbələri, informasiya texnologiyaları, elektrik təhlükəsizliyi və digər aidiyyəti otaqlar yaradılıb.

Binada ilk dəfə olaraq müasir avadanlıqla təchiz edilən 500 nəfərlik Energetiklərin Mədəniyyət Mərkəzi yaradılıb. Burada ölkəmizin həyatında baş verən əlamətdar hadisələri, eyni zamanda, energetiklərin fəaliyyəti ilə bağlı təşkil olunan tədbirləri yüksək səviyyədə keçirmək mümkün olacaq.

Yenidənqurmadan sonra "Azərenerji" ASC-nin mərkəzi aparatı bu binaya köçürülüb. Əməkdaşların fəaliyyəti üçün bütün zəruri avadanlıqla təchiz edilən iş, toplantı, arxiv otaqları, 165 nəfərlik yeməkxana yaradılıb. Elektron kitabxana və istirahət guşələri də işçilərin ixtiyarına veriləcək. Bundan başqa, burada Azərbaycan Energetika İnstitutu da fəaliyyət göstərir.

Prezident İlham Əliyevə "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin Baş İdarə binasının yenidənqurma layihəsi barədə də məlumat verildi.

Kompleksin yeni Laboratoriya Mərkəzi müasir səviyyədə qurulub. Burada müxtəlif növ sınaqların aparılması üçün bütün imkanlar mövcuddur. Ən son model avadanlıqla təchiz olunan laboratoriyalarda geotexnika, geodeziya, inşaat, kimya, metalların və inşaat materiallarının sınağını və digər laborator işləri görmək və onları sertifikatlaşdırmaq mümkün olacaq. Bu isə öz növbəsində enerjisistemin uzunmüddətli istismarını təmin edəcək. Qeyd edək ki, bu cür laboratoriyalar ölkədə ilk dəfə yaradılıb.

Kompleksin binasında tibbi maskaların istehsalı üçün xüsusi otaq da ayrılıb, zəruri avadanlıq quraşdırılıb. Burada İdman, Sağlamlıq və Tibb Kompleksi də müasir səviyyədə qurulub. Kompleksdə əməkdaşların idmanla məşğul olması üçün geniş imkanlar var.

Sonra Prezident İlham Əliyev "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin bir qrup əməkdaşı ilə görüşdü. Dövlətimizin başçısı görüşdə çıxış edərək bildirib ki, bu bina energetiklərə qaytarılandan sonra artıq 2018-ci ilin sonunda burada əsaslı yenidənqurma-təmir işləri başlamış və uğurla başa çatdırılmışdır. Bu, bir daha onu göstərir ki, Azərbaycan dövləti energetika sahəsinə çox böyük əhəmiyyət verir:

"Təsadüfi deyil ki, bizim infrastruktur layihələrinin icrası ilə bağlı ilk addımlarımız məhz energetika sahəsinə də aid idi. Hələ 2004-cü ildə regionların birinci sosial-iqtisadi inkişafı Dövlət Proqramı qəbul edilərkən orada infrastruktur layihələrinin arasında əsas diqqət energetika sahəsinə yönəlmişdi. Bu, təbii idi. Çünki o vaxt biz özümüzü elektrik enerjisi ilə təmin edə bilmirdik. Biz xaricdən elektrik enerjisi alırdıq. Həm valyuta xaricə gedirdi, həm də bizim mövcud infrastruktur xətlərimiz imkan vermirdi ki, ölkəmizi elektrik enerjisi ilə təmin edək. Hətta Bakı şəhərində gecə saatlarında elektrik enerjisi kəsilirdi. Yadımdadır, - gənc nəslin nümayəndələri bəlkə də bunu xatırlamır, - o vaxt hətta televiziya verilişləri axşam saat 12-də dayandırılırdı ki, insanlar televiziyaya baxmasınlar, enerjidən çox istifadə etməsinlər. Yəni, böyük qıtlıq var idi. O ki qaldı, Azərbaycanın bölgələrinə, orada ümumiyyətlə, enerji təminatı çox pis vəziyyətdə idi. Ən yaxşı halda sutka ərzində 2-4 saat elektrik enerjisi verilirdi və əlbəttə ki, bu, həm insanların həyat tərzinə mənfi təsir göstərirdi, eyni zamanda, bizim iqtisadi, sənaye potensialımızın artımına da böyük problem yaradırdı. Ona görə mənim göstərişimlə birinci regional inkişaf proqramında bu məsələyə çox böyük diqqət göstərildi və biz dərhal işlərə başladıq. O vaxt regional elektrik stansiyalarının tikintisinə başlamışdıq. Astara, Xaçmaz, Şəki, Şahdağ və Səngəçalda elektrik stansiyalarının tikintisi müəyyən dərəcədə imkan yaratdı ki, öz tələbatımızı özümüz təmin edək. Ancaq bununla paralel olaraq yeni elektrik stansiyalarının, böyük elektrik stansiyalarının inşası da nəzərdə tutulurdu və son 16 il ərzində bütövlükdə ölkəmizdə 30-dan çox yeni stansiya tikilmişdir. Əgər bu stansiyalar tikilməsəydi, bu gün Azərbaycan idxaldan bəlkə də 5 qat, 10 qat daha çox asılı olacaqdı, nəinki 2000-ci illərin əvvəllərində. Bu stansiyalar arasında böyük stansiyalar xüsusilə əhəmiyyət daşıyır. Ən böyük stansiya Şirvan şəhərində tikilmişdir - "Cənub" Elektrik Stansiyası. Onun generasiya gücü təxminən 800 meqavata bərabərdir. Ondan sonra Sumqayıt Elektrik Stansiyası, 525 meqavat. "Şimal 2" bu yaxınlarda istifadəyə verilib. Onun generasiya gücü 400 meqavata yaxındır. "Səngəçal" stansiyasının generasiya gücü 300 meqavatdır. Təkcə bu dörd stansiyanın generasiya gücü 2 min meqavatdan çoxdur. Bundan əlavə, ölkəmizin müxtəlif yerlərində su elektrik stansiyaları tikildi. Bildirməliyəm ki, Naxçıvan Muxtar Respublikasında tikilmiş su elektrik stansiyalarının generasiya gücü bütün muxtar respublikanın tələbatını ödəmək iqtidarındadır. Vaxtilə İrandan və Türkiyədən elektrik enerjisi alan Naxçıvan Muxtar Respublikası indi özünü tam təmin edir və eyni zamanda, orada ixrac potensialı da yaranmışdır. O cümlədən bütövlükdə ölkəmizdə bu gün ixrac potensialı var və biz elektrik enerjisini idxal edən ölkədən elektrik enerjisini ixrac edən ölkəyə çevrilmişik.

Əlbəttə ki, bu böyük infrastruktur layihələri böyük vəsait tələb edir. Bu vəsaitin böyük bir hissəsi büdcənin hesabına təmin edildi, digər hissə götürülmüş kreditlər hesabına və bu kreditlər qaytarılır. Beləliklə, biz çox müasir enerji sistemimizi yaratdıq və bu gün dayanıqlı enerji təchizatı ölkə üzrə çoxdan təmin edilib. Bundan əlavə, xüsusilə son illərdə görülmüş işlər enerji təsərrüfatını tamamilə yeniləşdirib. Yüksəkgərginlikli xətlər, bizi qonşu dövlətlərlə birləşdirən xətlər inşa edildi, bir çox yerlərdə yeni yarımstansiyalar tikildi, transformatorlar quraşdırıldı. Bölgələrə çoxsaylı səfərlərim çərçivəsində mən həmişə maraqlanıram və vətəndaşlardan soruşuram ki, enerji təminatı necədir? Son illər ərzində hər zaman müsbət rəylər eşidirəm. Bu, məni çox sevindirir. Bu, onu göstərir ki, "Azərenerji" və "Azərişıq" bu istiqamətdə çox böyük işlər görürlər."

Dövlət başçısı qeyd edib ki, bizim enerji potensialımız artan iqtisadi inkişafımıza uyğun olmalıdır. Eyni zamanda, "Azərenerji" son iki il ərzində mövcud stansiyaların generasiya güclərinin bərpası barədə yeni layihə təqdim edib. Çünki bu stansiyaların əksəriyyəti çoxdan tikilib. Bu stansiyalarda mövcud vəziyyət bizi heç cür qane edə bilməzdi:

"Hamımızın yadındadır ki, Mingəçevir Elektrik Stansiyasında baş vermiş qəza hansı fəsadlara gətirib çıxardı. Ölkəmizi qaranlıq bürüdü. Metronun bütün stansiyalarında böhran yarandı və ölkəmiz qaranlığa qərq olmuşdu. Bu, ilk növbədə, səhlənkarlıq, məsuliyyətsizlik ucbatından baş vermiş qəza idi. Ona görə "Azərenerji"nin rəhbərliyi dəyişdirildi, cəzalandırıldı. Yeni rəhbərlik gətirildi. Yeni rəhbərlik qarşısında çox konkret vəzifələr qoyuldu və bu vəzifələr bu gün icra edilir. Çünki enerji təminatı hər bir ölkənin döyünən ürəyidir. Bu olmasa, heç nə olmayacaq. Bu olmasa, sənaye, kənd təsərrüfatı inkişaf etməyəcək, suvarma işləri təmin edilə bilməyəcək, ictimai nəqliyyat işləməyəcək. Ümumiyyətlə, həyat iflic vəziyyətə düşəcək. Ona görə bizim əsas məqsədimiz müstəqil enerji sistemi yaratmaq, xaricdən asılılığı aradan götürmək idi. Enerji potensialımızı elə həcmdə yaratmalı idik ki, bizim ehtiyatda da kifayət qədər generasiya güclərimiz olsun və bu gün bu var.

*Ardı Səh. 3*

## *Rəsmi xronika*

Prezident İlham Əliyev "Bakı şəhərində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən, Bakı şəhərində Sabit Orucov, Nizami, Mehdi Hüseynzadə və 28 May küçələrinin bir hissəsinin genişləndirilməsi və sözügedən küçələrin Yusif Səfərov küçəsi ilə kəsişməsinin təmin edilməsi məqsədilə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 11,6 milyon manat ayrılıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin yaradılması haqqında" 2017-ci il 6 noyabr tarixli 1665 nömrəli Fərmanında və 2017-ci il 4 dekabr tarixli 1704 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

# İlham Əliyev: "Bu gün bizim enerji potensialımız artan iqtisadiyyatı dəstəkləyir"

## *Prezident İlham Əliyev "Azərenerji" ASC-nin yenidən qurulan Baş idarəetmə, elm, tədris və laboratoriya kompleksinin açılışında iştirak edib*



Əvvəli Səh. 2

İndi müxtəlif rəqəmlər səslənə bilər, amma ən aşağı rəqəmlər onu göstərir ki, bizim hazırda ehtiyatda ən azı 1000 meqavat generasiya gücümüz var. Mövcud stansiyaların güclərinin bərpası artıq başa çatır. Bunların arasında, ilk növbədə, Mingəçevirdəki İstilik Elektrik Stansiyasını qeyd etməliyəm. Çünki bu, bizim ən böyük generasiya gücümüzdür və həmin stansiyada baş vermiş qəza nəticəsində ölkəmiz qaranlığa düçar oldu. Bu stansiyada 8 blokun hamısı yenidən qurulur. Ümid edirəm ki, yaxın bir neçə ayda bu stansiya tamamilə yenidən qurularaq istifadəyə veriləcək. Bu stansiyada təkcə bərpa olunan güclərin həcmi 600 meqavata yaxındır. Təsəvvür edin, ancaq bərpa işlərini düzgün aparmaqla biz 600 meqavat gücündə əlavə generasiyaya sahib olacağıq. Əgər bunu biz ayrıca bir stansiya kimi götürsək görərik ki, bu, ölkəmizin generasiya gücünə görə ikinci böyük stansiya olacaq, "Cənub" stansiyasından sonra.

Digər elektrik stansiyalarında da bərpa işləri aparılır və əminəm ki, biz bu istiqamətdə öz hədəfimizə çatacağıq. Bütün bu işlər, o cümlədən ölkəmizdə mövcud olan sabitlik, əmin-amanlıq, iqtisadi inkişaf, sənaye potensialımızın artması, eyni zamanda, qonşu ölkələrlə enerji xətlərinin təmin edilməsi, inşası ona gətirib çıxarır ki, xarici investorlar artıq bu sahəyə böyük maraq göstərirlər. Biz bunu həmişə arzulamışıq. Ancaq görəndə ki, xarici investor bu sahəyə maraq göstərmir, bütün işləri biz özümüz görürük, öz pulumuzla. Müəyyən hissəni biz borc kimi götürdük, amma əsas hissəni öz pulumuzla həll etdik və bu gün dünya miqyasında ən səmərəli enerji sistemindən biri məhz Azərbaycandadır və bunu təsdiqləyən Davos Ümumdünya İqtisadi Forumunun hesabatıdır. Bunu mən elə-belə demirəm. Beləliklə, Forumun hesabatında elektrik enerjisinin əlçatanlıq indeksinə görə Azərbaycan dünyada ikinci yerdədir. Təsəvvür edin, ikinci yerdə. Bizdən qabaq, sadəcə olaraq, bir ölkə var. Yəni, bir çox inkişaf etmiş ölkələri qabaqlamışıq. Özü də nə vaxt, qısa müddət ərzində.

Bizim müstəqilliyimizin hələ 30 yaşı tamam olmayıb. Biz müstəqil ölkə olanda enerji təsərrüfatımız bərbad vəziyyətdə idi. Ondan sonra daha da bərbad vəziyyətə düşdü. Biz o illəri xatırlayırıq. Burada bir "Barmek" şirkəti peyda olmuşdu, özü də qeyri-təmiz sxemlər əsasında, keçmiş məmurlarla sövdələşmə əsasında gəlib bizim Bakı şəhərinin bütün enerji təsərrüfatına sahib olub və pul qoymaq əvəzinə, bu sistemi bərbad vəziyyətə salıb, Azərbaycandan milyonlarla pul aparıb. Sonra da bu, azmış kimi, bizi hələ məhkəməyə vermək istəyirdi. Mənim göstərişimlə bu çirkin sövdələşməyə son qoyuldu, bu dələduz şirkət Azərbaycandan qovuldu və mənim Sərəncamımla o vaxt "Azərişıq" Səhmdar Cəmiyyəti yaradıldı. Adını da mən qoymuşam, "Azərişıq". Biz bütün enerji təsərrüfatımızı dövlət mülkiyyətinə qaytardıq. Əgər bunu etməsəydik, bu gün biz qaranlıq içində yaşayacaqdıq və "Azərenerji"nin bütün əmlakı dağıdılacaqdı, necə ki, bu bina. Təsəvvür edin, 13 min kvadratmetrlik binanı çıxardılar özəlləşdirməyə və ucuz qiymətə satmaq istəyirdilər. Əgər mən xəbər tutmasaydım, mənə məlumat verilməsəydi, göstəriş verməsəydim satacaqdılar. İndi görün siz nə gözəl binada yerləşirsiniz. Bu, demək olar ki, bizim enerji sistemimizin tənzimlənməsi işində əsas mərkəzdir. Skada sistemi, dispetçer sistemi, idarəetmə sistemi, hamısı burdadır, harada yerləşəcəkdi? Bizim enerji sistemimizi belə dağıtmaq istəyirdilər.

Ona görə bizim vətəndaşlar bunu bilməlidirlər və xatırlamalıdırlar. Bu gün haradan-hara gəlmişik, dünya miqyasında ikinci yerdəyik. Bu gün bizim enerji potensialımız artan iqtisadiyyatı dəstəkləyir. Təkcə bu ilin 3 ayında, - baxmayaraq ki, neftin qiyməti düşdü, koronavirus pandemiyası bizim ölkəmizə də çox böyük təsir göstərdi, - qeyri-neft sənayesi sahəsində artım 23 faizdir və bütün bu artan sənaye müəssisələri enerji tələb edir. Həm generasiya, həm ötürmə, həm dayanıqlı təchizat - bütün bunlar bu gün təmin edilir. Ona görə hesab edirəm ki, bu gün bu binanın açılışı çox böyük rəmzi məna daşıyır. Təbii ki, burada institut yerləşir, Baş İdarəetmə Mərkəzi, Tədris-Laboratoriya Mərkəzi, Dispetçer Mərkəzi və eyni zamanda, bu, bizim enerji sistemimizin yeni simasını əks etdirir. Bu bina artıq satışdan, hərracdan çıxarılaraq energetiklərə, onun sahiblərinə qaytarılmışdır. Ona görə bu binada işləyən vətəndaşlar öz vəzifə borclarını şərəflə yerinə yetirməlidirlər. Elə etməlidirlər ki, bizim enerji təminatımız daim yüksək səviyyədə olsun.

Bütün bunlarla yanaşı, hələ görüləcək işlər çoxdur. "Azərenerji"nin böyük planları var və hesab edirəm ki, ardıcıl siyasət nəticəsində bütün bu planlar həyata keçəcək. Bir daha demək istəyirəm ki, bütün bu müsbət dinamika və eyni zamanda, sabitlik ona gətirib çıxardı ki, xarici investorlar Azərbaycana pul qoymaq qərarına gəlmişlər. Bu ilin yanvar ayında ilkin razılaşma əldə edildi və bərpa olunan enerji sahəsində böyük təcrübəyə malik 2 böyük şirkət Azərbaycanla ilkin sazişləri də imzaladı. Bu sazişlər əsasında ölkəmizdə 440 meqavat gücündə - biri külək, biri günəş olmaqla, 2 stansiya tikiləcəkdir, sırf xarici investorların hesabına. Onu da bildirməliyəm ki, bu layihələri icra etmək, yəni, investisiya qoymaq istəyən şirkətlərin sayı 7 idi. Mən ad çəkmək istəmirəm, onların arasında dünyanın ən böyük enerji şirkətləri də vardı. Ancaq müsabiqə onu göstərdi ki, 2 şirkət daha gözəl şərtlər verib və onlar artıq bu işləri başlamalıdırlar. Düzdür, bu koronavirus araya girdi, ola bilər ki, müəyyən yubanma olsun, amma prinsip etibarilə ilkin razılaşmalar əldə edilib. Bu, öz növbəsində, digər şirkətlərə də yol açacaq. Bizim bərpa olunan enerji potensialımız çox böyükdür, günəş, külək bizdə boldur. Ona görə əmin edirəm ki, həm yerli, həm də xarici şirkətlər bu sahəyə maraq göstərəcəklər.

Bir də xarici şirkətlərin fəaliyyəti ilə bağlı bildirməliyəm ki, müəyyən müddət ərzində biz bu sahəni dövlət inhisarında saxlamışdıq və mən bunun səbəbini də bildirdim. Ancaq hazırda Azərbaycana investisiya qoymaq istəyən istənilən şirkət öz təkliflərini versin və yeni stansiyalar tiksin, investisiya qoysun və bizimlə bərabər işləsin.

Bilirəm ki, bəzi şirkətlərin mövcud stansiyalara marağı vardır. Ancaq buna baxmaq lazımdır, bu, bizə lazımdır, yoxsa yox. Çünki mövcud stansiyalar hamısı işlək vəziyyətdədir, dövlət hesabına böyük investisiyalar qoyulub. Əgər hansısa xarici şirkət bizdən o stansiyaları daha yaxşı işlədə bilərsə, buyursun təklif versin, göstərsin ki, nədir bunun üstünlüyü, əgər bu, özəl əllərdə olarsa baxarıq, əgər onlar doğrudan da daha səmərəli işləyəcəklərsə işləsinlər. Ancaq xarici investorları mən, ilk növbədə, yeni stansiyalara yönəltmək istəyirəm. Gəlsinlər pul qoysunlar. Yoxsa hazır vəziyyətdə gəlməyi hər kəs istəyər. Gəl pul qoy, istehsal et, ötür ümumi sistemə və öz biznesini genişləndir. Bax, mənim xarici şirkətlərə tövsiyəm bundan ibarətdir, o cümlədən yerli şirkətlərə. Əminəm ki, bundan sonra dövlət-özəl sektor tərəfdaşlığı bu sahədə də mümkün olacaqdır."

***

"Azərenerji" ASC-nin Enerji istehsalı idarəsinin gənc mühəndisi Aytac Süleymanova dedi: Möhtərəm cənab Prezident, koronavirus pandemiyasının yayıldığı bir zamanda bu açılışa gəlməyiniz Ali Baş Komandan kimi biz energetiklərə, Sizin əsgərlərinizə stimul verməklə yanaşı, həmçinin məsuliyyətimizi daha da artırır. Bundan əlavə, Sizin tapşırığınızla 2018-ci ildə energetiklərin balansına geri qaytarılan bu binanın yenidən qurularaq tam istifadəyə verilməsi olduqca əlamətdar hadisədir. Çünki Azərbaycan energetiklərinin bugünkü zamana qədər hazırkı şəraitdə ən yüksək müasir texnoloji avadanlıqlarla təchiz edilmiş dispetçer idarəetmə sistemi, laboratoriya, təlim-tədris və mədəniyyəti mərkəzlərindən ibarət kompleksi olmayıb. Bütün bunlar bu sahədə çalışan, fəaliyyət göstərən peşəkar mütəxəssislərlə, energetiklərlə yanaşı, həmçinin biz gənc mütəxəssislərə də verilən böyük töhfə və stimuldur.

Sizi əmin edirik ki, yaradılan bu imkanlardan tam səmərəli istifadə etməklə elmi-texniki potensialı kadr potensialına çevirməyə çalışacağıq. Bütün bunlara və pandemiyanın geniş yayıldığı bu günlərdə biz də daxil olmaqla, ölkənin bütün vətəndaşlarına göstərdiyiniz diqqət və qayğıya görə Sizə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz dərin minnətdarlığımızı bildiririk.

Prezident İlham Əliyev: Çox sağ olun.

***

"Azərenerji" ASC-nin Texniki istehsalat idarəsinin gənc mühəndisi Muxtar Mahmudov dedi: Hörmətli cənab Prezident. Sizin elektroenergetika strategiyanıza uyğun olaraq həyata keçirilən islahat, inkişaf və tərəqqi mərhələləri bu gün də uğurla davam etdirilir. Baxmayaraq ki, karantin vəziyyətidir, "Azərenerji" ASC həyati əhəmiyyətli dövlət müəssisəsi kimi 24 saat fasiləsiz fəaliyyət göstərir, bu çətin günlərdə qabaqlayıcı tədbirlərin icrası ilə öz işini görür. Biz insanlara "Evdə qal" deyiriksə, onları fasiləsiz, dayanıqlı elektrik enerjisi ilə təmin etmək borcumuzdur. Sizin xüsusi diqqətiniz və enerji strategiyanız sayəsində enerji sistemində yenidənqurma, təmir-bərpa işləri bu gün də uğurla davam etdirilir.

Möhtərəm cənab Prezident, xüsusi diqqət və qayğı göstərərək gəlişinizlə biz energetiklərə böyük ruh, fərəh verdiyiniz üçün Sizə dərin minnətdarlığımızı bildiririk. Bütün energetiklər adından Sizə bir daha söz veririk ki, istehlakçıların fasiləsiz və dayanıqlı elektrik enerjisi ilə təchizatı daim təmin ediləcək, evlərimizdə gur işıqlar yanacaq.

Prezident İlham Əliyev: Çox sağ olun. Təşəkkür edirəm. Bir daha sizi təbrik edirəm. Sağ olun.

## İran Prezidenti Həsən Ruhani Prezident İlham Əliyevə telefonla zəng edib

Aprelin 20-də İran İslam Respublikasının Prezidenti Həsən Ruhani Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib. Bu barədə Prezidentin Mətbuat xidmətindən Trend-ə məlumat verilib. Prezident İlham Əliyev və Prezident Həsən Ruhani Ramazan ayının gəlişi münasibətilə bir-birilərini təbrik edib və ən xoş arzularını xalqlarımıza çatdırmağı xahiş ediblər.



Dövlət başçıları ikitərəfli dostluq və qardaşlıq münasibətlərinin uğurla inkişaf etdiyini vurğulayıb, əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əminliklərini bildiriblər.

Söhbət zamanı koronavirus pandemiyası ilə mübarizə sahəsində ölkələrimizdə həyata keçirilən tədbirlər və görüləcək işlərlə bağlı məsələlər müzakirə edilib. Eyni zamanda, pandemiya dövründə ölkələrimiz arasında tranzit-nəqliyyat sahəsində əməkdaşlıqdan, eləcə də yükdaşımaları, o cümlədən "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi üzrə daşımaların davam etdirilməsindən məmnunluq ifadə edilib, bu istiqamətlərdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.



# Mehriban Əliyeva Azərbaycanın xristian icmasını təbrik edib

***A**zərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Azərbaycanın xristian icmasını təbrik edib. SİA xəbər verir ki, bu barədə Mehriban Əliyevanın "Facebook" səhifəsində paylaşım edilib. "Azərbaycanın bütün xristian icmasını müqəddəs Pasxa bayramı münasibətilə səmimi-qəlbdən təbrik edirəm!*

Bu əziz gündə vətəndaşlarımızın sağlamlığı, xoşbəxt gələcəyi, ölkəmizin əmin-amanlığı naminə dualar edilir. Bütün bu dua və diləklərə qoşularaq əmin olduğumu bildirirəm ki, biz bu gün üzləşdiyimiz çətinliklərin öhdəsindən xalqımızın həmrəyliyi, əzmi və iradəsi sayəsində uğurla gələcəyik! Uca Tanrıdan hər birinizə möhkəm cansağlığı, uzun ömür və xoşbəxtlik arzulayıram!", - paylaşımda belə deyilir.

# Xarici İşlər Nazirliyində "Evə gedirəm" qeydiyyat portalının təqdimatı olub



***A**prelin 18-də Xarici İşlər Nazirliyində Rusiyada yaşayan vətəndaşlarımızın ölkəyə qayıdışı üzrə yaradılan "Evə gedirəm" adlı qeydiyyat portalının təqdimatı keçirilib. Bu barədə AZƏRTAC-a nazirliyin Mətbuat xidməti idarəsindən məlumat verilib. Xarici İşlər nazirinin müavini Ramiz Həsənovun rəhbərliyi ilə keçirilən görüşdə aidiyyəti dövlət qurumlarının nümayəndələri iştirak ediblər.*

Görüş zamanı yeni portalın fəaliyyəti və qeydiyyat prosesi haqqında ətraflı məlumat verilib, eləcə də prosesin müvafiq dövlət qurumları tərəfindən vahid mərkəzdən idarə edilməsi, vətəndaşlarla onlayn əks əlaqənin qurulması məsələləri üzrə fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, "Evə gedirəm" portalı vasitəsilə www.evegedirem.info internet səhifəsində xaricdə yaşayan həmvətənlərimiz onlayn qeydiyyata düşmək imkanı əldə edəcək, beləliklə də vətəndaşlarımızın Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirlik və konsulluqlarına müraciətləri tezləşəcək və onların Vətənə qayıdış prosedurlarına kömək göstəriləcək.

Saytda ilkin mərhələdə yalnız Rusiya Federasiyasında olan Azərbaycan Respublikası vətəndaşları qeydiyyatdan keçə biləcəklər. Saytda qeydiyyatdan keçmiş hər bir şəxsin elektron növbə ardıcıllığı yaranacaq və həmin ardıcıllığa uyğun olaraq vətəndaşlarımızın Azərbaycana qayıtma tarixləri təyin ediləcək, eləcə də vətəndaşların sərhəd-keçid məntəqələrindən müəyyən olunan sayda buraxılışının təmin olunması istiqamətində işlər tənzimlənəcək.

Azərbaycana qayıdış vətəndaşın istəyi nəzərə alınaraq hava və quru nəqliyyatı vasitəsilə təmin olunacaq. Azərbaycana hava yolu ilə geri dönüş istəyi olan şəxslərin AZAL və "Buta Airways"lə əvvəlcədən alınmış qayıdış bileti olarsa, həmin şəxslərin geri dönüşü ödənişsiz həyata keçiriləcək, digər şəxslər üçün isə çarter uçuşları ödənişlidir.

Müraciət edən şəxsin geri dönüş üçün müəyyən olunan tarix və keçid məntəqələri barədə məlumat portal vasitəsilə, mobil telefona SMS göndərilməklə və ya birbaşa zənglə əlaqə saxlanılaraq bildiriləcək.

Vətəndaşların Azərbaycana qayıdış tarixləri karantin rejiminin şərtlərinə uyğun tənzimlənəcək və ölkəyə qayıdan hər bir şəxs karantində yerləşdiriləcək.

18 aprel 2020-ci il Moskva vaxtı ilə saat 10:00-dan etibarən fəaliyyətə başlayan portalda qeydiyyat 23 aprel 2020-ci il saat 00:00-dək davam edəcək. Xatırladırıq, portalda yalnız xaricdə olan Azərbaycan vətəndaşları qeydiyyatdan keçə bilərlər

# Moldovalı publisist: Azərbaycan xalqı Prezidentinə inanır, çünki vətəndaşlar bu çətin günlərdə də onun qayğısını hiss edirlər

***M**oldovanın nüfuzlu Tribuna.md portalında Prezident İlham Əliyevin Azərbaycanda yeni koronavirus infeksiyasının yayılmasına qarşı həyata keçirdiyi uğurlu siyasətinə dair məqalə dərc edilib. AZƏRTAC xəbər verir ki, Moldovanın tanınmış siyasi şərhçisi, publisist və jurnalisti İqor Volnitski müəllifi olduğu məqalədə koronavirus pandemiyasına qarşı mübarizədə Azərbaycanın təcrübəsinin öyrənilməsinin vacibliyi vurğulanır.*




"Koronavirus pandemiyası və onun nəticələri dünyanın bütün ölkələri üçün bir problem kimi qəbul edilə bilər. Milli maraqlardan, iqtisadi imkanlardan, eləcə də bir sıra obyektiv və subyektiv amillərdən asılı olaraq hər bir ölkə bu təhlükəyə qarşı öz strategiyasını müəyyənləşdirir. Bu çərçivədə dost Azərbaycanın təcrübəsi öyrənilməyə layiqdir. Heç kimə sirr deyil ki, Cənubi Qafqazın regional gücü Prezident İlham Əliyevin iradəsi ilə dünya birliyinə inteqrasiya olunur. Onun rəhbərliyi ilə ölkədə aparılan səmərəli islahatlar, ilk növbədə, xalqın rifahının keyfiyyətcə yüksəlməsinə, iqtisadi artımın təmin edilməsinə və sosial sahənin möhkəmlənməsinə yönəldilib", - deyə müəllif qeyd edir.

Məqalədə vurğulanır ki, Azərbaycanda pandemiyanın yayılmasına qarşı dövlət başçısının qətiyyətli və təsirli tədbirləri öz səmərəsini göstərdi. Azərbaycanda olduqları müddətdə vəziyyəti dərindən araşdıran Ümumdünya Səhiyyə Təşkilatının ekspertləri bunun səmərəliliyini yüksək qiymətləndiriblər.

"Prezidentin hər bir Azərbaycan sakininə qayğısı təkcə əhalinin təhlükəsizliyi üçün məhdudlaşdırıcı tədbirlərlə kifayətlənmir, həm də insanları infeksiyadan qoruyucu vasitələrlə təmin etmək üçün təxirəsalınmaz tədbirlərdə də özünü göstərir. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın nəzarəti ilə ölkədə qısa müddətdə tibbi maskaların istehsalı təşkil edildi, müəssisənin gündəlik istehsalı 120 min ədəddən 250 min ədədə qədər artırıldı. Ölkə, həmçinin yerli tibbi spirt və digər dezinfeksiyaedici məhsulların istehsalını da həll etdi", - deyə müəllif məqalədə yazır.

Məqalədə qeyd olunur ki, Azərbaycan xalqı Prezidentinə inanır, çünki özünü təcrid etməyin çətin günlərində də hər bir ölkə vətəndaşı dövlət başçısının qayğısını hiss edir. Azərbaycan vətəndaşları əmindirlər ki, milli həmrəylik, məsuliyyət və birlik onlara koronavirusu məğlub etməyə imkan verəcək. Bu gün hər bir azərbaycanlının şüarı Prezidentin ən çox sevdiyi şüardır: "Biz birlikdə güclüyük!".

## Macarıstan nəşrində Azərbaycan-Macarıstan dostluğu barədə məqalə dərc edilib




***M**acarıstanın "Daily News Hungary" nəşri "Azərbaycan-Macarıstan dostluğu: "MOL" neft yataqlarını və boru kəmərlərini alır" adlı məqalə dərc edib (bax: https://dailynewshungary.com/azerbaijani-hungarian-friendship-hungarian-mol-bought-oil-fields-and-pipelines/).*

AZƏRTAC xəbər verir ki, məqalədə Macarıstanın "MOL" enerji konserni tərəfindən Azərbaycanda həyata keçirilən 1,57 milyard dollar həcmində investisiyadan söhbət açılır. Məqalədə deyilir ki, konsern Amerikanın "Şevron" şirkətindən onun Bakı-Tbilisi-Ceyhan neft kəmərində və "Azəri-Çıraq-Günəşli" neft yatağındakı payını əldə edib. Nəşr bu hadisəni tarixi razılaşma adlandırır.

# Amerikalı ekspert: Azərbaycan COVID-19-un fəsadlarının aradan qaldırılmasında böyük uğurlar əldə edib

***A**zərbaycan ictimai səhiyyə sahəsində böhranı aradan qaldırmaq və COVID-19 pandemiyası fonunda fövqəladə halların fəsadlarını milli səviyyədə azaltmaqda böyük uğurlar əldə edib. Bunu Trend-ə amerikalı ekspert, Avropa və Amerikadakı hökumətlər, universitetlər və korporasiyaların beynəlxalq məsələlər üzrə strateji məsləhətçisi Piter Teys deyib.*

P.Teys bildirib ki, Azərbaycan hökuməti səhiyyə və iqtisadiyyat sahəsində səmərəli tədbirlər görüb: "Ölkədə bütün xəstəxanalarda ən yaxşı heyət və tibb işçiləri çalışır.



Azərbaycanda bu beynəlxalq böhranın öhdəsindən gəlməyə və nəticələrini azaltmağa kömək edən maliyyə sektorunda uğurlu fəaliyyət mövcuddur".

Amerikalı ekspert qeyd edib ki, son üç ayda Azərbaycan pandemiyaya qarşı mübarizədə ən yaxşı nümunələrdən birini göstərdi və böhrandan çıxmaq üçün lazımi tədbirlər gördü: "İstehsal, qida sənayesi və əczaçılıq müəssisələrinə hökumət tərəfindən göstərilən dəstək sayəsində ölkədə ciddi iqtisadi azalma və işsizliyin artması müşahidə olunmur".

P.Teysin sözlərinə görə, Azərbaycan səhiyyə sahəsində bir çox tədbirlər görüb, makroiqtisadi strategiya həyata keçirib və işsizliyin azaldılması üzrə uğurlu yol xəritəsinə başlayıb: "Azərbaycan davam edən pandemiya ilə mübarizə sahəsində uğurluq fəaliyyət aparır. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan hökuməti milli iqtisadiyyatın bir çox strateji sahələrinin fasiləsiz fəaliyyətini təmin edən effektiv tədbirlər həyata keçirib".

O qeyd etdi ki, bu kontekstdə hökumət işçi qüvvəsini qorumaq və sahibkarları daha da həvəsləndirmək üçün mükəmməl qərarlar qəbul edib: "Bu qərarlar Azərbaycan xalqına böyük fayda və milli iqtisadiyyatın inkişafına öz töhfəsini verəcək. 600 min vətəndaşa göstərilən dövlət sosial yardımı 2020-ci ilin ikinci yarısında ölkə iqtisadiyyatının dayanıqlı inkişafını təmin edəcək".



# Prezidentə yazırlar: “Bizi bu bəladan qoruduğunuza, sağlamlığımızın və rifahımızın qayğısına qaldığınıza görə Sizə minnətdarıq”

***Koronavirus pandemiyası dövründə Azərbaycan əhalisinin sağlamlığının qorunması və rifahının yaxşılaşdırılması, xalqımızın bu bəladan daha az itkilərlə xilas olması istiqamətində gördüyü mühüm işlərə görə Prezident İlham Əliyevə respublikamızın bütün guşələrindən minnətdarlıq məktubları ünvanlanmaqda davam edir. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bir qismini təqdim edir.***

Şamaxı rayonundan olan yeddiqat dünya və Avropa çempionu Rüstəm Musayev yazır: “Hörmətli Prezident, cənab Ali Baş Komandan, biz idmançılar Sizin apardığınız daxili və xarici siyasəti tam dəstəkləmişik və dəstəkləyəcəyik. Sizi dəstəkləməyimizin səbəbi Azərbaycan xalqının xoşbəxt və firavan yaşaması, həmçinin sağlamlığımızın qorunması üçün yorulmadan çalışmağınızdır. Azərbaycanın uğurları ulu öndər Heydər Əliyevin əsasını qoyduğu siyasətin Sizin tərəfinizdən uğurla davam etdirilməsinin nəticələridir. Bu uğurlu siyasətin davamlı olması üçün Sizin kimi dövlət başçısına çox ehtiyacımız var. Sizin yüksək vətənpərvərliyiniz, xalqımıza bağlılığınız, möhkəm iradəniz, uzaqgörən dövlət xadimi olmağınız, həyata keçirdiyiniz layihələrin və apardığınız islahatların xalqımızın maraqlarına xidmət etməsi bizləri sevindirir və gələcəyə ümidlərimizi daha da artırır. Cənab Prezident, 2018-ci ilin idman sahəsində yekunları ilə bağlı Milli Olimpiya Komitəsində keçirilən hesabat tədbirində Siz mənə Bakı şəhərində 2 otaqlı mənzil hədiyyə etmisiniz. Bu, bizim ailəyə müstəsna kömək olmaqla yanaşı, idmançılara verilən böyük dəyərdir. Siz Azərbaycan kimi böyük bir ailəyə başçılıq edir, bu ailənin heç bir üzvünü unutmursunuz. Bütün dünyanın ağır pandemiya ilə üz-üzə qaldığı, dövlətlərin iqtisadi cəhətdən zəiflədiyi bir vaxtda Sizin Sərəncamınızla əhalinin rifahının daha da yaxşılaşdırılması üçün hazırlanan sosial paketlərdə bütün təbəqədən olan insanların - işsizlərdən tutmuş sahibkarlara qədər hər kəsin payı var. Bütün bunlara görə Sizə minnətdarlığımızı bildiririk. Biz idmançılar Sizinlə fəxr edirik və hər zaman yanınızdayıq. Çünki, Sizin dediyiniz kimi, “Biz birlikdə güclüyük!”.

Ucar rayonunun Alpout kəndindən təqaüdçü Əjdər Abbasovun məktubunda deyilir: “Möhtərəm cənab Prezident. Siz həmişə olduğu kimi, bu çətin günlərdə də xalqın yanındasınız. Sizin ölkəmizi COVID-19 pandemiyasından qorumaq üçün atdığınız addımlar bütün xalq tərəfindən dəstəklənir. Bu çətin günlərdə xalqımıza arxadayaq olduğunuz üçün Sizə minnətdarıq. Mən şəkər xəstəsi və 1-ci qrup gözdən əlil, həmçinin təqaüdçüyəm. Sizin qayğınız nəticəsində əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması üçün hazırlanmış sosial paketlərdən bütün təbəqələrdən olan insanlar kimi, bizim ailəyə də pay düşüb. Evimdə pulsuz dərman və zəruri tibbi ləvazimat ilə təmin olunmuşam. Cənab Prezident, pandemiyadan əziyyət çəkən aztəminatlı ailələrə, tənhalara, qocala, pensiyaçılara göstərdiyiniz köməyə görə ağsaqqallar, yaşlı insanlar və təqaüdçülər adından Sizə təşəkkür edirəm. Allahdan Sizə və ailənizə sağlam və uzun ömür diləyirəm.

Kürdəmir rayon Ziyalılar Cəmiyyətinin sədri Sabir Novruzov məktubunda qeyd edir: “Möhtərəm cənab Prezident, bütün dünyada koronovirus pandemiyasının hökm sürdüyü bir zamanda Siz xalqımızı bu bəlanın fəsadlarından uğurla qoruyursunuz. Sizin uğurlu siyasətinizin nəticəsində bu pandemiyanın ölkəmizə təsirləri minimuma endirilib. Möhtərəm cənab Prezident, hər bir vətəndaşınızın, xüsusən də yaşlı insanların sağlamlığını, rifahını düşünərək həyata keçirdiyiniz bu tədbirlər, yorulmaz fəaliyyətiniz hamı kimi, biz ağsaqqallarda da böyük qürur hissi yaradır, Sizin daim xalqımızın yanında olduğunuzu sübut edir. Hazırda respublikamızın bütün ağsaqqalları, yetişməkdə olan gənc nəsil yekdilliklə bu fikirdədirlər ki, Siz ulu öndər Heydər Əliyevin layiqli davamçısı olaraq Azərbaycanın vətənpərvər, mərhəmətli, qətiyyətli və müdrik rəhbərisiniz. Qəbul etdiyiniz hər bir humanist qərarda xalqı düşünürsünüz, daim xalqımızın yanındasınız və həyata keçirdiyiniz siyasətdə, verdiyiniz qərarlarda bu hər zaman özünü göstərir. İnanırıq ki, bu çətin günlərimiz geridə qalacaq. Sizə məsuliyyətli və şərəfli işinizdə yeni uğurlar arzu edirəm. Azərbaycan xalqı Sizinlə güclüdür. Biz Sizə güvənirik və Sizin yanınızdayıq”.

Laçın rayonundan məcburi köçkün Sənani İsgəndərov isə dövlətimizin başçısına minnətdarlığını aşağıdakı sözlərlə ifadə edir: “Hörmətli cənab Prezident, Siz bizləri - şəhid ailələrini, məcburi köçkünləri həmişə hər cür diqqət və qayğı ilə əhatə etmisiniz. İndiki qayğılı günlərdə bu diqqət daha da artıb. Qarabağ müharibəsi əlilləri, aztəminatlı ailələr də dövlətin dəstəyindən yararlanır, maddi yardımlar alırlar. Ailəmiz karantin rejiminin bütün tələblərinə əməl edir, lakin heç nədən korluq çəkmir. Çünki arxamızda Siz və dövlətimiz dayanıb. İnanırıq ki, qəbul etdiyiniz qərarlar xalqımızı qısa müddət ərzində pandemiya bəlasından xilas edəcəkdir”.

Gəncə şəhərindən müəllim Gülnar Hüseynova yazır: “Çox hörmətli cənab Prezident, nə yaxşı ki, Siz bizim ölkəmizin - Ulu Öndərimizin memarı olduğu müasir Azərbaycanımızın rəhbərisiniz. Nə yaxşı ki, bu çətin anlarda bizim arxamızdasınız, güvən yerimizsiniz. Burada bir deyim yada düşür: “Yaxşı ki, dünyada yaxşı var imiş, yoxsa tərk olardıq yaman əlindən”. Çətin anlarda, xalqın ağır günlərində onun yanında olmaq, onun taleyini düşünərək qabaqlayıcı tədbirlər görmək - bütün bunlar Sizə xas olan xüsusiyyətlərdir. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xalqa müraciətində o qədər yaxınlıq, istilik duyulurdu ki, sanki ana qayğısı, bacı mərhəməti, nənə şəfqəti idi. Mən bir sadə vətəndaş, bir müəllim olaraq bütün bunlara görə Sizə dərin təşəkkürümü bildirirəm”.

Mingəçevir şəhərindən Nurcamal Əsgərovanın minnətdarlıq məktubunda bildirilir: “Çox hörmətli Prezident, ölkəmizdə aparılan işlər, görülən tədbirlər bir vətəndaş olaraq bizi qürurlandırır. Biz əminik ki, Azərbaycan xalqının sağlamlığının qorunması sahəsində apardığınız məqsədyönlü tədbirlər tezliklə ölkəmizin koronavirus xəstəliyindən qurtulmasına imkan verəcəkdir. Bu sahədə aparılan işlər Sizin birbaşa rəhbərliyiniz və tapşırıqlarınızla həyata keçirilir. Siz hər bir vətəndaşın sağlamlığını düşünürsünüz. Sizin tapşırıqlarınızla görülən bütün tədbirlər hər bir vətəndaşın sağlamlığının, rifahının təmin olunmasına xidmət edir. Biz bunu yaxşı başa düşürük və bu mübarizədə daim Sizinlə həmrəyik. Cənab Prezident, bu yolda Sizə uğurlar, cansağlığı arzu edirik. Ulu Tanrı Sizi qorusun. Biz hər zaman Sizinləyik”.

Şəki şəhər sakini Sevil İbrahimova yazır: “Hörmətli Prezidentim, Sizin dövlətimiz üçün apardığınız islahatlar, xarici siyasətiniz və xalqımızın rifahı naminə gördüyünüz işlər bizim tərəfimizdən həmişə alqışlanmışdır. Bu gün isə bu çətin vəziyyətdə xalqımızın pandemiyadan qorunması naminə gördüyünüz qabaqlayıcı tədbirlər Sizin nə qədər uzaqgörən və millətini sevən bir rəhbər olduğunuzu bir daha göstərdi. Biz Sizinlə fəxr edirik və qürur duyuruq”.

Şəmkir rayonunun Zəyəm qəsəbəsindən Bahar Hacıyeva: “Hörmətli cənab Prezident, dünyanı cənginə alan COVID-19 pandemiyası, təəssüf ki, Azərbaycandan da yan keçmədi. Sizin uzaqgörənliyiniz sayəsində ölkəmizdə bu virusa qarşı mübarizə çox yüksək səviyyədə təşkil olunmuş, qısa zaman ərzində əhalinin qorunması ön plana çəkilmişdir. Ulu öndər Heydər Əliyevin siyasətini qoruyub saxladığınıza görə Sizə dərin minnətdarlığımızı bildiririk. Ulu Tanrı Sizi və ailənizi qorusun. Əminik ki, gələcəkdə də bütün addımlarınızı xalqın rifahı naminə atacaqsınız. Sizə sonsuz təşəkkür edirəm. Biz Sizinlə fəxr edirik. Sizə və ailənizə möhkəm cansağlığı arzu edirik”.

Bakı şəhəri Sabunçu rayonunun Zabrat qəsəbəsindən Aysel Əliyeva: “Çox hörmətli Prezidentimiz, Sizə və ailənizə cansağlığı arzu edirəm. Çox sağ olun ki, bu çətin günlərdə bizlərə dəstəyinizi əsirgəmirsiniz. İşə çıxmasaq belə əməkhaqlarının ödənilməsi, səhiyyə işçilərinə böyük dəstəyiniz, tələbələrin təqaüd və təhsil haqlarının ödənilməsi, aztəminatlı ailələrin rifahının yaxşılaşdırılması üçün edilən maddi yardımlara görə bütün gənclər adından Sizə və Mehriban xanıma təşəkkürümü bildirirəm. Çox sağ olun, cənab Prezident. Allah Sizləri, övladlarınızı, gözəl nəvələrinizi qorusun. Mən Sizi çox istəyirəm. Siz çox yaxşı insan və dövlət başçısısınız”.

Lənkəran rayonunun Liman şəhərindən Saleh İsrafilov: “Çox hörmətli cənab Prezident, dünyanı bürümüş koronavirus pandemiyasının ölkəmizdə yayılmaması üçün Sizin rəhbərliyinizlə görülən ardıcıl və məqsədyönlü tədbirlər Qarabağ müharibəsi əlili olaraq məni çox sevindirir. Ölkəmizdə və beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilən bu tədbirlər Sizin uğurlu siyasətinizin mərkəzində insan amilinin, insana və vətəndaşa yüksək qağının dayandığını əyani şəkil sübut edir. Əziz Prezidentimiz, xalqımızın böyük oğlu, ümummilli liderimiz Heydər Əliyevin 1990-cı illərdə müstəqilliyimizi, dövlətçiliyimizi, xalqımızı faciələrdən qoruduğu kimi, Siz də bu gün xalqımızı çox böyük bəladan qoruyur, hər bir vətəndaşın sağlamlığının qayğısına qalırsınız. Çox hörmətli Prezidentimiz, inanırıq ki, Sizin və ölkəmizin Birinci vitse-prezidenti, birinci xanım Mehriban Əliyevanın rəhbərliyi ilə xalqımız bu bəladan da uğurla çıxacaqdır. Gördüyünüz misilsiz işlərə görə Sizə və Mehriban xanıma minnətdarlığımı bildirirəm. Torpaqlarımızın düşmən işğalından azad edilməsi, ölkəmizin daha da inkişafı yolunda biz - müharibə veteranları daim Sizinləyik. Uca Allah Sizi qorusun!”.

Bakı şəhərinin Nəsimi rayonundan Gülarə Verdiyeva: “Möhtərəm cənab Prezident, hazırda dünyada tüğyan edən koronavirus epidemiyası bütün ölkələr kimi, bizim də iqtisadiyyatımıza, maliyyə sistemimizə öz təsirini göstərib. Lakin Sizin rəhbərliyinizlə ölkəmizdə həyata keçirilən tədbirlər həm iqtisadiyyatımızın, həm də maliyyə sistemimizin böhrandan xilas olmasına, eləcə də xalqımızın bu pandemiyadan maksimum qorunmasına gətirib çıxarıb. Nəhəng dövlətlərin virus qarşısında aciz qaldığı, vətəndaşını qoruya bilmədiyi bir zamanda məhz Sizin qabaqlayıcı tədbirləriniz sayəsində bizlər çox arxayınıq və rahatlıqla öz həyatımızı yaşayır, pandemiyadan maksimum şəkildə qorunur, daha az zərər görürük. Dövlətimizin həyata keçirdiyi tədbirlər sayəsində insanlarımızın sağlamlığının qorunması üçün ölkəmizdə münbit şərait yaradılıb. Cənab Prezident, Sizin “Biz birlikdə güclüyük!” çağırışınız bu gün xalqımızın həmrəylik şüarına çevrilib. Hər bir vətəndaşımız Sizin nəcib və nümunəvi addımınza həmrəylik göstərərək, xalq-iqtidar birliyini nümayiş etdirib ölkəmizin bu böyük bəladan qurtulması, eləcə də vətəndaşlarımızın sosial rifahının yaxşılaşdırılması naminə əlindən gələni əsirgəmir. Möhtərəm cənab Prezident, bizim rahatlığımız və sağlamlığımız üçün verdiyiniz hər bir qərarda vətəndaşlarımızın sosial vəziyyətini düşündüyünüzə görə Sizə dərin minnətdarlığımı bildirirəm”.

Saatlı rayonundan Mirkamal Zeynallı və Rəmayə Zeynallı yazırlar: “Möhtərəm cənab Prezident, yeni növ koronovirus infeksiyasının yayılmasının qarşısının alınması üçün görülən tədbirlərə, vaxtında atılan addımlara, insanların sağlamlığını, təhlükəsizliyini, rahatlığını və rifahını hər şeydən üstün tutduğunuza görə Sizə minnətdarıq. Azərbaycan vətəndaşlarına göstərdiyiniz qayğı ilə bunu bir daha nümayiş etdirdiniz. Biz Zeynallılar ailəsi gördüyünüz bütün işlərə, ölkəmiz və xalqımız üçün göstərdiyiniz tarixi xidmətlərə görə Sizə və Birinci xanım Mehriban Əliyevaya sonsuz minnətdarlığımızı bildiririk. Allah Sizləri qorusun, cənab Prezident”.

Xaçmaz rayonunun sakini Şəhriyar Əhməd: “Hörmətli cənab Prezident, bu gün dünya gözlə görünməyən düşmənlə üz-üzədir. Koronavirus pandemiyası demək olar ki, bütün dünyanı əhatə edib və iflic vəziyyətinə salıb. Cənab Prezident, Azərbaycan əhalisini koronavirus təhlükəsindən qorumaq üçün Siz ilk gündən etibarən çevik qərarlar qəbul etdiniz və qabaqlayıcı tədbirlər gördünüz. Sizin çox uzaqgörən, mühüm və düşünülmüş qərarlarınız bizi bu gün faciə ilə üzbəüz qalan və ondan əziyyət çəkən inkişaf etmiş ölkələrin taleyindən xilas etdi. Həmişə olduğu kimi, bu ağır dövrdə də Siz sadə vətəndaşların yanındasınız və öz qayğınızı heç kimdən əsirgəmirsiniz. Biz Sizə inanırıq. Biz əminik ki, koronavirusa qarşı mübarizədə Sizin qəbul etdiyiniz həlledici qərarlar insanlarımıza bu bəladan az itkilərlə qurtulmağa yardım edəcək. Biz buna görə Sizə minnətdarıq. Məsuliyyətli işinizdə Sizə səbir və qüvvət arzulayırıq. Allahdan Sizə və ailə üzvlərinizə möhkəm cansağlığı arzu edirəm. Azərbaycan xalqı daim Sizinlədir. Biz Sizi çox sevirik”.

Daşkəsən rayonunun Qaraqollar kəndinin sakinləri Şəfəq Bayramova və Fəqani Qənbərovyazırlar: “Hörmətli cənab Prezident.

Sizin gördüyünüz bütün işlərin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Azərbaycan xalqının sağlamlığı, təhlükəsizliyi, rahatlığı və rifahı Sizin üçün hər şeydən üstündür. Bunu hər bir Azərbaycan vətəndaşı görür və qiymətləndirir. Siz Azərbaycanın milli-mənəvi və tarixi dəyərlərini, ənənələrini yaşatmaqla xalqımızın çoxəsrlik köklərə malik olan xeyriyyəçilik və mərhəmət ənənələrini də təbliğ edirsiniz. Tərəfinizdən koronavirus pandemiyasının qarşısının alınması üçün görülən bütün tədbirləri alqışlayır və dəstəkləyirik. Biz Sizinlə güclüyük”.

Ağdam rayonunun Çəmənli kəndinin sakinləri Cabir Allahverdiyev və Cəmil Hacıyev yazırlar: “Hörmətli cənab Prezident, tapşırığınıza əsasən koronavirus infeksiyasına qarşı tədbirlər çərçivəsində həssas təbəqəyə xüsusi diqqət yetirilməsi bizim heç bir halda tək olmadığımızı göstərir. İndiki şəraitdə bizə sahib çıxdınız, bütün təbəqələrə dəstək verdiniz, hamıya kömək etdiniz. Bu qayğının və qətiyyətli mövqeyinizin sayəsində xalqımız bütün çətinliklərin öhdəsindən uğurla gələcək. Sizin çağırışlarınıza cavab olaraq xalqımız əsrlərboyu yaratdığı gözəl ənənələri bu gün nümayiş etdirir. Həkimlərimiz, polislərimiz səfərbər olub gecə-gündüz çalışır, bütün bölgələrdə hamı birləşib aztəminatlı ailələrə yardım edir. Hər gün aldığımız xəbərlər zəhmətinizin səmərə verəcəyindən, yaxın günlərdə çətinliyin arxada qalxacağından xəbər verir. İstirahət etmədən çalışdığınıza görə Sizə minnətdarlığımızı bildirir, yeni-yeni uğurlar arzulayırıq”.

# Mübariz Qurbanlı: "Hakimiyyətlə xalq birliyinin mövcud olması koronavirusa qarşı mübarizədə böyük əhəmiyyət daşıyır"

## Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini Mübariz Qurbanlının Trend-ə müsahibəsi

***- Mübariz müəllim, koronavirus pandemiyası dünya ölkələrini narahat edən ciddi problemə çevrilib. Bu aspektdən yanaşsaq, yoluxucu xəstəliyin qarşısının alınması üçün Azərbaycanda hansı tədbirlər görülür?***

- Bu gün pandemiya qlobal belə kimi dünya əhalisinin sağlamlığına təhdid yaratmaqla yanaşı, həm də ölkələrin iqtisadiyyatına böyük ziyan vurmaqdadır. Statistik göstəricilərə görə, dünyada virusa yoluxanların sayı artır, pandemiya hətta ən qabaqcıl ölkələrin səhiyyə sistemlərində çətinliklər yaradır. Yoluxucu xəstəliyin insanların sağlamlığı üçün ciddi təhlükə olduğunu və törətdiyi sosial-iqtisadi problemlərin ağırlığını nəzərə alaraq, dünya dövlətlərinin başçıları, nüfuzlu siyasətçilər və politoloqlar onu qlobal müharibə adlandırırlar. Onların fikrincə, bu müharibənin özünəməxsusluğu ondadır ki, görünməz düşmənlə mübarizə aparılır. Buna görə də yaranmış gərgin vəziyyətdən çıxış yolu kimi, pandemiyaya qarşı beynəlxalq səviyyədə birgə mübarizənin vacibliyi bildirilir.

Mütəxəssislərin fikrincə, koronavirus pandemiyasının dünyada yaratdığı sosial-iqtisadi böhran 1929-cu ilin oktyabrından başlayaraq 1939-cu ilə kimi davam edən dünya iqtisadi böhranından ("Böyük depressiya") daha ağır ola bilər. Hesab edilir ki, 2022-ci ilə kimi dünya ölkələrinin ümumi daxili məhsulunun həcmi böhranaqədərki vəziyyətdən aşağı olacaq. Pandemiya qarşıdakı iki il ərzində dünya iqtisadiyyatına 5.5 trilyon ABŞ dolları həcmində ziyan vuracaq. Hətta inkişaf etmiş ölkələr sərt monetar və fiksal siyasət aparsalar belə, onların ümumi daxili məhsulunun həcminin 2021-ci ilin üçüncü rübündə böhranaqədərki səviyyəyə çatması çətin görünür. Ümumdünya Ticarət Təşkilatının məlumatına görə, pandemiya ölkələr arasında iqtisadi fəallığa mənfi təsir göstərdiyindən 2020-ci ildə dünya dövlətləri arasında ticarət dövriyyəsinin həcmi 13-32 faiz azalacaq.

Pandemiyanın qarşısının alınması, onun doğurduğu sosial-iqtisadi problemlərin aradan qaldırılması istiqamətində Azərbaycan dövləti tərəfindən çevik və məqsədyönlü siyasət aparılır, virusa qarşı mübarizənin ilkin mərhələsindən başlayaraq qabaqlayıcı addımlar atılır, yoluxucu xəstəliklə bağlı vəziyyət nəzarət altında saxlanılır. İnfeksiyanın ehtimal olunan bütün ocaqlarını məhv etmək üçün ciddi səylər göstərilir, ölkə ərazisində virusa yoluxma ehtimalının minimuma endirilməsinə çalışılır. Qeyd edək ki, pandemiya ilə bağlı tətbiq edilən məhdudlaşdırıcı rejimin mərhələli şəkildə sərtləşdirilməsi özünün müsbət nəticələrini göstərməkdədir. Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanın koronavirusla mübarizədə gördüyü işləri yüksək qiymətləndirib.

Prezident İlham Əliyevin 2020-ci il 19 mart tarixli Fərmanı ilə Koronavirusla Mübarizəyə Dəstək Fondunun yaradılması martın 28-də Bakıda müasir standartlara cavab verən "Yeni klinika" tibb müəssisəsinin istifadəyə verilməsi, infeksiyanın yayılmasının qarşısının alınması və onunla mübarizə sahəsində həyata keçirilən tədbirlərə maliyyə dəstəyinin göstərilməsi baxımından böyük əhəmiyyət daşıyır. Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondu və digər ehtiyat mənbələri hesabına dövlət büdcəsindən pandemiya ilə mübarizənin və iqtisadiyyata mənfi təsirlərin azaldılması tədbirlərinin maliyyələşdirilməsi üçün 1 milyard 350 milyon manat məbləğində vəsait ayrılmışdır. Bu vəsaitin 350 milyon manatlıq hissəsi bir sıra zəruri tibbi ləvazimatların və avadanlıqların alınması, dövlət və özəl tibb müəssisələrində çalışan tibb işçilərinə, cəlb olunmuş könüllülərə xüsusi əlavə və müavinətlərin ödənilməsi, dezinfeksiya işlərinin genişləndirilməsi və digər tibbi ehtiyacların maliyyələşdirilməsinə yönəldilmişdir. Bununla yanaşı, pandemiyanın ölkə iqtisadiyyatına, məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirlərinin azaldılması üzrə təkliflərin hazırlanması məqsədilə yaradılan işçi qrupların təqdim etdiyi təkliflər əsasında Nazirlər Kabineti tərəfindən təsdiq olunmuş Tədbirlər Planından irəli gələn məsələlərin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən 1 milyard manat vəsait ayrılmışdır. Dövlət fondları və digər maliyyə resurslarının səfərbər edilməsi nəticəsində ümumi maliyyə dəstək paketi 3,5 milyard manata yaxındır.



Koronavirus pandemiyasına qarşı mübarizə sahəsində həyata keçirilən səhiyyə tədbirləri çərçivəsində tibb müəssisələrinə və tibbi avadanlığa artan tələbatın qarşılanması və infeksiyaya yoluxmuş xəstələrin müalicəsinin səmərəli təşkili məqsədilə hər birində 200 çarpayı olan modul tipli 6 xəstəxananın quraşdırılması nəzərdə tutulmuşdur. Virusun yayılmasının qarşısının alınması, onunla mübarizənin gücləndirilməsi üçün zəruri tibbi avadanlığın və digər tibbi vasitələrin tədarükü məqsədilə Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə 97 milyon manat vəsait ayrılmışdır.

Koronavirus pandemiyası şəraitində və sonrakı dövrdə kənd təsərrüfatı məhsullarını istehsalçılarının maliyyə vəsaitinə ehtiyacının qarşılanması məqsədilə aqrar sektorda təminatsız mikrokreditlərin verilməsi üçün Azərbaycan Prezidentinin ehtiyat fondundan Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinə 30 milyon manat vəsaitin ayrılması nəzərdə tutulmuşdur. Xüsusi karantin rejimi dövründə sosial xidmətlər göstərilməsinə cəlb edilən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun rayon (şəhər) şöbələrində və tabeliyindəki sosial xidmət müəssisələrində çalışan işçilərin əməkhaqqlarına aylıq vəzifə maaşının 1 misli miqdarında müddətli əlavə müəyyən edilmişdir.

Prezident İlham Əliyev Əmək və Əhalinin Sosial Müdafiəsi və İqtisadiyyat nazirlərinin iştirakı ilə videobağlantı formatında keçirdiyi iclasda da bir daha vurğuladı ki, dövlətimiz üçün prioritet məsələ insanların sağlamlığı, həyatı və sosial müdafiəsidir. Bildiyiniz kimi, Azərbaycan hökumətinin Tədbirlər Planından irəli gələrək, Dövlət Məşğulluq Xidməti orqanlarında işsiz kimi qeydiyyata alınan şəxslərə yaşayış minimumu həcmində 190 manat birdəfəlik ödəmə verilir. Qeyd edək ki, Azərbaycan Prezidentinin Sərəncamı ilə ayrılan vəsait hesabına ödəniləcək məbləğ ilkin olaraq 200 min nəfər vətəndaşı əhatə edirdi. Dövlət başçısı son iclasda çıxışında ümumi vəziyyəti nəzərə alaraq və insanların sosial müdafiəsini gücləndirmək üçün bu kateqoriyaya aid olan insanların sayının 600 minə çatdırılması ilə bağlı göstəriş verdi. Yəni, 200 min əvəzinə, 600 min insana dövlət iki ay ərzində hər ay 190 manat vəsait verəcək. Bu kateqoriyaya aid olan insanlar aztəminatlı təbəqənin nümayəndələridir, eyni zamanda, koronavirusla bağlı işini itirən və qeyri-formal məşğulluqla məşğul olan insanlardır. Onların da problemlərini dövlət öz üzərinə götürür. Həmçinin pandemiyadan zərər çəkmiş müəssisələrə və fərdi, o cümlədən mikrosahibkarlara dövlətin maliyyə dəstəyinin çatdırılması prosesi uğurla gedir.

Tam əminliklə deyə bilərəm ki, Prezident İlham Əliyevin uzaqgörən siyasətinin nəticəsi olaraq koronavirus pandemiyasının əhaliyə mənfi təsirlərini azaltmaq məqsədilə aparılan genişmiqyaslı tədbirlər öz nəticələrini verir. Məşğulluğa və sosial rifaha dəstək məqsədilə həyata keçirilən tədbirlər vətəndaşlar tərəfindən böyük məmnuniyyətlə qarşılanır.

***- Aprelin 10-da Türk Şurasının fövqəladə Zirvə görüşünün keçirilməsi həm ölkəmizdə, həm də xarici dövlətlərdə yüksək qiymətləndirildi. Bu tədbirin əhəmiyyəti nədən ibarətdir?***

- Azərbaycan Respublikasının Prezidenti, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədri cənab İlham Əliyevin təşəbbüsü ilə ilk dəfə olaraq keçirilmiş Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşünün pandemiyaya qarşı mübarizəyə həsr olunması mühüm tarixi və siyasi əhəmiyyət daşıyır. Dünyada ilk dəfə olaraq beynəlxalq təşkilat çərçivəsində, dövlət başçılarının iştirakı ilə bəşəriyyəti narahat edən yoluxucu xəstəliyin fəsadları, onun insanların sağlamlığına, ölkələrin sosial-iqtisadi təhlükəsizliyinə yaratdığı təhdidlər müzakirə edildi. Videokonfransda pandemiyaya qarşı mübarizə sahəsində dünya ölkələri arasında həmrəyliyin və əməkdaşlığın vacib olduğu bildirildi. Azərbaycan Prezidentinin bu tədbiri keçirməsi dünya birliyi üçün qlobal xarakter daşıyan prosesin qarşısının alınmasında məqsədyönlü və birgə fəaliyyət nümunəsidir.

***- Bəzi anti-milli fəaliyyət göstərən qruplar pandemiya ilə mübarizə sahəsində hakimiyyətin apardığı siyasəti gözdən salmağa cəhd edirlər. Bu məsələyə münasibətiniz...***

- Hazırda dərnək səviyyəsində olan, Azərbaycan xalqına və dövlətinə qarşı xəyanətkar mövqedə dayanan ünsürlər pandemiya ilə bağlı görülən tədbirlərin əhəmiyyətinə kölgə salmağa, ictimai rəydə qeyri-müəyyənlik və çaşqınlıq yaratmağa çalışır, xəstəlikdən ölənlərin sayının artmasını arzulayırlar. Xalqımız onların Azərbaycanı 1990-cı illərin əvvəllərində ağır vəziyyətə saldığını, xəyanətkar əməlləri ilə torpaqlarımızın ermənilər tərəfindən işğalına şərait yaratdıqlarını unutmamışdır. O zaman hakimiyyətdə olan qüvvənin apardığı siyasət nəticəsində ölkə iqtisadiyyatı çökdürülür, büdcə talanırdı. Ölkədə bütün sahələrdə olduğu kimi, iqtisadi sferada da korrupsiya və rüşvətxorluq baş alıb gedirdi. Məhz bu anti-milli qruplaşma həmin dövrdə ölkəmizi anarxiya girdabına sürüklədi, korrupsiyanı dövlət siyasətinə çevirdi, səriştəsizlik və tərbiyəsizlik AXC-Müsavat hakimiyyətinin rəmzi oldu.

Onlar siyasi mübarizə adı altında xarici dairələrin sifarişlərini yerinə yetirir, xarici dairələrin maliyyə vəsaiti ilə fəaliyyət göstərirlər. Həm də xarici dairələrdən aldıqları maliyyə vəsaitləri qarşılığında öz ölkəsinə, xalqına, millətinə qarşı çirkin fəaliyyətdə iştirak edirlər. Bu cür çıxışların internet televiziyaları, sosial şəbəkələr vasitəsilə yayırlar. Onların məqsədinin Azərbaycana ziyan vurmaq olduğunu görürük. Azərbaycana ziyan vurmaq istəyən qüvvələr kimlərdir? Ermənistan və onu himayə edən qüvvələr. Bu qüvvələr Azərbaycanı daxildən zəifləmtəyə, vətəndaş həmrəyliyimizə ziyan vurmağa çalışırlar. Bəzi azərbaycanlılar, məsələn Sevinc Osmanqızı, Qənimət Zahid, Azərbaycanda millət vəkili olmuş Cəmil Həsənli Amerikadan çıxış edir, Qubad İbadoğlu danışır, Avropada özünü bloger adlandıran şəxslər öz səviyyəsiz çıxışlarıyla vətəndaş həmrəylinə zərər vurmağa çalışırlar. Təəssüf ki, ölkə daxilində onların çirkin fəaliyyətinə dəstək verən şəxslər var. Təbii ki, bunlar hamısı siyasi partiyaların adından çıxış edirlər. Əslində siyasi partiyalar milli birlik, dövlətçilik naminə fəaliyyət göstərməlidirlər. Vaxtilə siyasi hakimiyyətdə təmsil olunmuş və öz bacarıqsız siyasətləri ilə ölkəni fəlakətə düçar edənlərin indi mənəvi haqqı varmı Azərbaycan xalqına "yol göstərsin"? Ölkəmizdən müxtəlif bəhanələrlə xarici dövlətlərə köçüb gedən və özlərini "siyasi mühacir" adlandıran siyasət dəllallarının Azərbaycan dövlətinin əleyhinə apardıqları təbliğat xalqımızın birliyini, vətəndaş həmrəyliyini heç vaxt poza bilməz. Antimilli ünsürlərin fəaliyyətinə nəzər saldıqda belə bir nəticəyə gəlmək olar ki, cəmiyyətin müxtəlif sahələrində iqtidarın uğurlar əldə etməsi onlar üçün böyük siyasi zərbədir. Ona görə də pandemiyaya qarşı mübarizədə hakimiyyətin qətiyyətli tədbirlər görməsinə və ölkə vətəndaşlarının bunu yüksək qiymətləndirməsinə onlar özlərinin siyasi faciəsi kimi yanaşırlar. Xalqımız bəzi xarici siyasi dairələrin və erməni lobbisinin tapşırıqlarını yerinə yetirən anti-milli ünsürləri birdəfəlik tarixin zibilxanasına atmışdır.

Bildiyiniz kimi, Milli Məclisin aprelin 17-də keçirilən iclasında Milli Məclisdə təmsil olunan siyasi partiyalar COVİD-19 pandemiyasının qarşısının alınması və sosial-iqtisadi nəticələrinin aradan qaldırılması tədbirləri ilə əlaqədar bəyanat yaydılar. Qeyd edim ki, belə bir bəyanatla bağlı təşəbbüs Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülüb. Bəyanatda da xüsusilə qeyd etdiyim məsələlərlə bağlı fikirlər yer alır. Məsələn, bildirilir ki, cəmiyyətdə təşviş yaratmaq məqsədi güdən koronavirus xəstəliyi ilə əlaqədar şayiələrin, təxribat xarakterli məlumatların yayılması yolverilməzdir və buna cəhd edən şəxslər qanun çərçivəsində cəzalarını almalıdırlar. Eyni zamanda, xarici ölkələrdə yerləşdirilmiş və şübhəli məqsədlərə xidmət göstərən sosial media vasitələrində hökumətin COVİD-19 pandemiyasının qarşısının alınması sahəsində tədbirlərinə etimadsızlıq yaratmaq niyyəti güdən və bununla da əhalinin sağlamlığının qorunması vəzifələrinin yerinə yetirilməsinə bilərəkdən ziyan vuran təbliğat qətiyyətlə pislənilir, bu cür təhlükəli anti-azərbaycan təbliğatına son qoyulması tələbi irəli sürülür. Bəyanatda qeyd olunduğu kimi, parlamentdə təmsil olunan siyasi partiyalar koronavirusla mübarizə sahəsində zəruri məhdudlaşdırıcı tədbirlərin tərkib hissəsi kimi xüsusi karantin rejiminin tətbiq edilməsinin və onun insanların sağlamlığına ciddi təhlükə yaradılmasına səbəb olan kobud qanun pozuntusuna görə sanksiyalar tətbiq edilməsinin bəzi qruplar tərəfindən bilərəkdən siyasiləşdirilməsini yolverilməz hesab edir. Düşünürəm ki, bu zamanında verilmiş bəyanatdır.

***- Mübariz müəllim, cəmiyyətin həssas məqamla üzləşdiyi belə bir dövrdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi hansı işləri görür?***

- Komitənin rəhbərliyi və bəzi əməkdaşları da COVİD-19 pandemiyası ilə mübarizə çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsünə qoşulublar və mart ayının əməkhaqqını Koronavirusla Mübarizəyə Dəstək Fonduna köçürüblər. Həmçinin Komitənin nəzdində fəaliyyət göstərən Mənəvi Dəyərlərin Təbliği Fondunun və İlahiyyat İnstitutunun rəhbərliyi və əməkdaşları da bu aksiyada iştirak edərək, öz əməkhaqlarının bir hissəsini Koronavirusla Mübarizəyə Dəstək Fonduna köçürüblər.

Ardı Səh. 7

# Mübariz Qurbanlı: “Hakimiyyətlə xalq birliyinin mövcud olması koronavirusa qarşı mübarizədə böyük əhəmiyyət daşıyır”

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini Mübariz Qurbanlının Trend-ə müsahibəsi*

**Əvvəli Səh. 6**

Pandemiyaya qarşı mübarizəyə dəstək məqsədilə Komitənin Mərkəzi Aparatının və bölgə şöbələrinin əməkdaşları mövcud şəraitin tələblərindən irəli gələrək sosial şəbəkələr vasitəsilə dini maarifləndirmə işləri aparır, Azərbaycan dövlətinin pandemiya ilə bağlı həyata keçirdiyi siyasəti təbliğ edirlər. Komitənin tabeliyində fəaliyyət göstərən Mənəvi Dəyərlərin Təbliği Fondunun ölkəmizin bir çox bölgələrindəki könüllüləri koronavirusla mübarizəyə öz imkanları daxilində maddi və mənəvi dəstək göstərirlər. Virusa yoluxmuş xəstələrin müalicəsi ilə məşğul olan bir qrup tibb işçisinə bu günlərdə Fond tərəfindən hədiyyələr göndərilmiş, şəhid ailələri və aztəminatlı ailələrə ərzaq yardımı edilmişdir. Fondun xətti ilə yaxın vaxtlarda digər tədbirlərin də həyata keçirilməsi nəzərdə tutulur.

Məlumdur ki, Nazirlər Kabinetinin yanında Operativ Qərargahın təlimatına uyğun olaraq Azərbaycanda dini məbədlər, ziyarətgahlar, məscidlər, kilsələr və sinaqoqlarda kütləvi toplaşma ilə bağlı məsələlərə baxılaraq, dini ayinlər dayandırılmışdır. Martın 5-də Qafqaz Müsəlmanları İdarəsində (QMİ) koronavirusla bağlı İdarənin Qazılar Şurasının üzvləri və səlahiyyətli nümayəndələri, həmçinin, dini konfessiyaların rəhbərlərinin iştirakı ilə iclas keçirildi. Bütün Qafqazın Şeyxi Hacı Allahşükür Paşazadə dünyanın üzləşdiyi pandemiya şəraitində insanları birliyə və virusun qarşısının alınması məqsədilə qoyulan tələblərə əməl etməyə, eləcə də dini rəhbərləri də bu işdən kənarda qalmamağa, dindarlarımızı həkimlərin bu barədə tövsiyələrini dinləməyə çağırdı. Buna baxmayaraq, müxtəlif dini konfessiyaların nümayəndələrinə, din xadimlərinə koronavirusa qarşı mübarizədə həmrəylik nümayiş etdirmələri üçün sosial şəbəkələr, yaxud televiziyalara canlı yayım vasitəsilə qoşulmaqla dini maarifləndirmə işlərini aparmaları tövsiyə edilmişdir.

Həmçinin bildiyiniz kimi, bu çətin günlərdə insanların mənəvi cəhətdən sıx birləşməsi halları müşahidə edilir. Yardımlaşma, maddi cəhətdən aztəminatlı ailələrin bu çətin günlərdə ehtiyaclarının qarşılanmasında dövlətimiz ilə yanaşı, ayrı-ayrı vətəndaşlar da yaxından iştirak edir. Bu yardımlaşma prosesində dini ibadət yerləri, dini icmalar, müxtəlif dini konfessiyaların nümayəndələri də yaxından dəstək verirlər.

***- Koronavirusla mübarizədə Azərbaycan vətəndaşları hansı səviyyədə həmrəylik göstərir və bunu necə qiymətləndirirsiniz?***

- Pandemiya ilə bağlı həyata keçirilən dövlət siyasətinin qlobal yanaşma ilə milli dəyərlərin vəhdətinə, yüksək vətənpərvərlik missiyasına söykənməsi qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün böyük əhəmiyyət daşıyır. Bu siyasətə xalqımızın dəstək verməsinin əsasında onun ümummilli mənafeyi, ictimai tələbləri, insanları narahat edən və düşündürən məsələləri özündə dolğun şəkildə əks etdirməsi dayanır. Cəmiyyətin həssas dövrünü yaşadığı bir vaxtda hakimiyyətlə xalq birliyinin mövcud olması koronavirusa qarşı mübarizədə böyük əhəmiyyət daşıyır ki, bu da təsadüfi deyildir. Çünki Prezident İlham Əliyevin apardığı siyasətin əsas prinsiplərindən birini vətəndaş həmrəyliyinin təmin olunması təşkil edir. Azərbaycan Prezidentinin öz çıxışlarında problemin ciddiliyini əhalinin nəzərinə çatdıraraq, “Biz birlikdə güclüyük!” fikrini irəli sürməsi koronavirusla mübarizə dövründə milli birliyin vacibliyini nəzərdə tutan çağırışdır. Eyni zamanda, Prezident İlham Əliyevin 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan, videokonfrans şəklində keçirilmiş müşavirədə dediyi kimi: “Biz xalq olaraq artıq birlik, həmrəylik nümayiş etdirmişik, indi daha çox məsuliyyət və nizam-intizam nümayiş etdirməliyik. Belə olan halda, biz bu ağır vəziyyətdən az itkilərlə və şərəflə çıxacağıq”. Burada hər kəsin üzərinə mühüm məsuliyyət düşür ki, infeksiyanın yayılması miqyasının genişlənməməsi üçün dövlətin gördüyü tədbirlərə əməl etsin.

Koronavirusla Mübarizəyə Dəstək Fonduna könüllü ödəmələrin həyata keçirilməsində fiziki və hüquqi şəxslərin, xüsusilə Yeni Azərbaycan Partiyası üzvlərinin və könüllülərinin, Heydər Əliyev Fondunun göstərdiyi fəallığı qeyd etməliyik. Fond pandemiyaya qarşı mübarizəyə dəstək verərək böyük sosial layihə həyata keçirir. “Biz birlikdə güclüyük” aksiyası çərçivəsində aztəminatlı və digər həssas kateqoriyadan olan ailələrə 100 mindən çox yardım paylamağı planlaşdırır. Eyni zamanda, Nazirlər Kabineti yanında Operativ Qərargahın mövcud qaydalarına, sosial təcrid rejiminin tətbiq olunmasına lazımi təşkilati dəstək göstərir. Bütün bunlar milli birliyin, xalq-dövlət vəhdətinin parlaq təcəssümüdür.

# Bəhruz Quliyev: “Azərbaycanda həyata keçirilən siyasətin mərkəzində ölkə vətəndaşı dayanır”



***“Prezident İlham Əliyev keçirdiyi son müşavirələrdə bir daha qeyd etdi ki, Azərbaycan hökuməti üçün vətəndaşların sağlamlığı bütün məsələlərdən üstündür. Baxmayaraq ki, müxtəlif tədbirlər nəticəsində pandemiya tam nəzarətə götürülüb, amma lazım gəldiyi təqdirdə karantin rejiminin uzadılması da qaçılmazdır”. Bunu Trend-ə açıqlamasında “SƏS” qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev deyib.***

O bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə koronavirus pandemiyasına qarşı görülən genişmiqyaslı tədbirlərin əsas məğzini əhalinin sağlamlığının qayğısına qalmaq, qlobal pandemiyadan az itki ilə çıxmaq təşkil edir. Dövlətimiz vətəndaşların rifah halının yaxşılaşdırılması, eləcə də ölkə iqtisadiyyatının sabitliyini təmin etmək üçün bütün imkanlardan istifadə edir: “Dövlət başçısının 19 mart 2020-ci il tarixli Sərəncamının icrası ilə bağlı təsdiqlənmiş Tədbirlər Planı əsasında həm sahibkarlara, aztəminatlı ailələrə dəstək, həm də əhalinin məşğulluq imkanlarının artırılması istiqamətində atılan addımlar Azərbaycanda həyata keçirilən siyasətin mərkəzində ölkə vətəndaşının dayandığını bir daha sübut edir. Yeni dəstək tədbirləri ilə 2,5 milyon vətəndaşı əhatə edən məşğulluq və sosial rifah istiqamətinə 600 milyon manat vəsait ayrılıb. İş yerlərinin və işçilərin əməkhaqqı gəlirlərinin qorunması, 50 min ödənişli ictimai iş yerinin yaradılması üçün məqsədyönlü işlər aparılıb. Bununla yanaşı, pandemiya dövründə səhiyyə, 65 yaşdan yuxarı olan tənha şəxslərə sosial xidmətlər göstərən işçilərinin əməyinin qiymətləndirilməsi, həssas ailə qrupuna aid olan tələbələrin bir illik təhsil haqqının dövlət tərəfindən ödənilməsi hər bir ölkə vətəndaşının dövlət qayğısı ilə əhatə olunduğunu göstərir”.

Ekspert söyləyib ki, sosial sahə daxil olmaqla, digər sahələrdə aparılan islahatların nəticəsi olaraq Azərbaycan bu gün COVID-19 pandemiyası ilə mübarizədə digər ölkələrə nümunə göstərilir: “Bildiyiniz kimi, bu xəstəlik sərhəd tanımır və bu günə qədər dünyada 140 mindən çox insan həyatını itirməsi buna əyani sübutdur. Koronavirusun bütün dünyada tüğyan etdiyi, yüz minlərlə insan ölümü, iqtisadi böhran ilə müşahidə olunduğu bir dövrdə Azərbaycan dövlətinin mükəmməl siyasət yürütməklə infeksiyanın geniş yayılmasının qarşısının alınması, itkilərin az olması, eləcə də sosial-iqtisadi sahədə problemlərin aradan qaldırılması sahəsində həyata keçirdiyi kompleks və qabaqlayıcı tədbirlərin əhəmiyyəti çox böyükdür”.

B.Quliyev qeyd edib ki, martın 31-dən Azərbaycanda tətbiq olunan ciddi karantin rejimi, aprelin 5-dən isə insanların çölə çıxmaması istiqamətində həyata keçirilən məhdudlaşdırıcı tədbirlər ölkəmizin qlobal pandemiyadan az itki ilə çıxmasında xüsusi əhəmiyyətli oldu: “Bununla yanaşı, pandemiyanın lokallaşdırılması istiqamətində aparılan dezinfeksiya, insanların koronavirusdan qorunması istiqamətində həyata keçirilən məlumatlandırma işləri virusdan qorunmağımızda çox böyük rola malik oldu. Əgər qabaqlayıcı tədbirlər vaxtında görülməsəydi, bu gün Azərbaycanda xəstələrin sayı on minləri ötüb keçə bilərdi”.

# “Dövlət büdcəsində nəzərdə tutulan sosial xərclər tam icra olunacaq”



***“Pandemiya dövründə qeyri-formal iqtisadiyyatın leqallaşdırılması ilə bağlı fəaliyyətlər davam edir. Bu da təbii ki, büdcə üçün yeni gəlir mənbəlləridir”. Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü deputat Vüqar Bayramov ölkədə büdcəyə daxilolmaları genişləndirmək məqsədilə yeni gəlir mənbələrinin təyin olunması ilə bağlı danışarkən deyib.***

O bildirib ki, pandemiyanın təsirlərinin minimumlaşdırılması üçün yalnız dövlət büdcəsinin xərclərində deyil, eyni zamanda gəlir mənbələrində də diversifikasiyanın həyata keçirilməsi nəzərdə tutulub: “Dövlət başçısı büdcə xərclərinə yenidən baxılması və təcili olmayan xərclərin təxirə salınması ilə bağlı göstəriş verib. Bu isə o deməkdir ki, cari və investisiya xərclərinin bir qismi növbəti illərdə icra oluna bilər. Eyni zamanda dövlət başçısı sosial xərclərin tam olaraq icra olunması ilə bağlı göstəriş verib və ölkə Prezidentinin tapşırığı ondan ibarətdir ki, neftin dünya bazarında qiymətinin aşağı olması və eləcə də pandemiyanın genişlənməsinə baxmayaraq 2020-ci ilin dövlət büdcəsində nəzərdə tutulan sosial xərclər tam olaraq icra olunacaq. Təbii ki, bu kontekstən büdcə gəlirlərinin strukturlarına yenidən baxılması və yeni gəlir mənbələrinin tapılması və büdcəyə bununla bərabər vəsaitin cəlb edilməsi vacibdir”.

Millət vəkili bildirib ki, gizli iqtisadiyyatın leqallaşdırılması ilə bağlı islahatlar 2019-cu ildə öz töhfəsini verdi və 180 minə yaxın əmək müqaviləsinin bağlanması qeyri-formal məşğulluğun rəsmiləşdirilməsinə imkan verdi: “Eyni zamanda bu ilin aprel ayının geridə qalan günlərində 60 minə yaxın yeni əmək müqavilələri bağlanıb. Bu isə ondan xəbər verir ki, əslində pandemiya dövründə qeyri-formal iqtisadiyyatın leqallaşdırılması ilə bağlı fəaliyyətlər davam edir. Bu da təbii ki, büdcə üçün yeni gəlir mənbələridir. Əslində islahatlar dövlət büdcəsinə yeni gəlir mənbələrinin formalaşmasına imkan verir. Yeni gəlir mənbələri birbaşa iqisadiyyatın leqallaşdırılması, eləcə də gizli iqtisadiyyatın miqyasının daha da azalması nəticəsində formalaşır. Praktik olaraq bu ondan xəbər verir ki, Azərbaycanda həyata keçirilən dərinləşmiş islahalar, büdcədə yeni gəlir mənbələrinin formalaşmasına imkan verəcək. Bu da nəticə etibarilə imkan verəcək ki, pandemiya dövründə 20 fəaliyyət sahəsinin 11-də fəaliyyətlərin tamamilə, 9-da isə 70 faiz dayanmasına baxmayaraq yeni gəlir mənbələrinin əldə edilməsi qeyri-neft sektoruna büdcə daxilolmaların optimallaşdırılmasına imkan verəcək. Bu baxımdan yeni post-pandemiya dövründə və islahatlar nəticəsində şəffaflaşan və eyni zamanda qeyri-formal iqtisadiyyatdan formal iqtisadiyyata keçən sektor büdcəyə daha çox ödənişin həyata keçirilməsinə imkan verəcək. Nəticədə büdcə qeyri-neft sekorunda yeni gəlir mənbələrinin formalaşması hesabına gəlirlərindəki optimallığı qoruyub saxlaya biləcək”.

# Azərbaycanda daha 38 nəfər koronavirusa yoluxub, 79 nəfər isə müalicə olunaraq sağalıb



Azərbaycan Respublikasında 38 yeni koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb, 79 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan Trend-ə bildirilib ki, hazırkı dövrədək ölkəmizdə 1436 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 791 nəfər müalicə olunaraq sağalıb, 19 nəfər vəfat edib, 626 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 16 nəfərin vəziyyəti ağır, 23 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

# Vətəndaşlar yazırlar: “Cənab Prezident, xalqımız koronavirusa qarşı mübarizədə atdığınız qətiyyətli addımları alqışlayır”

***Azərbaycan vətəndaşları koronavirus pandemiyasına qarşı mübarizədə Prezident İlham Əliyevin rəhbərliyi ilə görülən işlərə görə dövlətimizin başçısına minnətdarlıq məktubları göndərməkdə davam edirlər. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların daha bir neçəsini təqdim edir.***



Laçın rayonundan məcburi köçkün, hazırda Ağcabədidə yaşayan Məhərrəm Dünyamalıyev yazır: “Əziz Prezidentimiz, dünyanı bürüyən koronavirus epidemiyası Azərbaycana da təsirsiz ötüşməyib. Tibbin ən inkişaf etdiyi ölkələrin belə bu xəstəliklə mübarizədə aciz qaldığı bir vaxtda Sizin müdrik və uzaqgörən siyasətiniz nəticəsində Azərbaycanda pandemiyanın təsirinin azaldılması və miqyasının məhdudlaşdırılması istiqamətində mühüm addımlar atılıb. Dövlətimiz bütün imkanlarını virusun yayılmasının qarşısının alınmasına və fəsadlarının aradan qaldırılmasına səfərbər edib. Bütün bunlar sübut edir ki, yürütdüyünüz siyasətin təməlində Azərbaycan vətəndaşı, onun sağlamlığı və rifahı dayanır. Cənab Prezident, bir vətəndaş kimi əminəm ki, xalqımız bu bəladan tezliklə və az itkilərlə xilas olacaqdır. Siz bu çətin günlərdə xalqımıza böyük dayaqsınız. Biz sadə vətəndaşlar isə daim Sizinləyik. Hər birimizin sağlamlığı naminə gördüyünüz işlərə görə Sizə dərin minnətdarlığımı və təşəkkürümü bildirirəm. Möhtərəm Prezident, ölkəmiz üçün taleyüklü məsələlərin həlli ilə yanaşı, bizə - məcburi köçkünlərə qayğınızı davam etdirməyiniz, Ağcabədi rayonunun Taxtakörpü ərazisində laçınlı məcburi köçkünlər üçün inşa olunaraq istifadəyə verilmiş 645 ailəlik üç müasir tipli qəsəbədə bizə evlərin təqdim edilməsi mənzil-məişət şəraitimizi yaxşılaşdırmaqla bizi ürəkdən sevindirir. Bizə göstərdiyiniz bu davamlı qayğıya görə Sizə və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanıma dərin minnətdarlığımı bildirirəm. Biz - məcburi köçkünlər həmişə olduğu kimi, bu çətin günlərdə də kimin kim olduğunu yaxşı görür, müxalifətin pozucu əməllərini və qarayaxmalarını qətiyyətlə pisləyirik. Varlığımız qədər əminəm ki, Sizin rəhbərliyinizlə xalqımız hələ çox uğurlara imza atacaqdır. Sizə bu şərəfli fəaliyyətinizdə cansağlığı və nailiyyətlər arzulayıram”.

Goranboy rayonunun Tatarlı kəndindən milli qəhrəman anası Gülzar Ocaqverdiyeva yazır: “Hörmətli cənab Prezident, dünyanı cənginə alan bəladan Azərbaycanımızı qoruduğunuza, hər bir vətəndaşın probleminə həssas yanaşdığınıza, aztəminatlı və imtiyazlı ailələrə diqqət və qayğınıza görə Sizə dərin minnətdarlığımı bildirməyi özümə borc hesab edirəm. Mən Milli Qəhrəman anası olaraq Sizin ölkəmizin tərəqqisi naminə nümayiş etdirdiyiniz fədakarlığınıza heyranam. Xalqımız Sizə və Sizinlə birlikdə ölkəmizin taleyini çiyinləri üzərin götürmüş Mehriban xanıma həmişə minnətdar olacaqdır. Nə yaxşı ki, Siz varsınız. Uca tanrı Sizi qorusun!”.

İsmayıllı Rayon Ağsaqqallar Şurasının sədri Valeh Salehov yazır: “Möhtərəm cənab Prezident, biz - İsmayıllı ağsaqqalları dünyanı bürüyən koronavirusa yoluxmamaq üçün evdə qalmaq tələbinizi mütləq şəkildə yerinə yetiririk. Sizin milli köklər üzərində bərqərar olan rəhbərliyiniz sayəsində dövlət bizim hər qayğımızı çəkir. Həyat fəaliyyətinin bütün istiqamətlərində olduğu kimi, pandemiyaya qarşı mübarizədə də Azərbaycanı çox ölkələrdən fərqləndirən Sizin müdrik rəhbərliyiniz, xalqımıza tükənməz sevginiz, ölkəmizin taleyi üçün hamıdan çox məsuliyyət daşımağınızdır. Ölkə iqtisadiyyatının bu acınacaqlı vəziyyətdən minimum itki ilə çıxması üçün Siz ən səmərəli tədbirlər həyata keçirməklə yanaşı, həm də mövcud resursları insanların sosial vəziyyətinin yaxşılaşdırılmasına yönəldirsiniz. Fəxr edir, qürur duyur və bu çətin anlarda sevinirik ki, rəhbəri olduğunuz, əbədi müstəqilliyə çatmış Azərbaycanın vətəndaşlarıyıq. Pənah Allaha, ümid dövlətimizə və Prezidentimizədir. Hörmətli cənab Prezident, evdə qalmışıq, lakin ictimai fəallıqdan qalmamışıq. Yaxşı görürük ki, Sizin sərəncam, göstəriş və tövsiyələriniz İsmayıllı rayonunda da geniş miqyasda həyata keçirilir. Ehtiyacı olan hər bir ailə Sizin diqqət və qayğınızın ünvanıdır. Bütün bunlara görə Sizə minnətdarıq. Tanrı Sizi, xalqımızı və Azərbaycanımızı qorusun!”.

Pirallahı Rayon Ağsaqqallar Şurasının sədri Fazil Məhəmmədov yazır: “Möhtərəm cənab Prezident, xalqımızın bütün dünyanı bürümüş koronavirus infeksiyasından qorunması məqsədilə qəbul etdiyiniz qərarlar və həyata keçirdiyiniz məqsədyönlü tədbirlər ölkəmizin hər yerində olduğu kimi, Pirallahı rayonunda da sakinlər tərəfindən, o cümlədən yaşlı nəslin nümayəndələri tərəfindən minnətdarlıq hissi ilə qarşılanır. Sizin bununla əlaqədar xalqa müraciətinizdə etdiyiniz “Biz birlikdə gücləyük!” çağırışınız bütün kateqoriyadan olan insanları bir araya gətirdi. Vətənini, millətini sevən hər bir azərbaycanlı Sizi örnək götürərək, bu çətin məqamda maddi və mənəvi dəstəyə ehtiyacı olan ailələrə yardım edir. Yaşı 65-dən yuxarı tənha insanlara sosial xidmətlərin göstərilməsi ilə bağlı müvafiq tapşırıqlarınız bizim heç də tənha olmadığımızı, Sizin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə əhatə olunduğumuzu nümayiş etdirdi. Bu qayğıya görə Sizə minnətdarlığımızı bildiririk. Ulu Tanrıdan Sizə və ailənizə möhkəm cansağlığı, Azərbaycanımızın xoşbəxt gələcəyi və inkişafı naminə fəaliyyətinizdə uğurlar arzulayırıq”.

Bakı şəhərinin Qaradağ rayonundan Xəyalə Qurbanova yazır: “Möhtərəm cənab Prezident, mən bir Azərbaycan vətəndaşı və gənc nəslin nümayəndəsi kimi bu məktubu Sizə böyük qürur hissi ilə yazıram. Sizin fəaliyyətinizi bütün Azərbaycan xalqı yüksək qiymətləndirir. Hələ koronavirus infeksiyasının dünyanı bürüməmədiyi vaxtdan ölkəmizdə Sizin tərəfinizdən çox ciddi, davamlı və təsirli tədbirlər həyata keçirildi. Azərbaycan dövlətinin atdığı addımlar dünyanın bir çox inkişaf etmiş ölkələri üçün nümunə oldu. Ölkəmizdə koronavirus pandemiyasına qarşı mübarizə dövründə maska istehsal edən müəssisə yaradıldı, “Yeni klinika” tibb müəssisəsi istifadəyə verildi, karantinə alınan insanlar ölkəmizin ən rahat və müasir otellərində yerləşdirildi. Azərbaycan xalqı Sizin bütün qərarlarınızla həmrəydir. Hamımız inanırıq ki, bu qərarlar bizi bu bəladan minimum zərərlə qurtaracaq. Sizə təşəkkür edirik, cənab Prezident!”.

Bakı şəhərinin Suraxanı rayonundan sahibkar Abdulla Hüseynovun məktubunda deyilir: “Hörmətli cənab Prezident, Sizin COVID-19 pandemiyasının makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında Sərəncamınız ölkəmizdəki bütün iş adamlarının və sahibkarların rəğbətinə səbəb olub. Koronavirus pandemiyasından zərər çəkmiş sahibkarlara göstərilən dövlət dəstəyinə görə “MİLAN-A” MMC-nin kollektivi adından Sizə dərin təşəkkürümüzü və minnətdarlığımızı bildiririk”.

Bakı şəhərinin Nərimanov rayonundan müharibə, əmək və silahlı qüvvələr veteranları Fatma Səttarova, Qara Sarıyev, İvan Timçenko, Bağır Məlikov, Səfər Abdullayev, Müseyib Cəfərov, Əlikişi Cümşüdov və Tamleyxa Həsənov Prezidentə minnətdarlıq edərək yazırlar: “Möhtərəm Prezident, cənab Ali Baş Komandan. Bakı şəhəri Nərimanov rayonu ərazisində yaşayan müharibə, əmək və silahlı qüvvələr veteranları Sizin həyata keçirdiyiniz uğurlu siyasəti dəstəkləyir və ölkəmizdə yaradılan əmin-amanlığa, nail olduğumuz sabitliyə görə Sizə dərin minnətdarlıqlarını bildirirlər. Bu gün aktuallığı ilə dünyada diqqət mərkəzində olan koronavirus pandemiyasına qarşı ölkəmizdə Sizin tapşırığınızla aparılan işlər, virusun yayılmaması üçün görülən qabaqlayıcı tədbirlər bütün xalqımız, eyni zamanda, beynəlxalq təşkilatlar tərəfindən müsbət qarşılanır. Siz və Mehriban xanım hər zaman Azərbaycan xalqının sağlamlığını

# Vətəndaşlar yazırlar: “Cənab Prezident, xalqımız koronavirusa qarşı mübarizədə atdığınız qətiyyətli addımları alqışlayır”

və təhlükəsizliyini düşünürsünüz. Sizin bu mövzuda xalqımıza etdiyiniz müraciətlər bizdə yüksək əhval-ruhiyyə yaradır, hamımıza böyük mənəvi stimul verir. Bu gərgin və məsuliyyətli günlərdə etdiyiniz “Biz birlikdə güclüyük!” çağırışını biz veteranlar yekdilliklə dəstəkləyirik. Möhtərəm Prezident, cənab Ali Baş Komandan, rayon ərazisində yaşayan yaşlı nəslin nümayəndələrinə, müharibə, əmək və silahlı qüvvələr veteranlarına, imkansız ailələrə Sizin göstərişləriniz və diqqətiniz sayəsində ərzaq yardımları verilmişdir. Biz veteranlara göstərilən diqqət və qayğıya görə Sizə minnətdarlığımızı bildirir, müstəqil Azərbaycanımızın daha da inkişafı naminə gələcək işlərinizdə yeni nailiyyətlər arzulayırıq”.

Salyan rayonunun Kürqaraqaşlı kəndindən Turanə Abbasova, Mirzağa Vəliyev və Füruzə Həsənova yazırlar: “Hörmətli cənab Prezident, Sizin tərəfinizdən koronovirus pandemiyası ilə bağlı görülən bütün tədbirlər, xüsusən bu günlərdə daha çox zəhmət çəkən, fəaliyyət göstərən tibb işçilərinin maaşlarının artırılması bir daha dövlətin hər bir vətəndaşın əməyini vaxtında qiymətləndirməsinin bariz nümunəsidir. Bu bəla bir çox ölkələrdə böyük problemlərə səbəb oldu. Amma Sizin qabaqlayıcı tədbirləri həyata keçirməniz və bu işlərə şəxsən nəzarət etməniz Azərbaycan xalqının heç bir sahədə çətinlik çəkməsinə imkan vermədi. Çəkdiyiniz bütün zəhmətlərə görə Sizə təşəkkür edirik. Hər zaman çətin məqamlarda ölkə vətəndaşlarının yanında olduğunuzu bir daha sübut etdiniz. Cənab Prezident, əminik ki, xalqımız Sizinlə bu çətinliklərin öhdəsindən gələcək, hazırkı narahat günlərimiz tezliklə tarixin yaddaşına köçəcək və doğma ölkəmizdə həyat yenidən rəhbərliyiniz altında öz axarına düşəcəkdir”.

Astara rayonunun Təngərud kəndindən Fərasət Davudov isə məktubunda yazır: “Möhtərəm cənab Prezident, bu çətin günlərdə qəbul etdiyiniz düzgün qərarlara görə Sizə “Çox sağ olun!” deyir, Sizinlə fəxr etdiyimi bildirirəm. Sərhədlərin vaxtında bağlanması, ölkəyə girişin məhdudlaşdırılması itkilərimizi minimuma endirdi. Sahibkarlara dəyən ziyana görə kompensasiyaların verilməsi özəl sektora böyük dəstək oldu. Bu barədə qərarlarınızı alqışlayırıq. İşi olmayan şəxslərə göstərilən maddi dəstək, aztəminatlı ailələrə verilən ərzaq yardımları isə heç kəsin diqqətdən kənarda qalmadığını göstərir. Xalqımız üçün gördüyünüz işlərə görə çox sağ olun. Allah Sizdən razı olsun”.

Mingəçevir şəhərindən Nəriman İsmayılov yazır: “Hörmətli cənab Prezident, ölkə vətəndaşlarının sağlamlığını düşünərək koronavirusla mübarizə sahəsində atdığınız addımları, gördüyünüz tədbirləri izlədikcə Sizə olan rəğbətimiz və sevgimiz daha da artır. Koronavirusa qarşı qabaqlayıcı tədbirlər görən ölkələrdən biri də Azərbaycandır. İşinizin çox olmasına baxmayaraq, hadisələrin axarını uzaqgörənliklə, dəqiq və düzgün təhlil edərək vaxtında verdiyiniz qərarlar, Sizin təşəbbüsünüz və rəhbərliyinizlə operativ olaraq həyata keçirilən qabaqlayıcı tədbirlər vətəndaşlarımızın sağlamlığının qorunub saxlanılması üçün misilsiz əhəmiyyətə malikdir. Sizin çağırışınıza böyük məsuliyyətlə yanaşaraq ölkə vətəndaşları virus təhlükəsinə qarşı həmrəylik nümayiş etdirirlər. Cənab Prezident, inanırıq ki, görülən işlərin və Azərbaycan xalqının Sizin ətrafınızda sıx birləşməsi hesabına bu pandemiyanın ölkəmizdə geniş yayılmasının qarşısı alınacaq və biz bu bəladan mümkün qədər az itkilərlə qurtula biləcəyik. Gələcək taleyimizi Sizə etibar edərək, bu yolda hamını birliyə və həmrəyliyə çağırırıq. Tarixin min bir ağrı-acısına tab gətirən Azərbaycan xalqının koronavirusla mübarizədən də alnıaçıq və minimum itki ilə çıxacağına əminik. Biz birlikdə güclüyük!”.

Lerik rayonunun sakini Möhlət İbayev yazır: “Hörmətli cənab Prezident, bütün dünyada olduğu kimi, ölkəmizdə də yayılan COVID-19 pandemiyasına qarşı apardığınız qətiyyətli mübarizəni alqışlayırıq. Bu virusla mübarizə bir daha göstərir ki, Sizin siyasətinizin əsasında Azərbaycan xalqı və onun rifahı dayanır. Xalqımızın sağlamlığı Sizin üçün hər şeydən üstüdür.

Ölkəmizdə virusa qarşı aparılan qətiyyətli mübarizəyə görə şəxsən öz adımdan və Lerik əhalisi adından Sizə dərin minnətdarlığımı bildirirəm. Biz hər zaman Sizinlə fəxr edirik. Biz birlikdə güclüyük! Tanrı Sizi qorusun!”.

Qəbələ rayonunun Mıxlıqovaq kəndindən Aqil Əzizov yazır: “Əziz Prezidentimiz, mən bir gənc olaraq dünyada və Azərbaycanda gedən prosesləri izləyirəm. Bir vətəndaş kimi bütün bu prosesləri təhlil edir, xalqımıza göstərilən əvəzsiz xidmətlərinizi yüksək qiymətləndirirəm. Hər bir yaxşı və çətin gündə Siz xalqımızın, gənclərin və ahılların yanında olmusunuz. Dünyanı bürümüş COVID-19 pandemiyasının ölkəmizdə yayılmasının qarşısının alınması məqsədilə verdiyiniz göstərişlər, görülən tədbirlər xalqımız tərəfindən alqışlanır. Bunlara görə Sizə nə qədər təşəkkür etsək, yenə də azdır. Siz və Mehriban xanım Əliyeva xalqımızın arxasında olduğunuz kimi, biz də Sizi dəstəkləyir və Sizə güvənirik. Ailəmiz adından Sizə minnətdaram. Yaxşı ki, varsınız, yaxşı ki, bizim Prezidentimizsiniz”.

Astara rayonunun Ərçivan qəsəbəsinin ziyalı və ağsaqqalları İqbal Quliyev, Məmməd Kərimov, Anar Vəliyev və Allahverdi Baxşiyev yazırlar: “Hörmətli cənab Prezident, bu günlərdə planetin bir çox inkişaf etmiş ölkələrində koronavirus pandemiyası səbəbindən çoxsaylı insan ölümünü və dünya iqtisadiyyatının böyük zərərlə üzləşdiyini görürük. Lakin respublikamızda Sizin müdrik rəhbərliyiniz, verdiyiniz sərəncamlar, vaxtında və ardıcıl görülmüş təxirəsalınmaz tədbirlər nəticəsində koronavirus bəlasının kütləvi yayılmasının qarşısı alınıb. Karantin müddətində vətəndaşlarımıza hər cür şərait yaradılaraq yüksək xidmət göstərilir, aztəminatlı ailələrə və işsizlərə yardımlar verilir, yaşı 65-dən yuxarı insanlara böyük diqqət və qayğı göstərilir. Həyata keçirdiyiniz bütün bu işlərə görə Sizə dərin minnətdarlığımızı və təşəkkürümüzü bildiririk”.

YAP Xızı rayon Gənclər Birliyinin sədri İman Ağayev yazır: “Hörmətli cənab Prezident, ölkəmizdə COVID-19 pandemiyası ilə bağlı apardığınız uğurlu siyasətə və xalqımızı bu xəstəlikdən necə qoruduğunuza baxıb bu sözləri yazmaya bilməzdim. Siz həqiqətən də əsl lider, xalqını düşünən Prezident və biz gənclərin sevimlisisiniz. Xüsusən yaşlı insanlara, ehtiyacı olan şəxslərə göstərilən qayğı və diqqət məhz Sizin gördüyünüz işlərin əyani təsdiqidir. Vətəndaşlara göstərdiyiniz diqqət və qayğıya görə şəxsən öz adımdan və rayonumuzun sakinləri adından Sizə dərin minnətdarlığımızı bildiririk. Eyni zamanda, ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın da qayğısını və dəstəyini hiss edirik. Möhtərəm cənab Prezident, biz gənclər Sizləri sevir və Sizlərlə qürur duyuruq. Fəxr edirik ki, Sizin kimi Prezidentimiz var. Əminəm ki, Sizin rəhbərliyinizlə bu sınaqdan da üzüağ çıxacaq, gələcəyə daha inamlı addımlarla birlikdə irəliləyəcəyik”.

Ağcabədi rayonunun Hacıbədəlli kəndinin sakini Jalə Qurbanlı yazır: “Cənab Prezident, xalqa göstərdiyiniz böyük qayğıya görə Sizə təşəkkür edirəm. İşsiz kimi qeydiyyata alındığım üçün mənə 190 manat birdəfəlik ödəmə verildi. Buna görə bir daha Sizə minnətdarlığımı bildirirəm. Xalqımız, dövlətimiz, gələcək nəsillərin xoşbəxtliyi naminə fəaliyyətinizdə Sizə və ailənizə cansağlığı və uzun ömür arzulayıram. Allahdan bu bəlanın tezliklə Azərbaycanımızın və bütün dünyanın başı üzərindən çəkilməsini diləyirik”.

Naftalan şəhərindən Yaqub Ələsov, Elim Verdiyev və Dilqəm Bayramov yazırlar: “Əziz Prezidentimiz, dünyanı bürüyən koronavirus bəlasından xalqımızın xilas olması üçün göstərdiyiniz səylər, verdiyiniz tapşırıqlar, vətəndaşlara infeksiyadan qorunmaqla bağlı etdiyiniz müraciətlər bizi çox sevindirir. Sizinlə qürur duyuruq. Koronavirusdan əziyyət çəkən ölkələrin əksəriyyətindən fərqli olaraq Azərbaycanda iqtisadi böhranın yaşanmaması, hətta yeni sosial layihələrin icrası bir daha respublikamızın iqtisadi və maliyyə dayanıqlılığının sübutudur. Ölkəmizin hər yerində epidemiya ilə mübarizə yüksək səviyyədə təşkil edilir. Əhali hər gün bu istiqamətdə operativ olaraq məlumatlandırılır. Bizim şəhərimizdə də küçələr, çoxmənzilli yaşayış binalarının ümumi istifadə yerləri, ticarət obyektləri mütəmadi olaraq dezinfeksiya edilir. Bunla yanaşı, aztəminatlı ailələrə, tənha yaşayanlara tez-tez baş çəkilir, ehtiyacı olanlara ərzaq yardımı edilir. Möhtərəm Prezident, bütün bu işlərə görə Sizə təşəkkür edirik. Hər zaman olduğu kimi, bu çətin günlərdə də ətrafınızda sıx birləşərək, bütün işlərinizdə Sizə yaxından kömək etməyə hazırıq”.

Mingəçevir şəhərinin sakinləri İsmayıl İsmayılbəyli və Aidə İsmayılova yazırlar: “Hörmətli cənab Prezident, ölkə vətəndaşlarının sağlamlığını düşünərək əsl lider kimi koronavirusla mübarizə sahəsində atdığınız addımları, gördüyünüz tədbirləri izlədikcə Sizə olan rəğbətimiz və sevgimiz daha da artır. Koronavirusa qarşı qabaqlayıcı tədbirlər görən ilk ölkələrdən biri də Azərbaycandır. Sıx iş qrafikinizə baxmayaraq, hadisələrin gedişini izləyib dəqiq və düzgün təhlil edərək zamanında qəbul etdiyiniz qərarlar, Sizin təşəbbüsünüz və rəhbərliyiniz ilə reallaşdırılan təxirəsalınmaz tədbirlər vətəndaşlarımızın sağlamlığının qorunub saxlanılması üçün böyük əhəmiyyət daşıyır. Cənab Prezident, əminik ki, görülən işlərin və xalqımızın Sizinlə həmrəylik nümayiş etdirməsi sayəsində bu xəstəliyin ölkəmizdə geniş yayılmasının qarşısı alınacaq və biz bu bəladan minimum itkilərlə qurtulacağıq. Bu yolda bütün vətəndaşlarımızı birliyə və həmrəyliyə çağırırıq. Görülən bütün işlərə görə Sizə minnətdarıq”.

Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru İbrahim Cəfərov ali təhsil ocağının kollektivi adından yazır: “Möhtərəm cənab Prezident, dünyanı bürümüş koronavirus pandemiyasının ölkəmizdə yayılmasının qarşısının alınması məqsədilə Sizin rəhbərliyiniz və şəxsi nəzarətiniz ilə həyata keçirilən ən səmərəli tədbirlər sosial-iqtisadi həyatın bütün sahələrini, vətəndaşlarımızın, xüsusilə aztəminatlı ailələrin, tələbələrin sosial müdafiəsini əhatə etməklə bütövlükdə iqtisadiyyatımızın dayanıqlılığının təmin edilməsinə, pandemiyanın təsirlərinin ən minimum səviyyəyə endirilməsinə yönəlib. “Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında” 2020-ci il 19 mart tarixli Sərəncamınızdan irəli gələn vəzifələrin həlli məqsədilə sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin ödənilməsi ilə bağlı verilmiş qərar Azərbaycan Dövlət Aqrar Universitetinin professor-müəllim və tələbə heyəti tərəfindən çox yüksək qiymətləndirilir. Cənab Prezident, əminik ki, Sizin müdrik və uzaqgörən siyasətiniz, xalq-iqtidar birliyi sayəsində bu tarixi sınaqdan da uğurla çıxaraq dövlətimizin qüdrətini dünyaya bir daha sübut edəcəyik. Ulu Tanrı Sizi, ailənizi və xalqımızı qorusun!”.

Şəki Şəhər Təhsil Şöbəsinin müdiri Südabər İsmayılova dövlətimizin başçısına minnətdarlıq edərək yazır: “Çox hörmətli cənab Prezident, dünyanı çulğalamış yeni növ koronavirus pandemiyası ilə əlaqədar bütün bəşəriyyət böyük narahatlıq içərisindədir. Bütün dövlətlər bu təhlükəli xəstəlikdən daha az itki ilə çıxmaq üçün öz qüvvələrini səfərbər ediblər. Lakin çox az sayda dövlət bu virusun yayıldığı ilk gündən başlayaraq məsələyə çevik reaksiya verdi. Bu ölkələrdən biri də Azərbaycandır. Sizin də bu məsələyə çevik reaksiya göstərərək ciddi tədbirlər görməyiniz, vaxtında verilən qərar və tapşırıqlarınız çox vacib və əhəmiyyətli addımlar oldu. Müstəqil Azərbaycanımızın gələcəyinə belə həssas mövqeyiniz sayəsində ölkəmizdə pandemiyanın geniş yayılmasının qarşısını almaq üçün vaxtında həyata keçirilən qabaqlayıcı tədbirlər artıq öz müsbət təsirini göstərməkdədir. Sizin vaxtilə söylədiyiniz “Mən hər bir Azərbaycan vətəndaşının prezidentiyəm” sözləriniz bu ağır və narahat günlərdə bir daha öz təsdiqini tapdı. Uşaqdan tutmuş böyüyə qədər hamı bir daha əmin oldu ki, bəli, onların güclü dövləti və nüfuzlu, xalqın dar günündə onun arxasında inamla dayanan Prezidenti var. Bütün bunlara görə qədim Şəkinin təhsil işçiləri adından Sizə dərin minnətdarlığımızı bildiririk. Allah Sizi və Azərbaycanımızı qorusun. Çox sağ olun”

# Azərbaycan səhnəsinin əvəzolunmaz aktrisası

*Nəsibə Zeynalovanın anadan olmasının 104-cü ildönümü tamam olub*

***Azərbaycan teatrının tarixində istedadlı aktyorlar çox olub. Milli teatrımızın təşəkkül tapmasında böyük xidmətləri olan bu fədailərdən biri də Azərbaycan teatrsevənləri arasında "qaynana" kimi sevilən, Azərbaycan Dövlət Akademik Musiqili Teatrının inkişafında müstəsna rol oynayan, qırx ildən çox işlədiyi sənət ocağının repertuar ağırlığını layaqətlə çiyinlərində daşıyan Nəsibə Zeynalovadır.***

AZƏRTAC xəbər verir ki, bu gün Xalq artisti, Dövlət mükafatı laureatı Nəsibə Zeynalovanın anadan olmasının 104-cü ildönümü tamam olub.

O, 1916-cı il aprelin 20-də Bakıda dünyaya göz açıb. Atası Kərbəlayı Cahangir tanınmış tacir və sevimli aktyor idi. Azərbaycan milli realist aktyor məktəbinin banisi məhz Cahangir Zeynalov olub. İlk və yeganə övladı olanda arzu edib ki, qızı onun sənətini davam etdirsin. Ancaq bu arzusunun gerçəkliyini görmək ataya nəsib olmayıb.

1918-ci ilin mart ayında erməni daşnakları Bakıda kütləvi qırğınlar törədəndə Cahangir Zeynalov ailəsi ilə İrana gedib. Sentyabrda Bakıya qayıdanda gəmidə yatalaq xəstəliyinə tutulan Cahangir Zeynalov qısa müddətdə rəhmətə gedib. Onda balaca Nəsibənin iki yaşı vardı. Buna baxmayaraq o, atasının arzusunu inamla həqiqətə çevirib. Nəsibə Zeynalova Azərbaycan realist aktyor məktəbinin ən layiqli nümayəndələrindən biri kimi formalaşıb və şöhrətlənib.

Geniş diapazona, əlvan xarakter xüsusiyyətlərinə, təbii yumor gücünə malik Nəsibə Zeynalovaya tale əsl səhnə ustası üçün lazım olan bütün keyfiyyətləri bəxş etmişdi. Demək olar ki, Nəsibə Zeynalova, anadan artist doğulmuşdu. Onun barəsində danışmaq, musiqili teatrımızdan söhbət açmaq deməkdir.

Ömrünü Akademik Musiqili Teatrı ilə bağlayan aktrisa sənət ocağının müəyyən fasilələrlə truppa, Filarmoniyanın nəzdində dəstəansambl şəklində fəaliyyət göstərdiyi illərdə də kollektivdən ayrılmayıb. Aktrisa Azərbaycan klassik operettalarının tamaşalarında Gülpəri, Cahan xala, Sənəm ("Ər və arvad", "Arşın mal alan" və "Məşədi İbad", Üzeyir bəy Hacıbəyli),



Mələk xanım və Kələk xanım ("Əlli yaşında cavan", Zülfüqar bəy Hacıbəyov) kimi xarakterik səhnə obrazlarında çıxış edib.

Aktrisanın zəngin rollar qalereyasında tərcümə əsərlərində ifa etdiyi Kabato və Barbale ("Keto və Kote"), Ziraldina ("İki ağanın bir nökəri"), Zivər xanım ("Məhəbbət gülü"), Qesiya ("Tiflis nəğməsi"), Gülbadam ("Qız anası") rollarının xüsusi yeri var.

Nəsibə Zeynalovanın yaradıcılığının ən parlaq dövrü isə çağdaş bəstəkarların müasir mövzusu musiqili komediya əsərlərinin tamaşalarında bir-birindən fərqlənən komik personajların ifası ilə bağlıdır.

Uzun illər gənclik ilhamı ilə canlandırdığı bir-birinə bənzəməyən parlaq obrazlar səhnəmizin qiymətli inciləridir. Böyük sənətkarın yaratdığı obrazlar hər dəfə ekranda canlanarkən bütün tamaşaçılar kimi aktyor dostları da dərin sevinc içərisində olurlar, çünki onunla nə vaxtsa bir səhnədə çıxış etdiklərini böyük bir səadət hesab edirlər.

Xüsusilə, Cənnət xala, Nargilə, Züleyxa rolları zəngin ifadə vasitələri, yumorun milliliyi, təbii reallığı ilə səhnəmizin nadir inciləri sırasında durur. Azərbaycan televiziyasında onlarla yumoristik səhnəciklərdə, teletamaşalarda, intermediyalarda çıxış etmiş Nəsibə Zeynalova, həmçinin Cəfər Cabbarlı adına "Azərbaycanfilm"in çoxlu ekran əsərlərinə çəkilib. Kino obrazları içərisində Fatmanisə ("Ögey ana"), Telli ("Böyük dayaq"), Züleyxa ("Ulduz"), Cənnət xala ("Qaynana"), Gülsüm ("Molla Fətəlinin sərgüzəşti"), Əsli xala ("Bəyin oğurlanması") rolları daha canlı və daha şöhrətlidir.

Bədii filmlərdə yaratdığı bir sıra obraz "Azərbaycanfilm" kinostudiyasının qızıl fonduna daxil edilib.

Azərbaycanın Xalq artisti, müxtəlif dövlət mükafatlarına layiq görülmüş Nəsibə Zeynalova üçün ən böyük mükafat - tamaşaçı sevinci, tamaşaçı alqışı idi. Onun qazandığı bu alqış və sevgi əbədidir, tükənməzdir.

Məlumat üçün bildirək ki, Nəsibə Zeynalovanın 100 illiyi və atası Azərbaycan professional teatrının banilərindən biri, görkəmli aktyor, teatr xadimi və pedaqoq Cahangir Zeynalovun 150 illiyi Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə silsilə tədbirlərlə qeyd edilib. Nəsibə Zeynalova 2004-cü il martın 10-da Bakıda vəfat edib və Fəxri xiyabanda dəfn olunub.

# YAP İmişli rayon təşkilatının təşəbbüsü ilə koronovirusla bağlı tədbirlər davam edir





***Dünyanı bürüyən koronovirus (COVİD-19) epidemiyasına yoluxma riskinin azaldılması və xalqımızın sağlamlığı naminə ölkə Prezidenti cənab İlham Əliyevin çağırışına qoşulan İmişli rayonunda da koronovirus pandemiyasının yayılmasının qarşısının alınması məqsədilə ölkəmizdə tətbiq edilən xüsusi karantin rejimi qaydalarına ciddi əməl olunmaqla "Evdə qal" kanpaniyası çərçivəsində müxtəlif xeyriyyə tədbirləri həyata keçirilir.***

SİA-nın verdiyi məlumata görə, həyata keçirilən tədbirlər çərçivəsində İmişli rayon İcra Hakimiyyəti və Yeni Azərbaycan Partiyası İmişli rayon təşkilatı tərəfindən 18 aprel tarixində rayonda yaşayan 500 aztəminatlı, yaşlı və tənha insanlara qayğı göstərilib. Gənclər Birliyinin könüllülərindən ibarət dəstə tədbirdə iştirak edərək imkansız ailələrə müxtəlif ərzaq məhsullarından ibarət bağlamalar verməklə onların koronovirusdan qorunması məqsədilə maarifləndirici söhbətlər aparmışlar.

Ərzaq bağlaması alan şəxslər onları daim diqqətdə saxlayan və hər zaman yanlarında olan ölkə Prezidentinə təşəkkürlərini bildiriblər. Qeyd etmək lazımdir ki, bu işlər davamlı olaraq aparılacaq.

# Milli Məclisin növbəti plenar iclası aprelin 24-də keçiriləcək





Azərbaycan Respublikası Milli Məclisinin növbəti plenar iclası aprelin 24-də keçiriləcək. Bu barədə AZƏRTAC-a parlamentin mətbuat xidmətindən məlumat verilib. Qeyd olunub ki, gündəliyə 27 məsələ daxil edilib. İclasda Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinin (ombudsman) illik məruzəsi də dinləniləcək.

# İmtahanların tarixləri nə vaxt elan ediləcək?

Dövlət İmtahan Mərkəzi karantin bitdikdən sonra dərhal ali və orta ixtisas təhsili müəssisələrinə sənəd qəbulunun və qəbul, buraxılış imtahanların tarixlərini elan edəcək. SİA-nın məlumatına görə, bunu Dövlət İmtahan Mərkəzinin şöbə müdiri Nigar Hüseynova deyib. İmtahanların tarixləri barədə hələlik heç nə deyə bilmədiklərini deyən N.Hüseynova qeyd edib ki, tarixlərin müəyyən edilməsi Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarlarından asılıdır: "DİM tərəfindən ali və orta ixtisas təhsili müəssisələrinə sənəd qəbulu hər zaman onlayn keçirilib. Biz sənəd qəbulunu indi də keçirə bilərik. Amma sənəd qəbulu zamanı elə bir kontingent olur ki, onlar mütləq sənəd qəbulu komissiyasına gəlməlidirlər. Məsələn, bəzən oğlan abituriyentlərə hərbi xidmətdən möhlət hüququnun verilməsi barədə məlumat elektron bazaya daxil olmur. Belə olduqda, həmin abituriyentlər mütləq sənəd qəbulu komissiyasına gəlməlidirlər. Yaxud xaricdə orta təhsil alanlar barədə məlumat da bizim bazada mövcud olmur. Belə abituriyentlər Azərbaycanın ali və orta ixtisas müəssisələrinə qəbul imtahanlarında iştirak etmək üçün sənədlərini komissiyaya təqdim etməlidirlər. Ona görə də biz gözləyirik ki, karantin müddəti bitsin".

N.Hüseynova qeyd edib ki, imtahanların hansı formada keçiriləcəyi də karantin rejimindən asılıdır: "Karantin müddəti bitdikdən sonra, məsələn, may ayında bitsə, biz imtahanları sıx rejimdə adi qaydada keçirəcəyik. Amma karantin uzansa, biz də başqa plan əsasında imtahan keçirəcəyik. Azərbaycan dövləti, eləcə də bizim üçün birinci növbədə abituriyentlərin sağlamlığı vacibdir. Mən inanmıram ki, hazırkı vaxtda hansısa valideyn yoluxma ehtimalını nəzərə alaraq, öz uşağını 10 min nəfərin iştirak etdiyi imtahana buraxmasıına razılaşar. Bunu heç kim istəməz".









***Ermənistanda yaşanan sosial-iqtisadi böhranın əsas səbəbkarlarının əvvəlki hakimiyyətlər və hazırkı hökumətin olması kimsəyə sirr deyil. Lakin COVID-19 adlı virusun bəşəriyyətə elan etdiyi müharibə reallığında hansı ölkələrin qalib, hansılarının isə məğlub ayrılacaqları da az-çox bəlli olmaqda, görünməkdədir.***

# "İrates"

## Ermənistanda xalq üsyanı və çörək qiyamından yazdı

Xüsusilə, sabiq SSRİ dövlətlərində mövcud olan müxtəlif vəziyyətlər də belə qənaətə gəlməyə zəmin yaradır ki, hansı ölkə koronavirus pandemiyasına qarşı vaxtında önləyici, ciddi və təxirəsalınmaz tədbirlər görübsə, bu ölkələr insan itkiləri ilə yanaşı, iqtisadi itkilərdən minimal olaraq çıxa bilmək imkanını saxlayırlar.

Daha dəqiq desək, hətta dünyanın ən aparıcı dövlətlərində "korona" ilə aparılan savaşda məğlubiyyətlər nəzərə çarpır. Bu zaman sual oluna bilər ki, bəs infeksiya dünyanı cənginə almamışdan əvvəl iqtisadiyyatları ağır olan ölkələr hansı vəziyyətdədirlər və onların mövcud durumları hansı yerdə qalacaq? Məsələn, bu gün Ermənistandakı vəziyyət çərçivədən çıxıb və artıq Nikol Paşinyan hakimiyyəti hansı addımları atmasından asılı olmayaraq, bu müharibədən nəinki məğlubdur, hətta əsirə çevrilib.



*"Nikol Paşinyan pat vəziyyətindədir və nəzarəti itirib"*

### "Bu, iqtisadi kollapsa gətirib çıxarır..."

SİA xəbər verir ki, ermənilərin bu barədə yazan "İrates" qəzetinin yazdığına görə, baş nazir pat halına düşüb və nəzarəti əldən buraxır. SİTAT: "Nikol Paşinyan tədricən situasiyaya nəzarəti əldən verir və itirir. Vilayətlərdə fəlakətli hal yaşanır - insanlar daha yaşaya bilmir, çörək qazanmaq imkanlarını itiriblər və bu iqtisadi kollapsa gətirib-çıxara bilər".

Erməni nəşri eyni zamanda istisna etmir ki, Paşinyanın nəzarəti itirməsi sosial qiyam reallığını artırır. "Qiyam hər an partlayış şəklində baş qaldıra bilər", yazan "İrates" həmçinin iddia edir ki, koronavirusun yayılması hələ pik həddinə çatmayıb.

<u>Erməni nəşri:</u>
### "Fövqəladə hala baxmayaraq, küçələrdə insanların sayı yenə də çoxdur və bu virusun yoluxma halında ikinci böyük dalğa yarada bilər"

Daha dəqiq desək, baş nazir Nikolun son günlər guya virusun "onurğa sütununun" qırılması ilə bağlı pafoslu fikri Ermənistan ictimaiyyətini kəskin həddə qıcıqlandırıb. SİTAT: "Onun bu "tapıntısı" ictimai rəydə inamsızlıq ilə yanaşı, həm də onun qeyri-ciddiliyini göstərir. Fövqəladə hala baxmayaraq, küçələrdə insanların sayı yenə də çoxdur və bu virusun yoluxma halında ikinci böyük dalğa yarada bilər. Bu hakimiyyət isə onun qarşısını almaqda acizdir".

"İrates" nəşri post-koronavirus döövrünün də proqnozlarını verib və burada belə bir nəticəyə gəlinib ki, artıq Nikol Paşinyanın sonrakı addımlarının ölkə üçün, xalq üçün heç bir əhəmiyyəti olmayacaq.

### "Bu referendum hakimiyyətin qəbirqazanına çevriləcək"

"Fövqəladə halın götürülməsindən sonra Paşinyan Konstitusiya məhkəməsinin üzvlərinə "həsr" olunmuş referendum kampaniyasını davam etdirəcək bu isə mövcud tarixdə kifayət qədər kəskin nəticələrə səbəb olacaq, bu referendum hakimiyyətin qəbirqazanına çevriləcək", deyə erməni qəzeti mümkün proqnoz ehtimallarını irəli sürüb.

Göründüyü kimi, reallıqlar da göstərir ki, Ermənistandakı vəziyyət çox ağırdır və hətta SSRİ-nin əvvəllər də kasıb, ələbaxan ölkələri olan bir sıra respublikaları belə, mövcud zamanda Ermənistandan daha yaxşı vəziyyətədirlər. Bu gerçəklik isə nəinki post-koronavirus dövründə, hətta yaxın bir neçə gündə ölkədə xalq üsyanının, çörək qiyamının baş qaldırması ehtimallarını daha da çoxaldır. Hər halda, həmin məsələni elə erməni KİV-ləri də artıq neçə günlərdir ki, yazıb-ictimailəşdirməkdədirlər.

***Rövşən NURƏDDİNOĞLU***

## İranda koronavirusa yoluxanların sayı 83 min nəfəri keçib



İranda 19 fevraldan bu günədək (20 aprel) 83 505 nəfər koronavirusa (COVID19) yoluxub. Bu barədə SİA-ya İranın Səhiyyə, Müalicə və Tibbi Təhsil Nazirliyinə istinadən məlumat verib. Nazirliyin mətbuat xidmətinin rəhbəri Kiyanuş Cahanpurun sözlərinə görə, ötən sutka ərzində daha 1 294 nəfərin bu virusa yoluxması öz təsdiqini tapıb.

O qeyd edib ki, virus daşıyıcılarından 3 389 nəfərin vəziyyəti ağır və orta ağır olaraq qiymətləndirilir. Nazirlik rəsmisi ötən 24 saat ərzində daha 91 nəfərin koronavirus nəticəsində öldüyünü və beləliklə İranda ölənlərin sayının 5 209 nəfərə yüksəldiyini deyib. Cahanpur indiyədək İranda 59 273 nəfərin koronavirusdan sağaldığını deyib. Qeyd edək ki, İranda koronavirus diaqnozu ilə əlaqədar 353 mindən çox test həyata keçirilib.

## Türkiyənin tanınmış urolqu COVID-19 infeksiyasından vəfat edib



Türkiyənin tanınmış urolqu 74 yaşlı Cemal Özkan yeni növ kronavirusun (COVID-19) qurbanı olub. SİA xəbər verir ki, tanınmış cərrahın 20 gün öncə COVID-19 müayinə testi pozitiv çıxıb. Cemal Özkan 30 il çalışdığı Dənizli Dövlət Xəstəxanasında 10 gün reanimasiya şəraitində müalicə olunsa da həkimlər onun həyatını xilas edə bilməyib. O, həm də qaçış üzrə dəfələrlə Türkiyə çempionu olaraq da tanınıb. İki övlad atasının ailəsindən və yaxınlarından heç kimdə COVID-19 aşkarlanmayıb.

## 56 yaşlı qadın spirtdən zəhərlənib ölüb



Bakıda qadın spirtdən zəhərlənərək ölüb. Trend-in məlumatına görə, hadisə Yasamal rayonunda baş verib. Yasamal rayonu, S.Dadaşov küçəsi, 523-cü məhəllə, ev 34/1 ünvanında yaşayan 1964-cü il təvəllüdlü İvleva Yelena Vladimirovna evdə metil spirti (tibbi spirt) içərək zəhərlənib.

Ağır vəziyyətdə Kliniki Tibbi Mərkəzin Toksikologiya şöbəsinə yerləşdirilən qadın orada ölüb. Faktla bağlı araşdırma aparılır.

## ABŞ nefti son 21 ilin ən aşağı qiymətinə satılır

ABŞ-ın "Light" markalı xam neftinin bir barrelinin qiyməti son 21 ilin minimum səviyyəsinə enib. SİA xəbər verir ki, "Light" neftinin bir barreli hazırda Nyu-Yorkun NYMEX birjasında 14,97 dollara satılır. ABŞ neftinin qiyməti sonuncu dəfə 1999-cu ildə bu səviyyələrdə olub. Qiymətin enməsinə səbəb ABŞ-ın ən böyük neft anbarı olan "Cushing"də anbarların az qala maksimum səviyyədə dolmasıdır. ABŞ investorları anbarların tezliklə dolacağından və tələbatın sürətlə azalacağından narahatdır.



# Mübariz Qurbanlı: "Hakimiyyətlə xalq birliyinin mövcud olması koronavirusa qarşı mübarizədə böyük əhəmiyyət daşıyır"

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini Mübariz Qurbanlının Trend-ə müsahibəsi*

**Əvvəli Səh. 6**

Pandemiyaya qarşı mübarizəyə dəstək məqsədilə Komitənin Mərkəzi Aparatının və bölgə şöbələrinin əməkdaşları mövcud şəraitin tələblərindən irəli gələrək sosial şəbəkələr vasitəsilə dini maarifləndirmə işləri aparır, Azərbaycan dövlətinin pandemiya ilə bağlı həyata keçirdiyi siyasəti təbliğ edirlər. Komitənin tabeliyində fəaliyyət göstərən Mənəvi Dəyərlərin Təbliği Fondunun ölkəmizin bir çox bölgələrindəki könüllüləri koronavirusla mübarizəyə öz imkanları daxilində maddi və mənəvi dəstək göstərirlər. Virusa yoluxmuş xəstələrin müalicəsi ilə məşğul olan bir qrup tibb işçisinə bu günlərdə Fond tərəfindən hədiyyələr göndərilmiş, şəhid ailələri və aztəminatlı ailələrə ərzaq yardımı edilmişdir. Fondun xətti ilə yaxın vaxtlarda digər tədbirlərin də həyata keçirilməsi nəzərdə tutulur.

Məlumdur ki, Nazirlər Kabinetinin yanında Operativ Qərargahın təlimatına uyğun olaraq Azərbaycanda dini məbədlər, ziyarətgahlar, məscidlər, kilsələr və sinaqoqlarda kütləvi toplaşma ilə bağlı məsələlərə baxılaraq, dini ayinlər dayandırılmışdır. Martın 5-də Qafqaz Müsəlmanları İdarəsində (QMİ) koronavirusla bağlı İdarənin Qazılar Şurasının üzvləri və səlahiyyətli nümayəndələri, həmçinin, dini konfessiyaların rəhbərlərinin iştirakı ilə iclas keçirildi. Bütün Qafqazın Şeyxi Hacı Allahşükür Paşazadə dünyanın üzləşdiyi pandemiya şəraitində insanları birliyə və virusun qarşısının alınması məqsədilə qoyulan tələblərə əməl etməyə, eləcə də dini rəhbərləri də bu işdən kənarda qalmamağa, dindarlarımızı həkimlərin bu barədə tövsiyələrini dinləməyə çağırdı. Buna baxmayaraq, müxtəlif dini konfessiyaların nümayəndələrinə, din xadimlərinə koronavirusa qarşı mübarizədə həmrəylik nümayiş etdirmələri üçün sosial şəbəkələr, yaxud televiziyalara canlı yayım vasitəsilə qoşulmaqla dini maarifləndirmə işlərini aparmaları tövsiyə edilmişdir.

Həmçinin bildiyiniz kimi, bu çətin günlərdə insanların mənəvi cəhətdən sıx birləşməsi halları müşahidə edilir. Yardımlaşma, maddi cəhətdən aztəminatlı ailələrin bu çətin günlərdə ehtiyaclarının qarşılanmasında dövlətimiz ilə yanaşı, ayrı-ayrı vətəndaşlar da yaxından iştirak edir. Bu yardımlaşma prosesində dini ibadət yerləri, dini icmalar, müxtəlif dini konfessiyaların nümayəndələri də yaxından dəstək verirlər.

***- Koronavirusla mübarizədə Azərbaycan vətəndaşları hansı səviyyədə həmrəylik göstərir və bunu necə qiymətləndirirsiniz?***

- Pandemiya ilə bağlı həyata keçirilən dövlət siyasətinin qlobal yanaşma ilə milli dəyərlərin vəhdətinə, yüksək vətənpərvərlik missiyasına söykənməsi qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün böyük əhəmiyyət daşıyır. Bu siyasətə xalqımızın dəstək verməsinin əsasında onun ümummilli mənafeyi, ictimai tələbləri, insanları narahat edən və düşündürən məsələləri özündə dolğun şəkildə əks etdirməsi dayanır. Cəmiyyətin həssas dövrünü yaşadığı bir vaxtda hakimiyyətlə xalq birliyinin mövcud olması koronavirusa qarşı mübarizədə böyük əhəmiyyət daşıyır ki, bu da təsadüfi deyildir. Çünki Prezident İlham Əliyevin apardığı siyasətin əsas prinsiplərindən birini vətəndaş həmrəyliyinin təmin olunması təşkil edir. Azərbaycan Prezidentinin öz çıxışlarında problemin ciddiliyini əhalinin nəzərinə çatdıraraq, "Biz birlikdə güclüyük!" fikrini irəli sürməsi koronavirusla mübarizə dövründə milli birliyin vacibliyini nəzərdə tutan çağırışdır. Eyni zamanda, Prezident İlham Əliyevin 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan, videokonfrans şəklində keçirilmiş müşavirədə dediyi kimi: "Biz xalq olaraq artıq birlik, həmrəylik nümayiş etdirmişik, indi daha çox məsuliyyət və nizam-intizam nümayiş etdirməliyik. Belə olan halda, biz bu ağır vəziyyətdən az itkilərlə və şərəflə çıxacağıq". Burada hər kəsin üzərinə mühüm məsuliyyət düşür ki, infeksiyanın yayılması miqyasının genişlənməməsi üçün dövlətin gördüyü tədbirlərə əməl etsin.

Koronavirusla Mübarizəyə Dəstək Fonduna könüllü ödəmələrin həyata keçirilməsində fiziki və hüquqi şəxslərin, xüsusilə Yeni Azərbaycan Partiyası üzvlərinin və könüllülərinin, Heydər Əliyev Fondunun göstərdiyi fəallığı qeyd etməliyik. Fond pandemiyaya qarşı mübarizəyə dəstək verərək böyük sosial layihə həyata keçirir. "Biz birlikdə güclüyük" aksiyası çərçivəsində aztəminatlı və digər həssas kateqoriyadan olan ailələrə 100 mindən çox yardım paylamağı planlaşdırır. Eyni zamanda, Nazirlər Kabineti yanında Operativ Qərargahın mövcud qaydalarına, sosial təcrid rejiminin tətbiq olunmasına lazımi təşkilati dəstək göstərir. Bütün bunlar milli birliyin, xalq-dövlət vəhdətinin parlaq təcəssümüdür.

# Bəhruz Quliyev: "Azərbaycanda həyata keçirilən siyasətin mərkəzində ölkə vətəndaşı dayanır"



***"Prezident İlham Əliyev keçirdiyi son müşavirələrdə bir daha qeyd etdi ki, Azərbaycan hökuməti üçün vətəndaşların sağlamlığı bütün məsələlərdən üstündür. Baxmayaraq ki, müxtəlif tədbirlər nəticəsində pandemiya tam nəzarətə götürülüb, amma lazım gəldiyi təqdirdə karantin rejiminin uzadılması da qaçılmazdır". Bu Trend-ə açıqlamasında "SƏS" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev deyib.***

O bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə koronavirus pandemiyasına qarşı görülən genişmiqyaslı tədbirlərin əsas məğzini əhalinin sağlamlığının qayğısına qalmaq, qlobal pandemiyadan az itki ilə çıxmaq təşkil edir. Dövlətimiz vətəndaşların rifah halının yaxşılaşdırılması, eləcə də ölkə iqtisadiyyatının sabitliyini təmin etmək üçün bütün imkanlardan istifadə edir: "Dövlət başçısının 19 mart 2020-ci il tarixli Sərəncamının icrası ilə bağlı təsdiqlənmiş Tədbirlər Planı əsasında həm sahibkarlara, aztəminatlı ailələrə dəstək, həm də əhalinin məşğulluq imkanlarının artırılması istiqamətində atılan addımlar Azərbaycanda həyata keçirilən siyasətin mərkəzində ölkə vətəndaşının dayandığını bir daha sübut edir. Yeni dəstək tədbirləri ilə 2,5 milyon vətəndaşı əhatə edən məşğulluq və sosial rifah istiqamətinə 600 milyon manat vəsait ayrılıb. İş yerlərinin və işçilərin əməkhaqqı gəlirlərinin qorunması, 50 min ödənişli ictimai iş yerinin yaradılması üçün məqsədyönlü işlər aparılıb. Bununla yanaşı, pandemiya dövründə səhiyyə, 65 yaşdan yuxarı olan tənha şəxslərə sosial xidmətlər göstərən işçilərin əməyinin qiymətləndirilməsi, həssas ailə qrupuna aid olan tələbələrin bir illik təhsil haqqının dövlət tərəfindən ödənilməsi hər bir ölkə vətəndaşının dövlət qayğısı ilə əhatə olduğunu göstərir".

Ekspert söyləyib ki, sosial sahə daxil olmaqla, digər sahələrdə aparılan islahatların nəticəsi olaraq Azərbaycan bu gün COVID-19 pandemiyası ilə mübarizədə digər ölkələrə nümunə göstərilir: "Bildiyiniz kimi, bu xəstəlik sərhəd tanımır və bu günə qədər dünyada 140 mindən çox insan həyatını itirməsi buna əyani sübutdur. Koronavirusun bütün dünyada tüğyan etdiyi, yüz minlərlə insan ölümü, iqtisadi böhran ilə müşahidə olunduğu bir dövrdə Azərbaycan dövlətinin mükəmməl siyasət yürütməklə infeksiyanın geniş yayılmasının qarşısının alınması, itkilərin az olması, eləcə də sosial-iqtisadi sahədə problemlərin aradan qaldırılması sahəsində həyata keçirdiyi kompleks və qabaqlayıcı tədbirlərin əhəmiyyəti çox böyükdür".

B.Quliyev qeyd edib ki, martın 31-dən Azərbaycanda tətbiq olunan ciddi karantin rejimi, aprelin 5-dən isə insanların çölə çıxmaması istiqamətində həyata keçirilən məhdudlaşdırıcı tədbirlər ölkəmizin qlobal pandemiyadan az itki ilə çıxmasında xüsusi əhəmiyyətli oldu: "Bununla yanaşı, pandemiyanın lokallaşdırılması istiqamətində aparılan dezinfeksiya, insanların koronavirusdan qorunması istiqamətində həyata keçirilən məlumatlandırma işləri virusdan qorunmağımızda çox böyük rola malik oldu. Əgər qabaqlayıcı tədbirlər vaxtında görülməsəydi, bu gün Azərbaycanda xəstələrin sayı on minləri ötüb keçə bilərdi".

# "Dövlət büdcəsində nəzərdə tutulan sosial xərclər tam icra olunacaq"



***"Pandemiya dövründə qeyri-formal iqtisadiyyatın leqallaşdırılması ilə bağlı fəaliyyətlər davam edir. Bu da təbii ki, büdcə üçün yeni gəlir mənbələridir". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü deputat Vüqar Bayramov ölkədə büdcəyə daxilolmaları genişləndirmək məqsədilə yeni gəlir mənbələrinin təyin olunması ilə bağlı danışarkən deyib.***

O bildirib ki, pandemiyanın təsirlərinin minimumlaşdırılması üçün yalnız dövlət büdcəsinin xərclərində deyil, eyni zamanda gəlir mənbələrində də diversifikasiyanın həyata keçirilməsi nəzərdə tutulub: "Dövlət başçısı büdcə xərclərinə yenidən baxılması və təcili olmayan xərclərin təxirə salınması ilə bağlı göstəriş verib. Bu isə o deməkdir ki, cari və investisiya xərclərinin bir qismi növbəti illərdə icra oluna bilər. Eyni zamanda dövlət başçısı sosial xərclərin tam olaraq icra olunması ilə bağlı göstəriş verib və ölkə Prezidentinin tapşırığı ondan ibarətdir ki, neftin dünya bazarında qiymətinin aşağı olması və eləcə də pandemiyanın genişlənməsinə baxmayaraq 2020-ci ilin dövlət büdcəsində nəzərdə tutulan sosial xərclər tam olaraq icra olunacaq. Təbii ki, bu kontekstən büdcə gəlirlərinin strukturlarına yenidən baxılması və yeni gəlir mənbələrinin tapılması və büdcəyə bununla bərabər vəsaitin cəlb edilməsi vacibdir".

Millət vəkili bildirib ki, gizli iqtisadiyyatın leqallaşdırılması ilə bağlı islahatlar 2019-cu ildə öz töhfəsini verdi və 180 minə yaxın əmək müqaviləsinin bağlanması qeyri-formal məşğulluğun rəsmiləşdirilməsinə imkan verdi: "Eyni zamanda bu ilin aprel ayının geridə qalan günlərində 60 minə yaxın yeni əmək müqavilələri bağlanıb. Bu isə ondan xəbər verir ki, əslində pandemiya dövründə qeyri-formal iqtisadiyyatın leqallaşdırılması ilə bağlı fəaliyyətlər davam edir. Bu da təbii ki, büdcə üçün yeni gəlir mənbələridir. Əslində islahatlar dövlət büdcəsinə yeni gəlir mənbələrinin formalaşmasına imkan verir. Yeni gəlir mənbələri birbaşa iqisadiyyatın leqallaşdırılması, eləcə də gizli iqtisadiyyatın miqyasının daha da azalması nəticəsində formalaşır. Praktik olaraq bu ondan xəbər verir ki, Azərbaycanda həyata keçirilən dərinləşmiş islahalar, büdcədə yeni gəlir mənbələrinin formalaşmasına imkan verəcək. Bu da nəticə etibarilə imkan verəcək ki, pandemiya dövründə 20 fəaliyyət sahəsinin 11-də fəaliyyətlərin tamamilə, 9-da isə 70 faiz dayanmasına baxmayaraq yeni gəlir mənbələrinin əldə edilməsi qeyri-neft sektoruna büdcə daxilolmaların optimallaşdırılmasına imkan verəcək. Bu baxımdan yeni post-pandemiya dövründə və islahatlar nəticəsində şəffaflaşan və eyni zamanda qeyri-formal iqtisadiyyatdan formal iqtisadiyyata keçən sektor büdcəyə daha çox ödənişin həyata keçirilməsinə imkan verəcək. Nəticədə büdcə qeyri-neft sekorunda yeni gəlir mənbələrinin formalaşması hesabına gəlirlərindəki optimallığı qoruyub saxlaya biləcək".

# Azərbaycanda daha 38 nəfər koronavirusa yoluxub, 79 nəfər isə müalicə olunaraq sağalıb



Azərbaycan Respublikasında 38 yeni koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb, 79 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan Trend-ə bildirilib ki, hazırkı dövrədək ölkəmizdə 1436 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 791 nəfər müalicə olunaraq sağalıb, 19 nəfər vəfat edib, 626 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 16 nəfərin vəziyyəti ağır, 23 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

# Koronavirus Paşinyana baha başa gəlir

***Və yaxud Nikol minlərlə ölkə vətəndaşların həyatlarını təhlükəyə atdığına görə erməni xalqı qarşısında cavab verməlidir***

"Parlament və prezident seçkiləri"nin nəticəsindən narazı qalan ermənilər etiraz aksiyası keçiriblər. 200-dən çox erməni Xankəndidə "seçki" saxtakarlığına etirazını bildirib, nəticələrin ləğv olunmasını, qondarma qurumun rəhbəri Bako Saakyanın, "polis rəisi" Levon Mnatsakanyan və "Təhlükəsizlik Şurasının katibi" Arşavir Qaramyanın istefasını tələb ediblər. Narazı ermənilər "seçkilər"in mənasız olduğunu deyiblər. Onlar saxtakarlıq və qanunsuzluğun hökm sürməsindən şikayətləniblər. Ancaq bu şikayəti ölkənin baş naziri Nikol Paşinyan koronavirusun tuğyan etdiyi bir məqamda ancaq seçkilərin keçirilməsi üçün yenə də növbəti dəfə zorakılıq tətbiq edərək sakinləri seçkilərə qatılmağa vadar edib.

### Ermənistan da koronovirusla bağlı fövqədadə vəziyyət erməni xalqına hansı xeyri var?

Məlum olduğu kimi, Ermənistan da koronovirusla bağlı fövqədadə vəziyyət elan olundu. Ancaq bunun erməni xalqına hansı xeyri var? Cavab bəllidir - Paşinyan öz məqsədlərini həyata keçirmək üçün koronavirusdan siyasi sui-istifadədə edərək seçkini keçirmək, rəqiblərini işdən çıxarmaqla oturduğu kreslosunu möhkəmlətmək...Məhz bütün dünyada koronavirusla bağlı kütləvi tədbirlərin təxirə salındığı zamanda Paşinyanın təkidi və planı əsasında qondarma "DQR"-də saxta "parlament və prezident" seçkiləri keçirildi. Paşinyan öz adamını ora rəhbər təyin etmək üçün hətta ikinci tur şousuna belə getdi. Ermənistan kimi kiçik ölkədə karantinlə vəziyyətə nəzarətin mümkünlüyü olduğu halda, o, ölkədə fövqəladə vəziyyət elan etdi. Və son qərarı isə siyasi rəqiblərini bu adla işdən azad etmək oldu.

Erməni mətbuatının yazdığına görə, Ermənistan prezidenti Armen Sarkisyanın fərmanı və baş nazir Nikol Paşinyanın təklifi ilə köhnə komandanın adamları olan İtaliya və Maltadakı səfir Viktoriya Bağdasaryan, Braziliyadakı səfiri Aşot Qaloyan da geri çağırılıb. Siyasi ekspertlər Paşinyanın koronavirusdan da öz siyasi məqsədləri üçün istifadə etdiyini bildirirlər.

### Elşən Mustafayev: "Dünyanın hələ heç bir ölkəsində koronavirusa görə hansısa səfiri geri çağırmayıblar"

Siyasi ekspert Elşən Mustafayevin sözlərinə görə, dünyanı ağuşuna alan koronavirus pandemiyasının təhlükələrinə Ermənistannı baş naziri ciddi yanaşmır: "Pandemiyanın ilk günlərində Ermənistan hökumətinin başçısı Paşinyan koronavirus təhlükəsinə ciddi yanaşmırdı. Bu, ölkədə böyük həyəcan doğurdu. Hətta Nikol Paşinyan insanlara koronavirusun təhlükəli bir virus olmadığını deməşdi. Dünyada hər kəs bunun ciddi bir təhlükə olduğunu bilib müxtəlif tədbirlər gördüyü halda, Paşinyan koronavirusun qripə bənzər bir şey olduğunu deyirdi. Sonra Paşinyan səhvini anladı və tamamilə fərqli siyasət yürütməyə başladı. O bilir ki, Ermənistan iqtisadiyyatı onsuz da zəifdir. Xalqın bu vəziyyətdə tələbləri daha da arta bilər. Ona görə də siyasi situasiyanı tam nəzarət altında saxlamaq üçün fövqəladə vəziyyət elan etdi. Halbuki, daha yumşaq qadağalarla bunu ötüşdürmək olardı. Bu vəziyyətdə, Paşinyan hətta qondarma qurumdakı mövqelərini də saxta "seçki" ilə bərkitdi. Son mərhələdə isə keçmiş hakimiyyətin dönəmində təyinat alan səfirləri geri çağırır. Çox absurd bir qərardı. Dünyanın hələ heç bir ölkəsində koronavirusa görə hansısa səfiri geri çağırmayıblar. Maraqlıdır ki, Paşinyan məhz koronavirusun daha çox yayıldığı İtaliyadakı səfiri geri çağırtdırıb. Bu addımları pandemiya ilə bağlamaq sadəcə gülüncdür. Hamısında siyasi məqsəd var. Bununla Paşinyan öz siyasi rəqiblərini neytrallaşdırır və hakimiyyətinin təhlükəsizliyini qoruyur. Bu bir daha sübut edir ki, Ermənistanda siyasi addımlar xalqın təhlükəsizliyi üçün deyil, hakimiyyətin qorunması məqsədilə atılır.



Həmçinin, ekspertlər Paşinyanın böyük məğlubiyyətini proqnozlaşdırır, Lakin işğal rejiminin rəhbərliyi isə zonada koronavirusa yoluxanların olmadığını iddia edir. Ara Papyan isə bunun yalan olduğunu bildirir və yoluxanların isə testdən keçirdikdən sonra bu iddianı etdiklərini bildirir: "Sərhədlərin bağlanmasına qədər yüzlərlə insan İrana gedirdi, minlərlə insan Ermənistanda olurdu, iri tədbirlərə - dəfnlərə qatılırdı, Ermənistandan gəlmiş çox sayda insanın qatıldığı yığıncaqlarda olurdular. Bundan başqa, orada pnevmoniyadan yatan çox sayda insan var".

### Beynəlxalq təşkilatların bəyanatı - saxta seçkilərə yox!

Həmçinin, beynəlxalq təşkilatlar, ayrı-ayrı dövlətlər bəyanat verərək "seçkiləri" tanımadıqlarını bəyan ediblər. Bildirilib ki, koronavirusun geniş yayıldığı bir vaxtda Paşinyanın "seçkilər" keçirməkdə məqsədi Qarabağdakı separatçı rejimə öz adamını yerləşdirmək olub. O da qeyd olunur ki, Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ bölgəsində koronavirus aşkarlanan kənd təcrid edilib. Laçın rayonunun ərazisinə daxil olan kəndə giriş-çıxış qadağan olunub. Bildirilib ki, koronavirusa yoluxanın təmasda olduğu insanların sayı məlum deyil. Onun ailə üzvləri və daha 20 nəfərlə təmasda olduğu ehtimal edilir.

Terrorçu "Sasna tsrer" partiyasının tərəfdarı olan keçmiş səfir, "Modus vivendi" mərkəzinin rəhbəri Ara Papyan erməni KİV-ə açıqlamasında deyib ki, ötən ayın sonunda keçirilən "seçkiləri" əslində seçki adlandırmaq olmaz. Bütün dünyada kütləvi tədbirlərin ləğv edildiyi, karantin tətbiq olunduğu bir vaxtda Qarabağda 76 min adamı küçələrə çıxarıb seçki məntəqələrinə aparmaq virusun yayılması üçün böyük risk yaradıb: "Deyirlər ki, Qarabağda yoluxma halı aşkarlanmayıb. Kim bunu axtarıb? Cəmi 29 nəfərdən analiz götürüblər. Üstəlik mən orada olmasam da dostlarım bildirir ki, bu seçkilər hansı pozuntularla keçib. Müxtəlif formalarda rüşvət verilməsi, seçicilərin ələ alınması, onlara təzyiqlər və təhdidlər barədə nəhəng həcmdə informasiyalar daxil olub".

Sabiq səfir onu da əlavə edib ki, "prezidentlik" üçün hazırda favorit Arutyunyandır. Çünki o, köhnə klanın nümayəndəsi kimi həm Sarkisyanı, həm də baş nazir Paşinyanı qane edir.

### ABŞ-dan Ermənistana vurulan tərs sillə...

Hadisələrin bu səpkidə cərəyan etdiyi bir vaxtda isə ABŞ-dan Ermənistana vurulan tərs şillə bu ölkədə əsl şok effekti yaradıb. Belə ki, ABŞ Qarabağ separatçılarına göstərdiyi birbaşa yardımı dayandırıb. Xatırladaq ki, erməni lobbi təşkilatlarının və konqresmenlərin fəal səylərinə baxmayaraq, ABŞ Qarabağ separatçılarına göstərdiyi birbaşa yardımı dayandırıb. Erməni mediası yazır ki, yardımın bərpası üçün bütün cəhdlər tam iflasa uğrayıb.

Erməni politoloq Qaqik Hambaryan isə qeyd edir ki, kimsə səhv başa düşürsə və ya fövqəladə bir şey olmadığını iddia edirsə, o halda mən deyərdim ki, bu, Ermənistan hakimiyyətinə siyasi mesaj və Tramp tərəfindən Paşinyana vurulan bir şillədir. Qeyd edib ki, Vaşinqtonun bu demarşı, hətta ABŞ-dakı kifayət qədər nüfuzlu erməni lobbisinin belə Tramp administrasiyasını bu qərarı yenidən nəzərdən keçirməyə inandıra bilmədiyini və Ermənistan-Amerika münasibətlərinin nə qədər utancverici olduğunu göstərir: "1.5 milyon dollar ABŞ üçün "simvolik" və cüzi bir məbləğdir, lakin bunun əhəmiyyəti çox böyük idi. Ermənistanla yanaşı, Qarabağa yalnız ABŞ dövlət səviyyəsində yardım göstərirdi və bununla da faktiki olaraq Bakı və Ankaranı əsəbiləşdirən de-fakto Qarabağı tanımış olurdu. Ankara və Bakı uzun müddətdir ki, bu yardımı ləğv etdirmək istiqamətində iş aparırdı. Ancaq Trampın bu qərarı təkcə Türkiyə-Azərbaycan lobbisinin fəaliyyətinin nəticəsi deyil, həmçinin Vaşinqtonda diqqətdənkənar qalmayan şeylərə yol verən Paşinyanın hərəkətlərinə Vaşinqtonun cavabıdır".



### Erməni yazar Qarabağdakı "seçkiləri" ələ saldı

Erməni yazar Mamiko Babayan yazır ki, fövqəladə vəziyyət şəraitində tanınmayan respublika ərazisində seçkilər keçirmək xalqın Paşinyana olan nifrəti artmaqdadır: "Çünki erməni xalqı artıq Paşinyana inanmır və bu seçkiləri qəbul etmir. Çünki Paşinyan məqsədlərinə çatmaq üçün xalqın taleyi ilə oynayır. Ona görə ki, Ermənistanda koronovirus baş qaldırandan Ermənistanın "DQR"lə "sərhəd"dəki buraxılış məntəqələri bağlanmışdı. "Sərhəd" müstəsna olaraq, Azərbaycan tərəfindən bağlanıb, Ermənistan tərəfdən isə malların daşınması üçün açıq olub. Həmçinin İran tərəfdən açıq olub - hansı ölkədə ki, koronavirus dəhşətli miqyas alıb".

### Arsen Xaratyan: "İkinci tura getmək avantüraya bərabərdir"

Ermənistanın baş nazirinin keçmiş müşaviri Arsen Xaratyan hesab edir ki, qanunvericilik fövqəladə vəziyyətin tətbiqi ilə bağlı o qədər də aydın olmadığı üçün vəziyyət çətinləşə bilər: "Dağlıq Qarabağ konstitusiyasının 76-cı maddəsinin 2-ci bəndində deyilir ki, "fövqəladə vəziyyət zamanı seçki və referendum keçirilmir". Amma ikinci turun keçirilib-keçirilməmdiyi ilə bağlı heç bir qeyd yoxdur. Əgər fövqəladə vəziyyət elan olunsa, 31 mart seçkilərinin nəticələrini ləğv etmək və fövqəladə vəziyyət bitəndən sonra seçki üçün yeni tarix təyin etmək lazım gələcək".

A.Xaratyanın sözlərinə görə, ikinci tura getmək avantüraya bərabərdir.

### "Dağlıq Qarabağ Respublikası" Ermənistan da daxil olmaqla dünyanın heç bir ölkəsi tərəfindən tanınmayıb

Bu arada təhlükəsizlik üzrə yerli ekspert Raçya Arzumanyan bildirib ki, ermənilərin məskunlaşdığı "Dağlıq Qarabağ Respublikası" de-fakto müstəqil respublika kimi mövcuddur və bu respublika Ermənistan da daxil olmaqla dünyanın heç bir ölkəsi tərəfindən tanınmayıb.

Siyasi ekspertlər də bildirirlər ki, məhz bu səbədəndir ki, saxta "seçki"yə beynəlxalq ictimaiyyət də sərt münasibət bildirib. Avstraliya, Belçika, Bolqarıstan, Kanada, Xorvatiya, Çexiya, Estoniya, Finlandiya, Almaniya, Gürcüstan, İtaliya, Litva, Latviya, Malayziya, Moldova, Monteneqro, Norveç, Pakistan, Rumıniya, Rusiya, İsveç, Türkiyə, Ukrayna, ABŞ və dünyanın bir çox başqa ölkəsi, həmçinin beynəlxalq təşkilatlar, o cümlədən ATƏT, NATO, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, Türk Şurası və GUAM bu "seçkilər"i pisləyərək, Azərbaycanın ərazi bütövlüyünə dəstək ifadə edib.

ABŞ Dövlət Departamentinin bəyanatında deyilir ki, "Birləşmiş Ştatlar Dağlıq Qarabağı müstəqil və suveren dövlət kimi tanımır. Müvafiq olaraq, biz bu "seçkilər"in nəticələrini Dağlıq Qarabağın hüquqi statusuna təsir edəcək amil saymırıq".

Lakin yenə də qəribədir ki, Qərbin aparıcı media qurumları Ermənistanın beynəlxalq hüquq normalarını pozması, həmçinin insanların həyatını təhlükəyə atmasını susqunluqla qarşılayır. Bu, təbii ki, erməni xalqını hiddətləndirir və Yerevanın bu addımları siyasi məqsədlər üçün atdığı bəllidir.

### Paşinyan həyasızlığı ən azından diplomatik əxlaqsızlıqdır

Belə bir vəziyyətdə Paşinyan rejimi Qarabağda zor gücünə insanları ikimərhələli "prezident seçkiləri"nə sürükləməklə dünya sivilizasiyanın müqəddəs elan etdiyi dəyərlərin arxasına sığınmaqla, bu dəyərlərə hörmətsizlik edir və onun bu addımına göz yumulur. Çünki insan haqları, demokratiya, seçmək və seçilmək hüququnun azad olduğu bəyan edildiyi bir dünyada, belə bir şəraitdə, işğal edilmiş ərazilərdə, əhalinin pandemiya qorxusu səbəbindən evdən çölə çıxmağa icazə verilmədiyi bir zamanda biabırçı, qanunsuz, saxta seçkilərin keçirilməsinə ən mədəni şəkildə hörmətsizlikdən başqa bir ad vermək olarmı? Və bu seçkilərdən sonra dünyaya meydan oxumaq, "demokratik" mesajlar göndərmək ən azından diplomatik əxlaqsızlıqdır. Çünki yırtıcıların dumanlı havada ov etməyi xoşladığı kimi, Paşinyan da koronavirusun yaratdığı çətin məqamdan uğurla bəhrələnərək seçkilərin nə yolla olursa-olsun keçirilməsinə, həmçinin ona lazım olan adamın "prezident kürsüsünə" əyləşdirilməsini həyata keçirməkdir. Bu separatçı rejimin və Ermənistan hakimiyyətinin əhaliyə qarşı amansızlığıdır. Bu Paşinyan rejiminin qəddar, amansızlığıdır ki, ölümcül virusa yoluxma səbəbindən dövlət başçılarının zirvə toplantılarının, dünya çempionatlarının, Qələbə paradlarının, təhsilin təxirə salındığı, zavodların, fabriklərin bağlandığı, dünya miqyaslı firmaların fəaliyyətinin dayandırıldığı, ölkələrdə xüsusi rejimli karantin və fövqəladə hal elan edildiyi bir zamanda bütün təhlükələri göz önünə alan Qarabağ erməniləri rejimin qorxusundan seçki məntəqələrinə gediblər.

Lakin baş verən proseslər onu deməyə əsas verir ki, Paşinyan hakimiyyəti keçirilən bu qeyri-qanuni və saxta seçkilərə görə özünün düzgün siyasi qiymətini alacaq, tələmtələsik seçkilər keçirərək minlərlə insanların, həm də işğal etdiyi ərazidə yaşayan və başqa ölkə vətəndaşları olan sakinlərin həyatlarını təhlükəyə atdığına görə insanlığa qarşı cinayət kimi dəyərləndirilməli, beynəlxalq hüquq qarşısında cavab verməli və cinayət məsuliyyətinə cəlb edilməlidirdir.

***A.SƏMƏDOVA***

# Ruhunu şeytana satan müxalif "virtual terroristlər"

***İ**yirmi birinci əsrdə bütün bəşəriyyəti ağuşuna alan koronavirusa qarşı mübarizə olaraq karantin qaydalarına əməl etmək üçün "evdə qal" kampaniyasının aparıldığı, hamının evdə oturduğu bir vaxtda özünün evdə qalmağını "ev dustaqlığı", "ev konslageri" kimi qələmə verərək və bu qanunları pozduğuna görə məsuliyyətə cəlb olunan şəxsləri "koronovirus məhbusları" elan edən ruhunu şeytana satan erməniqulbeçələrinin nə demək istədikləri bəllidir. Bu qədər həyasızlıq olar? Bu torpaqda yaşayasan, havasını udasan, bəhrələnəsən...*

Harınlaşmaq, quduzlaşmaq, əxlaqsızlıq buna deyilir. Bu o quduzlardır ki, heç yerdə işləməyərək, bütün günü otaqlarından videolar çəkib, paylaşır, hər gün də xalqını, dövlətini, hətta ailəsini satan Sevinc Osmanqızının "bəh-bəh"li tərifləri və dilətutmaları ilə öz aləmində "siyasir şərhçi" edən xalqın onları qəbul etmədiyi 27 ildən çoxdur ki, tarixin zibilliyində eşələnən viruslardır. Bu o viruslardır ki, pandemiyaya qarşı görülən işləri siyasiləşdirərək, xaricdən aldıqları qrantları qazanmaq üçün bütün çirkin əməllərə əl atır. Bir də virus üçün fərqi yoxdur ki, sən hansı partiyanın üzvüsən. Amma təəssüf ki, "siyasi viruslar" üçün fərqi var.



Azərbaycanın güclənməsini istəməyən, onu daim tənəzzül edən, xaos, anarxiya girdabında boğulan bir ölkə kimi görmək istəyən antiazərbaycan dairələr bütün qüvvələrini cəmləşdirərək "ənənəvi üsullar"dan istifadə edərək ölkəmizə qarşı "qara piar" kampaniyası aparmaqla yanaşı, yeni məkrli planlar hazırlayıb, onları reallaşdırmaq üçün min bir oyundan çıxırlar. Onlar bu məqsədlə özünü "demokratik qüvvələr" adlandıran bir qrup marginal dəstədən-AXCP sədri Əli Kərimli, "Milli Şura"nın sədri Cəmil Həsənli kimi adını azərbaycanlı qoyan məxluqlardan və onların tör-töküntülərindən məharətlə istifadə edirlər. Və bu gün də Avropanın müxtəlif ölkələrində "mühacir" statusu ilə veyl-sərgərdan həyat tərzi yaşayan, xarici kəşfiyyat orqanları tərəfindən ələ alınan bəzi xəyanətkarların himayədarlığı və maliyyəsi ilə "söyüş makinası" funksiyasını yerinə yetirərək dövlətimizi, dövlətçiliyimizi və onların simvollarını alçaqcasına təhqir edən Qurban Məmmədov, Oruduxan Teymurxan, Tural Sadıqlı, Həbib Müntəzir, Vidadi İsgəndərli, Məhəmməd Mirzəli kimi milli dönüklər, "virtual terroristlər" bu məkrli və çirkin prosesin önündə gedərək antiazərbaycan şəbəkənin sifarişlərini yerinə yetirmək üçün ən əxlaqsız, mənəviyyatsız üsullara əl atırlar.

Lakin anlamırlar ki, Prezidentimizi xalq dəstəkləyir. Xalqın gücünün olduğu yerdə, heç bir xarici qüvvə nəsə etmək imkanına malik deyil.

"Bu gün dünyada elə bir qüvvə yoxdur ki, hansısa qərarı bizə aşılasın, yaxud da bizə nəyisə diktə edə bilsin. Belə qüvvə yoxdur və nə qədər ki, mən Prezidentəm, belə qüvvə olmayacaqdır"

Bəli, bu gün xalq öz Prezidentinə inanır və Onun yanındadır. Prezidenti İlham Əliyev çıxışlarında dəfələrlə vurğulayıb ki, bu yolun heç bir əhəmiyyəti yoxdur: "Burada özünü "müxalifət" adlandıran və tamamilə rüsvayçı halda guya fəaliyyətini davam etdirən qruplaşmadan artıq onların əli üzülüb, onlara heç inam da qalmayıb. Ona görə yeni "beşinci kolon"un yaradılması istiqamətində iş aparılır. Çünki indiki "beşinci kolon" öz sahiblərinin etimadını doğrultmur. Azərbaycanda çevriliş edə bilməyib, dırnaqarası inqilab edə bilməyib, xalqın dəstəyini qazana bilməyib, sadəcə, onlara müntəzəm olaraq verilən pulları mənimsəyib və beləliklə, öz havadarlarını pis günə qoyubdur. Odur ki, yeni beşinci kolon axtarışı gedir. Mən bütün siyasi qüvvələri bu məsələ ilə bağlı çox ciddi xəbərdar etmək istəyirəm ki, bu yol xəyanət yoludur, bu yola gedən xalq, dövlət qarşısında xəyanət edəcək. Ona görə bizim bütün daxili problemlərimiz Azərbaycanın daxilində həll olunmalıdır. Biz, öz daxili problemlərimizi, siyasi çəkişmələri xaricə ixrac etməməliyik. Birincisi, bunun heç bir əhəmiyyəti yoxdur. Çünki bu gün dünyada elə bir qüvvə yoxdur ki, hansısa qərarı bizə aşılasın, yaxud da bizə nəyisə diktə edə bilsin. Belə qüvvə yoxdur və nə qədər ki, mən Prezidentəm, belə qüvvə olmayacaqdır. Ona görə bu, tamamilə mənasızdır".

Dövlət başçısı, həmçinin koronavirusun radikal müxalifət üçün, sanki göydəndüşmə bir "hədiyyə" olduğunu və bu virusun ölkəmizdə tuğyan etməsinə sevinənlərin ancaq xalqa düşmən olanlar olduğunu da bildirib: "Mən hər şeyi öz adı ilə çağırıram. Əgər kimsə xalqımıza, dövlətimizə düşmənçilik edirsə, onun bir adı var - düşmən. Hər kəs bunları belə də çağırmalıdır. Bunların indiki arzuları da gözlərində qalacaq. Sözüm onda deyil, sözüm ondadır ki, siyasi islahatlar bu gün tam yeni bir konfiqurasiya yaradır. Əminəm ki, marginal qruplaşmaya yeni konfiqurasiyada yer yoxdur və olmamalıdır. Azərbaycan xalqı onları 27 il bundan əvvəl tarixin zibilxanasına atıbdır".

Göründüyü kimi, ölkə başçısı radikal müxalifətin koronavirus dönəmi ilə bağlı bəyənilməyən addımlarının və gələcək üçün planlarının olduğunu qeyd edib. Radikal müxalifət belə gərgin situasiyadan öz xeyri üçün necə istifadə edə bilər, bu yöndə onların hansısa planı ola bilərmi? Mümkünsüzdür. Çünki 27 ildən çox müddət ərzində ancaq bütün mənliklərini 5-10 qrantlara satan Əli Kərimli, Cəmil Həsənli, İsa Qəmbər, Arif Hacılı, Sevinc Osmanqızı...kimilər erməni lobbisinin təsiri altında olublar. AXCP sədri Əli Kərimli ilə "siyasi mühacirlər"in yeni vüsət almış sinxron fəaliyyətlərinin təməlini təşkil edən məqsəd və öhdəlik Azərbaycan hakimiyyətinin beynəlxalq təzyiqlərə məruz qalmasını təşkil etməkdir. Heç bir sosial bazaya və xalqın dəstəyinə sahib olmayan "Milli Şura" və radikal dindarlar formalaşdırdıqları trol dəstələri vasitəsilə sosial şəbəkələrdə Azərbaycan hakimiyyəti haqqında dezinformasiya tirajlayır, dövlət və dövlətçilik üçün zərərli ideyaların yayılması ilə məşğul olurlar.

Ancaq istər ölkə daxilindəki, istərsə də müxtəlif xarici ölkələrdə məskunlaşmış antimilli ünsürlər bilməlidirlər ki, gec-tez respublikamıza qarşı təxribatçı, yalançı-kamufulyajlı təbliğatı həqiqətlərin qarşısında tab gətirməyərək qısa müddətdə sabun köpüyü kimi dağılıb gedir və gedəcək də!. Vətən əxlaqından, milli mənlik şüurundan, məntiq və zəka gücündən məhrum olan, xalqa və milli dövlətçiliyin qəsdinə duran bu "ruhunu şeytana satan" xəyanətkarlar gec-tez öz layiqli cəzalarını alacaqlar.

***Rəfiqə HÜSEYNOVA***



**Təhmasib Novruzov**

# Çörəyi ver çörəkçiyə...

***Q**ələm adamları bilir, hər dəfə hansısa mövzuda yazıya başlayanda, ilk növbədə ona başlıq seçmək haqqında düşünməli olursan. Çünki başlıq elə seçilməlidir ki, həm yazacağın yazının əsas məğzini özündə ehtiva etməli, həm də mümkün olduğu qədər oxucunun diqqətini çəkməlidir. Bu yazıma da başlıq haqqında düşünəndə yenə ulularımızın kəlamı yadıma düşdü. Və nəzərdə tutduğum məramı özündə ehtiva edən bundan daha tutumlu başlıq mümkün olmadığını yəqin etdim. Rəhmətlik atalarımızın buyurduğu və yazıma bağlıq seçdiyim həmin kəlamdakı fəlsəfəni hər kəs anlayır.*

Odur ki, bu fəlsəfə üzərində dayanmadan birbaşa keçirəm mətləbin ortasına. Çox keçmişə və çox da uzağa getməyəcəm. Son iki ildə Azərbaycan dövlətində aparılan islahatlar daxilində yeni və daha bacarıqlı kadrların yüksək məmur postlarına təyin edilməsindən sonrakı durum üzərində kiçik bir "gəziti"yə çıxacam. Ölkə başçısı cənab İlham Əliyev 2018-ci ilin Prezident seçkilərində ölkədə bütün sahələrdə, o cümlədən kadr sahəsində köklü islahatların aparılacağına vəd vermişdi. Həmişə olduğu kimi, yenə vədinə sadiq qalan Prezident ölkənin idarə olunmasında kadrların seçilib yerləşdirilməsinin xüsusi əhəmiyyət kəsb etdiyini nəzərə alaraq, əksər dövlət qurumlarına, həm mərkəzi, həm də yerli icra orqanlarına yeni kadrlar təyin etməyə start verdi. Nəticə göz önündədir.

Təhsil Nazirliyində kiçik zaman kəsiyində çox mühüm saflaşma islahatı aparan Mikayıl Cabbarov ölkənin ən ağrılı mərkəzi icra orqanlarından birinə - Vergilər Nazirliyinə təyin ediıdi. Onunla paralel Gömrük Komitəsinin də rəhbərliyi dəyişdirildi. Cəmi bir ilin ərzində iki mərkəzi icra orqanlarının fəaliyyətində baş verən dəyişiklik onunla nəticələndi ki, dövlət büdcəsinə nəzərdə tutulduğundan bir milyardan çox əlavə vəsait daxil oldu. Ən diqqət çəkən isə odur ki, yeni rəhbərlik bu nailiyyəti adamlara cəza verməklə, kimlərisə həbs etməklə, cərimələməklə deyil, vergi sahəsindəki köklü islahatlarla gerçəkləşdirə bildi. Məhz həmin vəsait imkan verdi ki, vətəndaşların sosial durumunun yaxşılaşması məqsədilə bir ildə iki sosial paket ortaya qoyuldu və insanların həyat şəraitinin yaxşılaşdırılması yönündə mühüm addımlar atıldı.

Eyni zamanda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə yeni, gənc kadrın təyin edilməsi bu sahədə nə qədər yeniləşmələrə səbəb olduğu göz önündədi. Korrupsiyanın, bürokratiyanın baş alıb getdiyi bu nazirlikdə saflaşma, təmizlənmə, insanlarla davranış mədəniyyəti sahəsində baş verən dəyişikliklər bu nazirliyə müraciət edən hər kəsə bəllidi. Bütün sosial təyinatların müəyyənləşdirilməsi, təyin edilməsi və ödənilməsi işinin tamamilə elektronlaşması və DOST xidmətinin geniş vüsət alması isə Azərbaycanda sosial xidmət sahəsində inqilab adlandırıla bilər. Bir il ərzində üç yüz minə qədər qeyri-formal fəaliyyət göstərən ölkə vətəndaşlarının Əmək Müqaviləsi bağlayaraq qanuni fəaliyyətə üstünlük verməsi də həm Vergilər Nazirliyinin, həm də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin birgə apardıqları məqsədyönlü islahatların nəticəsidir.

Nəticədə üç yüz minədək insan pensiya almaq, xəstəlik zamanı müavinət almaq, işsiz qaldığı zaman dövlət təminatına götürülmək və s. kimi hüquqlar əldə etdi. Qaçqın və Məcburi Köçkünlərlə iş üzrə Dövlət Komitəsində nəzərə çarpan yeni və köklü dəyişiklikləri bu statusdan olan hər bir vətəndaş açıq şəkildə görür və qiymətləndirir. Qaçqın və köçkünlərin mənzil şəraitinin yaxşılaşdırılması yolunda vüsət alan indiki sürətli irəliləyişi, həssas təbəqəyə daxil olan bu insanların digər problemlərinə yüksək qayğıkeşliklə yanaşılması, hər ay min-min beş yüz qaçqın və köçkünün birbaşa komitə sədrin özü tərəfindən qəbul edilməsi və digər bütün bu və digər yeniliklər bu sahədə də inqilabi irəliliyişin olduğunu deməyə tam əsas verir.

Eyni fikirləri Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi və digər mərkəzi icra orqanlarının yeni rəhbərləri haqqında da demək mümkündür. Lakin bir qələm adamı olaraq xüsusi dayanmaq istədiyim bir sahə var ki, bu yazını yazmağa məni içimdən vadar edən də məhz budur. O da Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinə yeni təyinatdan sonra həm Az.TV-nin, həm də mədəniyyət və idman kanallarının işində hər kəsin diqqətini çəkən yeniləşmədən ibarətdir. Həm sovetlər dövründə, həm də müstəqillik dövründə Azərbaycanın Ana televiziyasına rəhbərlik həmişə qeyri-jurnalist kadrlara həvalə edilərdi. Əlbəttə, demək olmaz ki, jurnalist olmayan bu kadrların hamısı qeyri-peşəkar işləmiş və televiziyanın idarəçiliyi tamamilə yarıtmaz olmuşdur.

Ancaq son illərin təcrübəsi göstərdi ki, televiziya müasir dünyabaxışına malik, işgüzar, bacarıqlı, əsasən də peşəkar jurnalistin fədakar fəaliyyəti nəticəsində şöhrətini geri qaytara və xalqın qəlbini oxşayan bir yayım məkanına çevril bilər. Bir il ərzində bu şirkətin rəhbərliyi altında efirə çıxan hər üç kanalda baş verən dəyişikliklər, yeniləşmə və bu yeniləşmənin Azərbaycan tamaşaçılarının istəyini əks etdirən səviyyədə aparılması, peşəkar fəaliyyətin əhəmiyyətini bir daha ortaya qoymuş oldu. Yuxarıda haqqında danışdığım və danışmadığım digər sahələrdəki uğurları hər kəs görməyə bilər. Həmin sahələrdəki uğurları bilavasitə o sahələrlə əlaqəli insanlar görə və təqdir edə bilərlər. Lakin televiziya elə bir sahədir ki, orda baş verənləri hər bir Azərbaycan vətəndaşı görür, seyr edir, yenilənmənin içində özünün də yeniləşdiyini hiss edir.

Ana televiziyamızda cəmiyyətin bürün sahələrini əhatə edən maraqlı proqramların sayının, demək olar ki, aybaay artması, həm də yeni proqramların peşəkarcasına hazırlanması, cəmiyyətdə baş verən hadisələrin təqdimatını başdansovdu deyil, mütəxəssislərin arqumentləri ilə təqdim edilməsi və digər məqamlar bir daha onu deməyə əsas verir ki, ölkəmizdə aparılan kadr islahatının ölçülübbiçilərək, yeniləşməyə, saflaşmaya meylli, əsasən gənclərdən ibarət peşəkarlara həvalə edildiyini deyək. Bunun isə cəmiyyətdə oynayacağı daha böyük rolu qarşıdakı illərdə görəcəyimiz qaçılmazdır. Çünki ölkə başçısı çörəyi məhz çörəkçiyə verir, çörəkçi də unu necə yoğurmağın, yapmağın yollarını yaxşı bildiyindən bizlərə dadlı "çörək" buketi təqdim edir.

Ağzımız hər zaman dadlı olsun!

# Ermənilər azərbaycanlıların hüquqlarını kütləvi surətdə pozublar

**_Azərbaycan Ermənistana beynəlxalq humanitar huququn tələblərini yerinə yetirməyi və təmas xəttinin yaxınlığındakı qəsəbələrdə yaşayan azərbaycanlı mulki əhalinin olumu ilə nəticələnən atışmaları dayandırmağı tovsiyə etmişdir. Azərbaycan bildirmişdir ki, Munaqişənin yeganə həll yolu Azərbaycanın işğal olunmuş ərazilərindən Ermənistan silahlı quvvələrinin cıxarılması ola bilər. Azərbaycan umid edir ki, beynəlxalq ictimaiyyət işğal olunmuş əraziləri azad etmək və azərbaycanlılara qarşı muharibə cinayətləri torədən şəxsləri qanun qarşısında məsuliyyətə cəlb etmək ucun Ermənistana təzyiq gostərəcək._**

Azərbaycan, həmcinin torpaqlarının 20 faizinin Ermənistanın işğalı altında olduğunu vurğulamışdır və bildirmişdir ki, təcavuzkar dovlət kimi Ermənistan Azərbaycana qarşı davranışına gorə cavab verməlidir, Ermənistandan fərqli olaraq Azərbaycan sulhsevər dovlət olmuşdur və oz qonşularına qarşı ərazi iddiası qaldırmamışdır, Azərbaycan hec vaxt oz torpaqlarında ikinci erməni dovlətinin yaradılmasına icazə verə bilməz.

Azərbaycan Hokuməti qacqınların və məcburi kockunlərin sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaq və onların oz ana yurdlarına təhlukəsiz şəkildə qayıtmaq huququnun gələcəkdə həyata kecirilməsini nəzərdə saxlamaqla cəmiyyətə inteqrasiyalarına komək etmək məqsədilə bir sıra kompleks tədbirlər həyata kecirməyə davam etmişdir.

2015-ci ildə Avropa Məhkəməsi azərbaycanlı məcburi kockunlərlə bağlı iş uzrə Ermənistan əleyhinə hokm cıxarmışdır ki, bu da Azərbaycan ərazisinin bir hissəsinin Ermənistanın işğalı altında olması faktını təsdiqləyir. Bu hokm hələ də Ermənistan tərəfindən yerinə yetirilməyib.

Qacqınların və məcburi kockunlərin sosial mudafiəsini təmin etmək məqsədilə otən 24 il ərzində budcədən orta hesabla 6.6 milyard manat vəsait ayrılmışdır. Sahibkarlığa Komək Milli Fondu vasitəsilə təxminən 2000 nəfər məcburi kockunə sahibkarlıq fəaliyyətini maliyyələşdirmək ucun umumilikdə 44 milyon manat guzəştli kredit verilmişdir. Bunun nəticəsində qacqınlar və məcburi kockunlər arasında yoxsulluğun səviyyəsi 75 faizdən 12 faizə qədər azalmışdır.

Məcburi kockunlər kommunal xidmət xərclərini və dovlət ali və orta təhsil muəssisələri uzrə təhsil haqlarını odəməkdən azad olunmuşdurlar. Dağlıq Qarabağ regionu və onun ətrafındakı yeddi rayon daxil olmaqla Azərbaycan ərazisinin 20 faizinin Ermənistan tərəfindən işğalı olkədə insan huquqlarının tam şəkildə reallaşdırılması ilə bağlı əsas maneələrdən biri olmuşdur. Silahlı hucumlar zamanı Ermənistan beynəlxalq humanitar huququn tələblərini pozmuş, eyni zamanda Azərbaycan vətəndaşlarını, girov goturulmuş şəxsləri və muharibə əsirlərini məhkəməsiz-istintaqsız edam etmiş, onları Azərbaycan Ali Məhkəməsinin sədri Ramiz Rzayev Azərbaycanın Avropa Şurası, o cümlədən CEPEJ ilə məhkəmə-hüquq sahəsində uğurla əməkdaşlıq etdiyini vurğulamış, hakimlərin müstəqilliyinin təmin olunmasını, vətəndaşlara keyfiyyətli hüquqi xidmətlərin göstərilməsini, məhkəmələrdə şəffaflığın artırılmasını, informasiya-kommunikasiya texnologiyalarının tətbiqini qeyd etmiş, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Ermənistan tərəfindən torpaqlarımızın 20 faizinin zəbt olunması faktını qonaqların diqqətinə çatdırmışdır.

işgəncələrə və digər qəddar, qeyri-insani və ləyaqəti alcaldan rəftara məruz qoymuşdur. Ermənistanın işğalcı siyasəti nəticəsində Azərbaycana 818 milyard dollar həcmində maddi ziyan dəymişdir.

24. Ermənistan tərəfi Azərbaycanın məruzəsi zamanı dord dəfə fikir bildirmiş və Azərbaycanın təqdim etdiyi məlumat və faktların duzgun olmadığını və icmalın tələblərinə cavab vermədiyini qeyd etmişdir. İşci Qrupu siyasi və ya munaqişə ilə bağlı məsələləri muzakirə etmək səlahiyyətinə malik deyildi. Azərbaycan icmal prosedurundan "yanlış olaraq" oz ərazi butovluyunu bərpa etmək məsələsi kimi təqdim etdiyi "Dağlıq Qarabağ əhalisinin oz muqəddəratını təyinetmə huququ"na xələl gətirmək məqsədilə munaqişəyə subyektiv yanaşmasını ifadə etmək ucun istifadə etməyə calışmışdır. Birləşmiş Millətlər Təşkilatı da daxil olmaqla, beynəlxalq ictimaiyyət Avropa Təhlukəsizlik və Əməkdaşlıq Təşkilatının Minsk qrupunun Dağlıq Qarabağ munaqişəsinin həlli ucun yeganə beynəlxalq mandata malik format olduğunu təsdiqləmişdir. Bu səbəbdən, Ermənistan Dağlıq Qarabağ munaqişəsinin gundəmə gətirilməsinə və Azərbaycan tərəfinin milli məruzəsində və şifahi nitqlərində qeyd olunan yanlış məlumatlara etirazını bildirmişdir. Birləşmiş Millətlər Təşkilatının Təhlukəsizlik Şurasının qətnamələrinə istinad edərək Ermənistanı təcavuzkar dovlət kimi tanıtmaq cəhdləri tamamilə yanlış idi və bu qətnamələrin məzmununun manipulyasiyası idi.

25. İnsan Huquqları Şurasının Prezidenti bildirmişdir ki, butun numayəndə heyətləri insan huquqları ilə əlaqədar məsələlərə şərh bildirmək və onlarla bağlı qeyd goturmək və fikirlərini ifadə etmək huququna malikdirlər; məruzəsi nəzərdən kecirilən Dovlətə oz fikirlərini ifadə etmək huququ verilmişdir. Lakin universal dovri icmal prosesi Uzv Dovlətlər arasında movcud olan mubahisəli məsələləri muzakirəyə cıxarmaq və həll etmək məqsədi daşımır. Muzakirələr zamanı ikitərəfli munasibətlərlə bağlı məsələlərə toxunulmamalı və İşci Qrupunda bu məsələlər gundəmə gətirilməməlidir.

Ermənistanın qaldırdığı məsələlərə cavab olaraq Azərbaycan tərəfi aşağıdakıları qeyd etmişdir: "Azərbaycan polemikaya cəlb olunmaq istəmir, əksinə, tarixi faktlara, başlıca olaraq Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğal olunması və həmin ərazilərdə azərbaycanlılara qarşı etnik təmizlənmənin aparılması nəticəsində azərbaycanlıların insan huquqlarının kutləvi şəkildə pozulması və bu səbəbdən olkədə insan huquqlarının tam şəkildə həyata kecirilə bilməməsi faktına diqqət cəkmək istəyir".

Dövlət başçısı İlham Əliyev çıxışlarının birində Ermənistanın təcavüzkar siyasətindən əl çəkmədiyini bir daha bəyan edərək işğalçı dövlətin aparılan danışıqlar prosesini mənasız etməyə çalışdığını bildirmişdir. Belə ki, Azərbaycan Prezidenti bəyan etmişdir ki, Ermənistanın qeyri-konstruktiv mövqeyi bu dövlətin sülh istəmədiyini, işğal edilmiş əraziləri azad etmək fikrində olmadığını və bacardığı qədər status-kvonu saxlayaraq danışıqlar prosesini müddətsiz etməyi arzuladığını göstərir. Dövlət başçısı İlham Əliyev münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüquq prinsiplərinə əsaslanaraq həll olunmasına hazır olduğunu bir daha vurğulamışdır. Hazırda münaqişənin nizama salınması prosesi Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdir. Aparılan danışıqların gedişi konfidensial səciyyə daşısa da, Azərbaycan Prezidenti İlham Əliyev bu gün danışıqlar masası üzərində bütün işğal edilmiş Azərbaycan torpaqlarının qaytarılması və məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışı məsələlərinin mövcudluğunu bildirmişdir. Bununla yanaşı, Ermənistanın danışıqlar prosesini süni şəkildə uzatdığını və bu taktikanın heç bir perspektivinin olmadığını söyləyən dövlət başçısı İlham Əliyev nə bu gün, nə on il, nə də yüz il sonra Dağlıq Qarabağın müstəqil olmayacağını vurğulamışdır. Bu səbəbdən Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə bəyan etmişdir ki, Azərbaycan torpağında ikinci erməni dövlətinin yaradılmasına Azərbaycan dövləti və xalqı heç vaxt imkan verməyəcək. Dağlıq Qarabağa yalnız Azərbaycanın tərkibində hər hansı bir status verilə bilər. Lakin bu Azərbaycanın ərazi bütövlüyü çərçivəsində mümkündür. Bu prinsipdən kənarda heç bir məsələnin həll oluna bilməyəcəyini bildirən dövlət başçısı Azərbaycanın bununla əlaqədar öz prinsipial mövqeyindən geri çəkilməyəcəyini bəyan etmişdir.

tərəfindən girov goturulmuşdurlər. Azərbaycanın Xocalı rayonunda Ermənistanın torətdiyi və uşaqlar, qadınlar və yaşlılar da daxil olmaqla təxminən 700 nəfər azərbaycanlının qətli ilə nəticələnən soyqırımın acdığı yara hələ də sağalmayıb". Azərbaycan Ermənistanı BMT Təhlukəsizlik Şurası tərəfindən qəbul olunmuş və Azərbaycan ərazilərinin tamamilə azad edilməsini və məcburi kockunlərin oz doğma yurdlarına təhlukəsiz və layiqli şəkildə qaytarılmasını nəzərdə tutan qətnamələrə əməl etməyə cağırmışdır.

Artıq beynəlxalq aləm də erməni təcavüzü ilə bağlı məlumatlıdır və bu, uzun və gərgin fəaliyyətin nəticəsidir. Son zamanlar əcnəbi jurnalistlərin, alimlərin və siyasətçilərin erməni təcavüzü ilə bağlı çıxışları bu qəbildəndir və müsbət tendensiyadır. Rusiyalı alim, tarixçi, siyasi şərhçi Oleq Kuznetsov bildirib ki, Dağlıq Qarabağ məsələsində Azərbaycanın mövqeyi tam ədalətli, qanuni və hüquqi cəhətdən nöqsansızdır: "Dağlıq Qarabağ və onun ətrafındakılı 7 rayon Ermənistan Respublikası tərəfindən işğal olunub. Bu ərazidə heç bir Artsax dövləti mövcud ola bilməz. Bundan başqa, Ermənistanın Azərbaycana qarşı təcavüzü dövlətlərarası müharibə deyil, bu transmilli erməni terrorizminin Azərbaycan xalqına və onun suveren dövlətinə qarşı təcavüzüdür. Buna görə də indi Azərbaycanın işğal olunmuş ərazilərində Artsax adlandırılan qurum əslində terrorçu dövlətdir. Bu dövlət həm təşkilatlanma forması baxımından, həm fəaliyyət metodları, həm də mahiyyət etibarilə başqa bir terrorçu dövlət - Suriya və Livan ərazisində fəaliyyət göstərən İŞİD İslam Dövlətindən çox da fərqlənmir".

**_Vahid Ömərov_**
**_Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent_**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

21 aprel

# Səs

Son səhifə

## Məşhur model oğrunu süpürgə ilə ram etdi!



**Tanınmış brazilyalı model Mişel Karvalyu rəfiqəsi Alisia Vial ilə evinə gedərkən, hücuma məruz qalıb. Hadisə Çilinin paytaxtı Santyaqoda baş verib.**

Rəfiqələr binaya daxil olarkən, naməlum şəxs Karvalyunu çantasını əlindən alaraq, qaçmağa cəhd edib. Məşhur model soyğunşuya əlindəki süpürgənin sapı ilə müqavimət göstərib.

Karvalyu o anları əks etdirən görüntülərii Instagram hesabında paylaşıb və bunları yazıb: "Hər şey 10 saniyə içində baş verdi. Heç nə düşünməyə vaxtım yox idi. Əlimdə eynək qutusu vardı, onu belə yerə qoymadan soyğunçunu sadəcə süpürgə ilə vurdum. Məni ən çox kədərləndirən şey oğru ilə mübarizə aparan iki qadını görmələrinə baxmayaraq, ətrafdakıların kömək etməməsi idi. Güman edirəm ki, bu Çilidən başqa heç bir ölkədə baş vermir". Braziliyalı model çantanı oğrunun əlindən aldıqlarını, ancaq onun çantadan düşən cib telefonunu götürərək, qaçdığını bildirib.

## Ronaldonu İnstaqramda yarım milyard fanat izləyir!



**"Yuventus"un hücumçusu Kriştiano Ronaldo futboldakı uğurunu sosial mediaya da daşıya bilib. Qol.az-ın xəbərinə görə, portuqaliyalı futbolçunun izləyicilərinin sayı son bir ildə fantastik sürətlə artaraq yarım milyarda yaxın - 422 milyona (ötən ilin aprelində 361 milyon) çatıb. Ronaldo ən yüksək irəliləyişə İnstaqramda nail olub. Ötən ilin aprelində onun izləyici sayı 162 milyon idisə, indi bu göstərici 213 milyondur. Tvitterdə say 77 milyondan 83 milyona, Feybsukda isə 122 milyondan 126 milyona yüksəlib.**

Beləliklə, Ronaldo Feysbuk və İnstaqramda ən çox izlənilən şəxsdir. O, Feybsukda 126 milyon göstərici ilə kolumbiyalı müğənni Şakira (94 milyon), amerikalı aktyor Vin Diesel (94 milyon) və repçi Eminemi (82 milyon) geridə qoyur.

İnstaqramda 213 milyon izləyici sayı ilə birinci olan Ronaldodan sonrakı yerləri amerikalı müğənnilər Ariana Qrande (181 milyon), Selena Qomez (173 milyon) və aktyor Dueyn Conson (179 milyon) tutur. PSJ-nin hücumçusu Neymer isə Ronaldodan sonra sosial şəbəkədə ən çox izlənilən ikinci futbolçudur (242 milyon - İnstaqramda 137 milyon, Faysbukda 59 milyon, Tvitterdə 46 milyon).

"Barselona"nı kapitanı Lionel Messiyə gəlincə, onun sosial mediada ümumi izləyici sayı 241 milyondur. Bununla da o, Ronaldodan xeyli fərqlə geridə qalır. Tvitter hesabı olmayan argentinalının İnstagramda 148 milyon, Feysbukda 93 milyon izləyicisi var.

## İbrahimoviç: "Bankda 300 milyonum var, kim ağzını açsa, öldürərəm"



"Los Anceles Qelaksi"nin futbolçusu Joao Pedro keçmiş komanda yoldaşı Zlatan İbrahimoviç haqda şok açıqlama verib. Belə ki, portuqaliyalı yarımmüdafiəçi "Record"a müsahibəsində bildirib ki, Zlatan MLS liqasında "Dinamo" ilə oyundan sonra komanda yoldaşlarını ölümlə təhdid edib: "Hyuston "Dinamo"su ilə oyunda hesabda öndə olsaq da, daha sonra qollar buraxıb, geri düşdük. Oyunu 2:3 hesabı ilə uduzduq. Matçdan sonra isə Zlatan bizi gözəl şəkildə "başa saldı". O, bizə dedi: "Əgər bura çimərliyə getmək və ya Hollivudu gəzmək üçün gəlmisinizsə, deyin, bilim. Bankda 300 milyonum var və bir adaya sahibəm. Bunların heç birinə ehtiyacım yoxdur. Əgər kimsə ağzını açsa, onu öldürərəm. Həqiqətən bunu edərəm".

Pedro eyni zamanda, Zlatanın məşqlərdə də diqqət mərkəzində olmaq istədiyini bildirib:"Məşq vaxtı 11-11-ə futbol oynayacaqdıq. Başlama vuruşunu kimin vuracağını soruşarkən, məşqçimiz "Joao Pedro vursun, onun doğum günüdür" dedi. İbrahimoviç isə ona tərəf dönüb, "hər gün mənim doğum günümdür, topu mənə ver" deyib, qəhqəhə ilə güldü".

Qeyd edək ki, hazırda "Milan"ın üzvü olan 38 yaşlı İbrahimoviç 2018-2019-cu illərdə ABŞ klubunda çıxış edib və 58 oyuna 53 qol vurub.

## 3 yaşlı uşaq yol qəzasında öldü



Aprelin 18-də saat 8 radələrində Lənkəran rayonunda faciəvi hadisə baş verib.

XəzərXəbər xəbər verir ki, rayonun Digah kəndi ərazisində Göyşaban kənd sakini M.Əlizadə idarə etdiyi "Hyundai" markalı avtomobillə yolu keçən kənd sakini 3 yaşlı Amili vurub. Nəticədə uşaq aldığı xəsarətlərdən hadisə yerində ölüb. Lənkəran ŞRPŞ tərəfindən araşdırma aparılır.

## Arvadına və qızına işgəncə verən şəxs ölü tapıldı



Türkiyənin Ağrı vilayətində qızına və arvadına işgəncə verən şəxs ölü tapılıb. "Demirören Haber Ajansı"nın (DHA) verdiyi məlumata görə, hadisə Doğubəyazit rayonunda baş verib. Belə ki, spirtli içki və narkotik maddə istifadəçisi olduğu iddia edilən Ramazan İnanç arvadı Müjgan İnançı döydükdən sonra sellofan paketi əridərək, onun üzünə və ayağına töküb və onaişgəncə verib. Anasının səsinə gələn qızı N.İnançın da alnına sellofan paketi əridib tökən həmin şəxsbeş ay müddətinə həbs edilib. 10 gün əvvəl həbsdən buraxılan R.İnanç bu gün üç güllə ilə sinəsindən vurularaq öldürülüb. Məlum olub ki, R.İnanç həbsdən çıxdıqdan sonra arvadının əmisi Mehmet Əli Akdağın evinə gedib. Onlar arasında yaranan mübahisə nəticəsində R.İnanç arvadının əmisini bıçaqlayaraq, qaçıb. Şahidlərin dediyinə görə, bundan sonra onunla birgə üç avtomobildə hadisə yerinə gələn 13 nəfər döydükdən sonra R.İnançı öldürüblər. Onların Əli Akdağın qohumları olduğu bildirilir. Hazırda həm şəxslərin ifadələri alınır./oxu.az

## Kıvanç Tatlıtuğu koronadan sağaldan MENYU



Türk aktyor Kıvanç Tatlıtuğ koronavirus şübhəsilə yatdığı xəstəxanadan buraxılıb. Aktyorun həyat yoldaşı Başak Dizer ona xüsusi pəhriz hazırlayıb. Pəhriz tərəvəz, paxla və toyuq ətindən ibarətdir. Məşhur aktyorun sağlamlıq menyusunu təqdim edirik: ılıq su, C vitamini ilə zəngin kivi, zəncəfil, qoz, badam və kərəviz suyu.

*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**